MƏHCƏBİN QƏDİMBƏYLİ

# NAXÇIVAN FOLKLORUNDA ESTETİK VƏ EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

*(Dərs vəsaiti)*



9

MƏHCƏBİN QƏDİMBƏYLİ

108884

# NAXÇIVAN FOLKLORUNDA ESTETİK VƏ EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

*(Dərs vəsaiti)*

*Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə (protokol № -07) dərs vəsaiti kimi təsdiq edilmiş və çapa tövsiyə olunmuşdur.*

Azərbaycan Milli Kitabxanası

Naxçıvan – 2017

Elmi redaktoru: Fərahim Sadıqov
*Pedaqogika üzrə elmlər doktoru, professor*

Rəyçilər: Elbəyi Maqsudov
*Pedaqogika üzrə elmlər doktoru, professor*

Vahid Rzayev
*Pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

***Qədimbəyli Məhcəbin Əsgər qızı.*** *Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələləri. Naxçıvan: Əcəmi, 2017, 120 səh.*

*Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Qədimbəyli Məhcəbin Əsgər qızının "Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələləri" adlı bu dərs vəsaitində Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələlərindən bəhs olunur. Müəllif Naxçıvandan toplanmış folklor materiallarına istinad edərək folklorda estetik və ekoloji tərbiyənin insan mənəviyyatının formalaşmasında əhəmiyyətindən bəhs edir. Bu vəsaitdən folklorla məşğul olan tədqiqatçılar, pedaqogika və etnopedaqogika sahəsində tədqiqat aparanlar, orta və ali məktəblərdə dərs deyən pedaqoqlar, həmçinin bakalavr və magistratura tələbələri faydalana bilərlər.*

4700000000
053-2017

© "Əcəmi" 2017.

ARXİV

# KİTABIN İÇİNDƏKİLƏR

GİRİŞ .......... 4

**I FƏSİL**
NAXÇIVAN FOLKLORUNDA ESTETİK TƏRBİYƏ MƏSƏLƏLƏRİ .......... 16

**II FƏSİL**
NAXÇIVAN FOLKLORUNDA EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ .......... 63

NƏTİCƏ .......... 103

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT .......... 107

# GİRİŞ

Müstəqillik qazandığımız hazırkı şəraitdə "...tərbiyə işi dərin sosial-iqtisadi və siyasi islahatlar zəminində həyata keçirilir" (5, s.3). Odur ki, yetişən nəslin milli mədəniyyət nümunələri, qeyri-maddi irsə dair etnopedaqoji materiallar, eləcə də maddi-mənəvi dəyərlər əsasında tərbiyəsi qarşıda duran ən ümdə vəzifələrdən hesab olunur.

Ümummilli liderimiz Heydər Əliyev "etnik folklor irsini milli poetik təfəkkür və mənəvi mədəniyyət faktı kimi yüksək qiymətləndirir" (84, s.102). Böyük öndər bir sıra çıxışlarında, məktəblilərlə, tələbələrlə, təhsil işçilərilə, müəllim və tərbiyəçilərlə görüşlərində milli-mənəvi dəyərlərimizin formalaşması, qorunaraq gələcək nəsillərə çatdırılması ilə bağlı çoxsaylı tövsiyələr vermişdir. Ulu öndərimiz milli-mənəvi dəyərlərimizin tədqiqinin zəruriliyi haqqında tövsiyələrinin birində deyirdi: "...Azərbaycan xalqının qədimliyini, dərin köklərini, zəngin mədəniyyətini və ulu babalarımızdan bizə gəlib çatmış irsi daha da dərk etməyin, daha da yaxşı bilməyin, şübhəsiz ki, bugünkü və gələcək nəsillər üçün çox əhəmiyyəti vardır. Butun Azərbaycanda, o cümlədən Naxçıvanda bu tədqiqatlar aparılmalıdır, bu işlər görülməlidir" (75, s. 259).

Ulu öndərimizin bu tövsiyələri milli-mənəvi dəyərlərimizin toplanılması, qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsilə bağlı mütəxəssislər və tədqiqatçılar qarşısında mühüm vəzifələr qoyur.



Milli-mənəvi dəyərlərimizin ən nadir incilərindən biri isə milli folklorumuz hesab olunur. "Zəngin şifahi xalq ədəbiyyatımız... xalqımızın qədim tarixindən, onun ictimai-mədəni həyatından, zəkasından, istək və arzularından, tərbiyə və təhsil səviyyəsindən xəbər verir" (49, s.14). Odur ki, folklorumuzun toplanılması, qorunması, gələcək nəsillərə çatdırılması işində pedaqoq alimlərin qarşısında mühüm vəzifələr durur. Ona görə ki, etnopedaqoji materiallar adlandırılan bu folklor nümunələri yetişən nəslin hərtərəfli tərbiyəsi işində əvəzsiz rola malikdir. "Kökü qədim zamanlara bələdçilik edən mənəvi-əxlaqi dəyərlərimizdə istənilən qədər, istənilən biçimdə və yozumda tarixin sərt sınaqlarından "üzüağ" çıxmış tərbiyəvi fikirlər vardır. Şifahi söz yaradıcılığı, ümumən, millətimizin tükənməz mənəvi xəzinəsidir" (79, s.21). Məhz bu baxımdan, folklor nümunələri məktəblilərin əxlaqi-mənəvi simasını saflaşdırır, ideya-siyasi görüşlərini inkişaf etdirir, halal əməyə məhəbbətini yüksəldir, fiziki kamilliyini artırır, ətraf mühiti qorumağa ruhlandırır, estetik-bədii zövqlərini formalaşdırır.

Təsadüfi deyil ki, Azərbaycan dövləti folklor nümunələri vasitəsilə yetişən nəslin nümayəndələrinin hərtərəfli inkişaf etdirilməsinə böyük diqqət yetirir. 2009-cu ildə Bakı "İslam mədəniyyətinin paytaxtı" elan olunanda Azərbaycan folklorunun islam dəyərlərilə bağlı olan nümunələrinin toplanması ənənəyə çevrildi. 2011-ci ilin aprel ayında Bakıdakı "Gülüstan"

sarayında keçirilən "Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu"nun iştirakçılarının xalqımızın milli-mənəvi dəyərləri, o cümlədən folklorumuzun zəngin nümunələrilə tanış olması etnopedaqoji dəyərlərimizin beynəlxalq nüfuz, ümumbəşəri imic qazanmasına şərait yaratdı.

2000-ci ilin aprelində ulu öndərimiz Heydər Əliyevin qayğısı və rəhbərliyi ilə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO səviyyəsində Azərbaycanda keçirilməsi milli folklorumuzun nə qədər yüksək mənəvi dəyərlərə malik olmasını bir daha təsdiq etdi. Odur ki, folklorumuzun milli-mənəvi dəyərlərini yüksək qiymətləndirən professor Zahid Qaralov Azərbaycanda tərbiyə nəzəriyyəsinin xalq yaradıcılığından, folklordan başladığını söyləyərək yazır: "Azərbaycanda tərbiyə nəzəriyyəsinin bünövrəsi də məhz Oğuz "Törə"sinin çox güclü təsiri altında yaradılmış "Oğuznamə"lərdən biri olan "Kitabi-Dədə Qorqud" dastanında qoyulmuşdur" (56, s.6).

Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin milli folklorumuza böyük rəğbət bəsləməsi və qayğı göstərməsi, bu qiymətli etnopedaqoji dəyərlərimizin toplanılması, onların tərbiyəvi imkanlarının üzə çlxarılması, yetişən nəslin əxlaqi-mənəvi keyfiyyətlərinin saflaşdırılması vasitəsinə çevrilməsi və habelə gələcək nəsillərə çatdırılması üçün ciddi cəhd göstərilməsi folklorumuzun hətta ən kiçik nümunələrinin tərbiyə məktəbi kimi seçilməsi işinin aktuallığını artırmış olur.



Hörmətli prezidentimiz cənab İlham Əliyevin tövsiyəsi və qayğısı ilə ayrı-ayrı regionların folklor paytaxtı kimi seçilməsi, rayon-şəhər mərkəzlərində, hətta kənd-rayonlarda folklor tədbirlərinin keçirilməsi folklorumuza olan dövlət qayğısının təzahürü kimi dəyərləndirilməlidir.

Qeyd etməliyik ki, 2018-ci il Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin Sərəncamı folklora və mədəniyyətimizə verilən ən böyük qiymətdir.

Son onilliklərdə Gəncənin, Şabranın "Əfsanələr paytaxtı", Şəkinin, İsmayıllının "Sənətkarlar paytaxtı", Lənkəranın, Masallının "Folklor paytaxtı" elan olunması folklor nümunələrimizin pedaqoji fikir tarixindəki mövqeyini daha da möhkəmləndirmiş oldu. Etnopedaqoji materiallarımızın tərbiyə nümunələri kimi sanbalı və qazandığı mövqeyi isə bizim tədqiq etdiyimiz problemin aktuallığını artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizin birinci xanımı, Azərbaycan Respublikasının birinci vitse-prezidenti,Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın apardığı ciddi işlər sayəsində Azərbaycan folklorunun qeyri-maddi irs siyahısına daxil edilməsi həmin milli-mənəvi dəyərlərimizin bənzərsiz tərbiyə məktəbi olmasını bir daha təsdiq etmiş olur. Xalqımızın folklor materiallarının bənzərsiz tərbiyə məktəbi kimi qəbul edilməsi isə hətta

onların kiçikhəcmli nümunələrinin də tərbiyə məktəbinə çevrilməsini tədqiqat obyekti kimi seçməyimizi zəruri edir.

Bu zərurətə istinad edərək biz tədqiqat mövzumuzu "Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələləri" probleminə həsr etmişik. Cünki "Xalqın yaratdığı folklor nümunələrinin mövzusu tərbiyədir" (16, s.13). Folklor nümunələrində tərbiyə məsələlərinin Naxçıvan folkloru əsasında tədqiqi də mövzunun aktuallığını özündə ehtiva edir. Çünki Naxçıvan folklor mühiti Azərbaycanın digər regionlarının folklor mühitləri ilə müqayisədə xüsusi özəlliklərə malikdir. Naxçıvanın folklor mühiti ilə Azərbaycanın digər folklor mühitləri arasındakı fərq və özəlliklər, özünəməxsusluqlar onların regional xüsusiyyətlərində özünü göstərir ki, bu da hər bir regionun folklor mühitlərinin variantlılıq özəllikləridir. Folklorun bir çox janrları Naxçıvan folklorunda bir variantda, Azərbaycanın digər bölgələrinin folklorunda başqa bir oxşar variantda verilir. Bu variantlar hər bir folklor mühitinin öz regional duyumuna görə verilir və yalnız versiyalarına görə fərqlənirlər (15, s.109).

Naxçıvan folklor mühitinin digər folklor mühitlərindən fərqi haqqında tanınmış folklorşünas, professor, AMEA-nın müxbir üzvü Azad Nəbiyev yazır: "...Zəngin yaradıcılıq qaynaqlarından biri də Naxçıvan folklor mühitidir. Onu çoxsaylı milli folklor mühitlərindən ayıran, fərqləndirən bir çox özünəməxsusluqları,



fərdi cəhətləri və xüsusiyyətləri var. Bunlar içərisində ən başlıcası şüurlu fəaliyyətə doğru təkamül prosesində olan aborigenlərin erkən psixoloji dərketmə məqamları ilə bağlı yaratdığı ilkin bədii paradiqmalar silsiləsini mühafizəkarlıqla qoruyub saxlaması, bu dövrün yaradıcılıq üslubunun bədii dəyər formatını hifz etməsi və sonrakı inkişaf mərhələsində yaratdığı dəyərlərlə yanaşı şəkildə yaradaraq hər cür assimiliyasiya və deformasiyalardan qoruyaraq günümüzə yetirə bilməsidir. Naxçıvan folklor mühiti milli yaradıcılıq ənənələri ilə zəngin və şöhrətli bir mühitdir. Ona görə şöhrətli deyirəm ki, söz yaradıcılığının və maddi dəyərlərin yaranma və formalaşmasının başlanğıc mərhələsində yaradıb üzə çıxardığı maddi və mədəni dəyərlər toplumu dünyaşöhrətlidir, sivilizasiyanın başlanğıc mərhələsinin yadigarlarıdır.... Naxçıvan folkloru bütövlükdə dünya xalqlarının folklor yaradıcılığının erkən ocaqlarından biridir. O eyni zamanda milli ictimai məntiqin və fəlsəfi fikrin ana qucağı, tükənməz məcrasıdır" (74).

Professor Azad Nəbiyevin bu elmi mülahizələri Naxçıvan folklor mühitinin özəlliyini, onun digər folklor mühitlərindən fərqini və sivilizasiyanın ilkin yaranma mərhələsinin xüsisiyyətlərini özündə ehtiva etdiyini bir daha təsdiq edir. Bu xüsusiyyət Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələlərinin tədqiqini daha da zəruriləşdirir və aktuallaşdırır.

Tədqiq etdiyimiz problemə bir neçə istiqamətdən yanaşılmışdır. Azərbaycan klassik şairləri, mütəfəkkirləri,

maarifçiləri – Qətran Təbrizi, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Saib Təbrizi, Məhəmməd Füzuli, Marağalı Əvhədi, Seyid Əzim Şirvani, Abbasqulu Ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Məhəmməd Tağı Sidqi, Sultan Məcid Qənizadə, Rəşid bəy Əfəndiyev və başqaları öz əsərlərində folklorumuzun nümunələrindən tərbiyə örnəkləri kimi istifadə etmişlər.

Azərbaycan folklorunun ilk tədqiqatçıları hesab olunan Eynəli bəy Sultanov, Mahmudbəy Mahmudbəyov, Firudin bəy Köçərli, Hənəfi Zeynallı, Əmin Abid, Yusif Vəzir Çəmənzəminli, Rəşidbəy Əfəndiyev, Vəli Xuluflu, Abdulla Şaiq, Salman Mümtaz, Hümmət Əlizadə Azərbaycan folklorunun müxtəlif janrda olan nümunələrini toplayaraq sistemə salmış, nəşr etdirmiş və oxucuların istifadəsinə vermişlər.

XX əsrin 40-cı illərindən sonra Həmid Araslı, Məmmədhüseyn Təhmasib Azərbaycan folklorunun nadir incilərini ipə-sapa düzdülər. Onlar şifahi xalq yaradıcılığının aşıq qoluna önəm verərək aşıq sənətinin folklorşünaslıqdakı yerini və mövqeyini müəyyənləşdirməyə nail oldular. Həmin əsrin 60-cı illərində və bu illərdən sonrakı dövrlərdə Qəzənfər Paşayev, Nurəddin Seyidov, Səfurə Yaqubova, Həsən Qasımov, Təhmasib Fərzəliyev, Qara Namazov, Əzizə Cəfərzadə, Əli Saləddin, Əlyar Qarabağlı, Fərhad Fərhadov, Mirəli Seyidov, Şamil Cəmşidov, Xalıq Koroğlu, Əhliman Axundov, Sədnik Paşayev, Mürsəl Həkimov, Paşa Əfəndiyev, Əminə Eldarova, İsrafil Abbaslı, Bəhlul



Abdulla, Məhərrəm Qasımlı, Məhərrəm Cəfərli kimi tədqiqatçılar Azərbaycan folklorunun həm ədəbi-bədii normalarını, həm milli koloritə aid olan spesifik xüsusiyyətlərini, həm struktur poetikasını, həm regional xarakterini təhlil etmiş, həm də onların müntəxəbat formasında nəşrinə nail olmuşlar. Göstərilən tədqiqatçıların Azərbaycan folkloruna dair yazdıqları əsərlərinin hamısı filoloji aspektdə olduğu üçün onların içərisində folklorumuzun tərbiyəşünaslıq baxımından təhlilinə rast gəlmirik.

Azərbaycan folklorunun pedaqoji kontekstdə tədqiqinə həsr edilən əsərlər də mövcuddur. Xüsusilə Azərbaycan pedaqoji fikir tarixini zənginləşdirməyə xidmət edən, eləcə də tərbiyəşünaslıq aspektində yazılan tədqiqat əsərlərinin də böyük bir sistemi vardır. Bu əsərlərdə haqlı olaraq əsaslandırılır ki: "Xalq pedaqogikası şifahi xalq yaradıcılığında, adət-ənənələrdə, uşaq oyunlarında və s. pedaqoji məlumatları və tərbiyələndirici təcrübəni özündə əks etdirən elmdir. Xalq pedaqogikası bəşəriyyətin minillik təcrübəsini özündə saxlayan və bu günümüzə qədər davam etdirən xalq kütləsinin pedaqoji mədəniyyətinin tədqiqi ilə məşğul olur" (92, s.7).

Ölkəmizdə ilk dəfə olaraq Azərbaycan folklorunun pedaqoji aspektdə tədqiqinin əsasını professor Əliheydər Həşimov qoymuşdur. Professor Əliheydər Həşimov Azərbaycanda milli folklorun pedaqoji əsaslarını fundamental şəkildə tədqiq etməklə böyük bir məktəb yaratmışdır. XX əsrin 50-ci illərindən başlayaraq o, bir

sıra dəyərli məqalələr və əsərlər yazmışdır. Onun "Azəri xalq pedaqogikasının ümumi əsasları və xüsusiyyətləri" (41), "Düz sözün kəsəri"(45), "Azərbaycan xalq pedaqogikasından mühazirələr" (40), "Azərbaycan xalq pedaqogikasından iki mühazirə" (39), "Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri" (38), "Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri" (47), "Gənc nəslin tərbiyəsində tarixi irsin əhəmiyyəti və onun öyrədilməsi yolları" (46), "Pedaqogika kursunun tədrisində xalq hikmətlərindən istifadə" (48) və professor F.B. Sadıqovla birlikdə yazdığı "Azərbaycan xalq pedaqogikası" (43), (44) və "Azərbaycan xalq pedaqogikası antologiyası" (42) adlı əsərləri xalq pedaqogikasının nadir incilərindən hesab olunur. Professor Ə.Ş.Həşimovun "Azərbaycan xalq nağıllarında və atalar sözlərində əqli və əxlaqi tərbiyəyə aid fikirlər" adlı namizədlik (94) və "Azərbaycan xalq pedaqogikası" (93) adlı doktorluq dissertasiyaları bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Lakin bu dəyərli əsərlərdə Naxçıvan folklorunun nümunələrinin yer almaması, onların tərbiyəvi əhəmiyyəti haqqında söz deyilməməsi bizi bu problemin həllinə sövq etmişdir. Etnopedaqogika sahəsində aparılan digər tədqiqatlar barədə də eyni fikirləri söyləmək olar.

İ.İ. Əliyevin "Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti" (26), "Azərbaycan etnopedaqogikası" (25), "Təlim-tərbiyə işlərində etnopedaqoji materiallardan istifadə" (28), "Ümumtəhsil məktəblərində etnopedaqoji



materiallardan istifadənin nəzəri və əməli məsələləri" (29) adlı əsərlərində Azərbaycan folklorunun müxtəlif xarakterli nümunələrindən söhbət açılsa da, onun tədqiqat obyektinə daxil olmadığı üçün Naxçıvan folklorunun tərbiyəvi əhəmiyyəti məsələsinə ayrılıqda toxunulmur.

Azərbaycan xalq pedaqogikasına dair yazılmış dissertasiyalarda da Naxçıvan folklorunun tərbiyə məsələləri yer almır.

İ.B.Həşimovun "Xalqın tərbiyəvi ideya, adət və ənənələrinin Azərbaycan pedaqoji fikrinin formalaşmasına təsiri və onlardan müasir məktəb təcrübəsində istifadə" ("Kitabi-Dədə Qorqud" materialları üzrə) (95), İ. Q. Xəlilovun "Folklorda ailə tərbiyəsi məsələləri və uşaqların kommunist tərbiyəsində onlardan istifadə" (109), X.İ.Səlimxanovanın "Məktəbəqədər yaşlı uşaqlarda əxlaqi keyfiyyətlərin formalaşmasına şifahi xalq yaradıcılığı nümunələrinin təsiri" (103), Z. Q. Rəsulovanın "Məktəblilərin əməksevərlik tərbiyəsində xalqın əməklə bağlı mütərəqqi adət-ənənələri və fikirlərindən istifadə" (76), H. A. Həmidovun "Azərbaycan milli oyunlarının sosial-pedaqoji mahiyyəti və tərbiyə işində onlardan istifadə" (34), İ. İ. Əliyevin "Orta ümumtəhsil məktəblərində təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsinə etnopedaqoji materiallardan istifadənin təsiri" (27), J. E. Mustafayevanın "Şagirdlərin vətənpərvərlik tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə" (70) , S.Q. Həsənovanın "Ailə tərbiyəsinin səmərəli təşkilində etnopedaqoji materiallardan istifadənin imkan

və yolları" (36), T. V. Rüstəmlinin "V-IX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yolları" (77) adlı dissertasiyaları etnopedaqoji mövzularda yazılmışdır. Lakin bu dəyərli əsərlərin heç birində Naxçıvan folkloru yer almamış və onların tərbiyəvi əhəmiyyəti barədə məlumat verilməmişdir. Bütün bunlar onu göstərir ki, Naxçıvan folkloru nümunələrinin pedaqoji əsaslarının ciddi şəkildə tədqiq edilməsinə zəruri ehtiyac vardır. Bunu nəzərə alaraq biz bu dərs vəsaitini "Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələləri"probleminə həsr etmişik və mövzu ilə əlaqədar Naxşıvan folklorunun bir çox janrlarının tərbiyəvi cəhətlərini təqqiqata cəlb etməyə çalışmışıq.

Dərs vəsaiti ali məktəblərin bakalavr pilləsinin (050101–Azərbaycan dili və ədəbiyyatı müəllimliyi; 050103–xarici dil müəllimliyi; 050109– musiqi müəllimliyi; 050110–biologiya müəllimliyi; 050113 – tarix müəllimliyi; 050115 – coğrafiya müəllimliyi 050117– təsviri incəsənət müəllimliyi və digər müvafiq ixtisaslarında "Pedaqogika" fənni üzrə uyğun mövzuların tədrisində, həmçinin magistratura pilləsinin 060101–Azərbaycan dili və ədəbiyyatı müəllimliyi (Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası); 060102–Dil və ədəbiyyat müəllimliyi–(dillər üsrə)(Dil və ədəbiyyatın tədrisi metodikası və metodologiyası); 060103 –Xarici dil müəllimliyi (dillər üzrə) (Xarici dilin tədrisi metodikası və metodologiyası;



060108 –Musiqi müəllimliyi (Musiqi müəllimliyinin tədrisi metodikası və metodologiyası); 060111–Tarix müəllimliyi (Tarix fənninin tədrisi metodikası və metodologiyası); 60112– coğrafiya müəllimliyi (Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası); 60114–Təsviri incəsənət müəllimliyi (Təsviri incəsənət fənninin tədrisi metodikası və metodologiyası); 060109–Biologiya müəllimliyi (Biologiyafənninin tədrisi metodikası və metodologiyası)və digər ixtisaslarında "Ali məktəb pedaqogikası" fənni üzrə uyğun mövzuların öyrədilməsində istifadəsi üçün nəzərdə tutulmuşdur.

Dərs vəsaiti ali məktəblərin müvafiq ixtisaslarında ekoloji və estetik tərbiyəyə dair seçmə fənlərin tədrisi üçün də faydalı mənbə ola bilər.

## I FƏSİL

## NAXÇIVAN FOLKLORUNDA ESTETİK TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Naxçıvan folklor nümunələrinə laylalar, oxşamalar, əzizləmələr, atalar sözləri, zərbməsəllər, tapmacalar, yanıltmaclar, hikmətli sözlər, lətifələr, rəvayətlər, xalq hekayətləri, inanclar, yuxuyozmalar, gülümheylər, gülməcələr, cangülümlər, vücudnamələr, ovsunlar, andlar, alqışlar, qarğışlar, müəllifi itmiş şeirlər, aşıq şeirləri, bayatılar, haxıştalar, uşaq oyunları, məişət və mərasim nəğmələri, holavarlar, əmək nəğmələri, əfsanələr, miflər, xalq nəğmələri və rəqsləri, dastanlar, nağıllar və s. daxildir ki, bu janrların əksəriyyətində estetik tərbiyə məsələləri xüsusi yer tutur.

Estetik tərbiyə məsələləri bu günədək istər Azərbaycan, istərsə də digər xalqların pedaqoji fikrində bir çox pedaqoq-alimlərin tədqiqat obyekti olmuş, bu haqda bir sıra dissertasiyalar, dərsliklər, monoqrafik tədqiqat əsərləri və elmi məqalələr yazılmışdır. Ə. Ş. Həşimov (43), F. B. Sadıqov (44), N. M. Kazımov (52), (53), (54), (55), Z. İ. Məmmədov (68), S. R. Abbasova (4), S. İ. Əliyev (88), Ş. Q. Əliyeva və A. Əhmədova (23), F. F. Qasımzadə (60), M. C. Cəfərov (18), A. H. Mikayılov (69), T. S. Əkbərov (21), L. Ə. Əzizova (30), S. D. Quliyev (65). S. M. Zeynalov (87), İ. H. Mürsəlov (71), V. C. Xəlilov (108), (50), Y. F. Smolyani-



nov (85), B. A. Aşmarin və M. Y. Vilenskiy (89), N. N. Vizitey (91), N. Q. Kalaşnik (97), B. T. Lixacev (99), A. A. Frenkin (107), A. B. Şerbo və D. N. Djola (110), Q. A. Prazdnikov (102) və başqaları öz tədqiqatlarında bu və ya digər istiqamətdə estetik tərbiyədən bəhs etmişlər. Kollektiv müəlliflər tərəfindən yzılan "Основы эстетического воспитания" (101), "Эстетическое воспитание во внеклассной работе восмилетней школе" (111), "Эстетика и пути творчества" (112) adlı tədqiqatlarda da estetik tərbiyə məsələləri geniş yer tutmuşdur. Bu tədqiqatların sayını artırmaq da olar. Bu onu göstərir ki, yeni nəslin tərbiyəsində estetik tərbiyə zəruri problemdir. Bu problem xalq yaradıcılığında, folklorda da xüsusi yer tutur.

1038884

Azərbaycan folklorunda olduğu kimi, Naxçıvan folklorunun bütün janrlardan olan nümunələrində də milli gözəllik idealının aşılanması mərkəzi yer tutur və tərbiyəvi mahiyyət daşıyır. "...Milli gözəllik idealı bizim nəğmələrimizdə, nağıllarımızda, dastanlarımızda və rəvayətlərimizdə daha tam şəkildə əks olunmuşdur (85, s. 37). Naxçıvan folkloru nümunələrinin eləsini tapmaq mümkün olmaz ki, onların istər süjetinin məzmununda, istərsə də forma strukturunda dar mənada bədii zövq elementləri, geniş mənada estetik tərbiyə zənginliyi olmasın. Bu nümunələrdə verilən "Estetik tərbiyə bizi əhatə edən dünyanın mücüzəli harmoniyasının gözəlliyini görməyi və qiymətləndirməyi öyrədir" (110, s.34).

Ümumiyyətlə desək, folklorda təbiətə, cəmiyyətə



Azərbaycan Milli Kitabxanası

və incəsənətə aid gözəlliklərin duyulması, qavranılması və qiymətləndirilməsi mexanizmini özündə əks etdirən əsrarəngiz estetik tərbiyə məktəbi vardır. Çünki "Xalq pedaqogikasında tərbiyə uşaqların və gənclərin həyatda, təbiətdə, əməkdə gözəllik aləmi ilə tanış olmasına və xalqın çoxəsrlik estetik mədəniyyətinə yiyələnməsinə yönəldilib" (100, s.160). Bu məktəbin işlək proqramına cəmiyyət həyatındakı gözəlliklərə biganə qalmamaq və bu gözəlliklərə diqqətlə yanaşmaq, onları qorumaq prinsipinin aşılanması daxildir. Çünki "Gözəllik təbiətdə, cəmiyyətdə, incəsənətdə son dərəcə müxtəlif formalarda təzahür edərək insanda gözəl, ülvi hislərin oyanmasına, onun yaşayıb yaratmaq əzminin güclənməsinə səbəb olur" (68, s. 66).

Xalq yaradıcılığında da hələ uşaq yaşlarından gözəlliklərin dərk etdirilməsi və estetik şüurun formalaşdırılması ideyasının aşılanması estetik tərbiyənin qarşısında duran əsas vəzifələrdən olmuşdur. Çünki "Uşaqlıqda yaranan gözəllik anlayışı insanı bütün həyatı boyu ruhlandırır" (97, s.131). Çirkinliklərə və eybəcərlikərə qaşı barışmaz olmaq, gözəllikləri qorumaq, gözəlliyin nə üçün gözəl olduğunu aşılamaq və gözəllik hissini gözəllik şüuruna çevirmək estetik tərbiyənin məzmununa daxildir. "Estetik tərbiyə insanın mənəvi aləmini zənginləşdirir, onu yüksəldir" (87, s.8). Estetik tərbiyənin əsas məzmununu təşkil edən bu məsələlər Naxçıvan folklorunun müxtəlif janrlarında – laylalarda, oxşamalarda, atalar sözləri və məsəllərdə, miflərdə, mərasim



nəğmələrində, mahnılarda, inanclarda, əfsanə və rəvayətlərdə, nağıl və dastanlarda və s. öz bədii əksini tapmışdır.

Naxçıvan folklorunun nümunələri içərisində laylalarda və oxşamalarda daha çox estetik tərbiyə ünsürləri vardır. "...Laylada ana ülviyyəti, xalq dilinin təmizliyi, bəşəri duyğuların ululuğu çox yüksək bədii təcəssümlə ifadə olunur" (86, s.128). Anaların beşik başında öz körpələrinə oxuduqları layla və "mahnılarda xalqın əsrlər boyu arzuladığı ümidləri əksini tapır. Tərbiyədə onların rolu böyükdür. Poetik sözlərə və gözəl melodiyalara görə onlar uşaqların hislərinə və şüuruna güclü təsir edir və onların yaddaşlarında uzun müddət həkk olunur" (92, s. 314).

Naxçıvanda yaranan laylalardan danışarkən deməliyik ki, insanın əxlaqi-mənəvi və estetik tərbiyəsi ailədə ilk öncə ana laylasından və oxşamalardan başlayır. Odur ki, laylaları və oxşamaları etnopedaqogikada estetik-bədii zövq tərbiyəsinin başlanğıc mərhələsi kimi də qiymətləndirmək olar. Çünki "Estetik münasibət ictimai hadisə kimi uşağın maddi ehtiyacı ödənilən prosesdə və onun əsasında yaranan elementar mənəvi ehtiyaclarla... birlikdə əmələ gəlir və... ilk hiss, həyəcanla müşayiət olunur. Artıq erkən yaşlarda uşaq həyatda harmoniya hadisələri ilə tanış olur" (99, s.21).

Əgər irsiyyəti buraya daxil etməsək, yeni doğulan körpənin hislərini hələ yüklənməmiş hesab etmək olar. Körpənin hissləri pak və təmizdir. Körpə dünyaya ilk

qədəmlərini atdıqdan sonra onu gözəllik hissi ilə yükləmək, estetik hisslərin təməlini qoymaq, ona bədii zövqün ləzzətini dadızdırmaq ana laylasının üzərinə düşür. Ana laylasını duyan, qavrayan körpə gözəllik hissinin ilk rüşeymlərini duyur. Bu duyumda əxlaqi-mənəvi, estetik dərkin musiqililiyi, melodiyası, onun zərifliyi, mülayimliyi aşılanır. Beləliklə, uşaq ana laylasının bədii gözəlliyindən füsunkar melodiyalar aləminə daxil olur və onda estetik hissin ilk qığılcımları yaranır. Hansı ki, bu estetik hisslər əxlaqi normaların bünövrəsini qoyur. Təcrübə və müşahidələrə əsaslanaraq deyə bilərik ki, ana laylası ilə böyüyən uşaqlar həzin təbiətli və mülayim olurlar. Onlar müxtəlif yaş dövrlərində də təbiət və cəmiyyət həyatındakı hadisələrə şüurlu münasibət bəsləyir, onu əhatə edən mühitə qarşı mülayim, humanist və həssas olurlar. Bu, uşaqda körpəlikdən eşitdiyi ana laylasının aşıladığı estetik hiss ilə və gözəllik tərbiyəsi ilə də bağlıdır.

Artıq yavaş-yavaş unuduruq ki, milli koloritimizin nüvəsində analarımızın laylası dayanır. Ən dəhşətlisi budur ki, evlərimizdə ana laylası, beşik nəğməsi tükənmək, təcrid olunmaq dərəcəsinə çatmışdır. Unutmaq olmaz ki, laylalarda anaların balasına olan ən böyük arzu və istəkləri ifadə olunur. Təəssüflər olsun ki, bu gün bəzi analarımız öz körpəsini yatızdırmaq üçün ana laylasından, beşik nəğməsindən yox, yuxu dərmanından istifadə edirlər. Bu cür analar unudurlar ki, nəğmələri, layla və oxşamaları öz körpələrinə oxumaqla onları



mənəvi cəhətdən saflaşdırır və fiziki cəhətdən də sağlam edirlər. Çünki ana laylası uşağın qanına, iliyinə işləyir, tərbiyənin əsasını, milli koloritin bünövrəsini qoyur. Bu həzin səda, bu xoş ahəng uşağın təxəyyülündə ömürlük yuva salır və onun yaddaşına əbədilik hopur. Yuxu dərmanı isə uşağın beynini zəhərləyir. Uşaq dərmanla yatmağa alışır ki, bu da gələcəkdə onun digər kimyəvi dərmanları mütəmadi qəbul etməsinə şərait yaradır.

Bu gün az ailələr tapılar ki, onların evində "Bayatılar", "Laylalar" kitabı olsun. Deməli, analarımızın çox qismi balalarına layla oxumur, nəticədə isə laylalar qəlbdən silinib gedir. "Laylalar" kitabından, ana laylasından imtina etsək, deməli, milli-mənəvi dəyərlərimizdən bilə-bilə uzaqlaşırıq. Heç olmasa, laylalarımızı digər milli-mənəvi dəyərlərimizlə əvəz edək. Məgər Aşıq Ədalətin "Yanıq Kərəm"i, Habil kamanının "Segah"ı, Ramiz Quliyevin "Mahur"u, Qədir Rüstəmovun "Sona bülbüllər"i ana laylası qədər əziz, həzin, lirik, ürəyəyatımlı, qəlboxşayan, ruha qida verən, insanı məftun edən, estetik cəhətdən ləzzətli deyilmi? Bütün bunlara görə ana laylasının, oxşamaların həm əxlaqi-mənəvi, həm də estetik tərbiyə baxımından əhəmiyyəti əvəzsizdir:

Laylay, mənim bal balam,
Tütək götür, çal balam.
Sən hamıdan gözəlsən,
Yanağında xal balam (12, s.306).

Bu laylada ananın nə qədər böyük arzu və istəyi

ifadə olunmuşdur. Ana öz balasının hamıdan gözəl olduğunu birmənalı şəkildə arzu və bəyan edir. Özü də bu arzunu ana könül nəğməsilə, şirin lad kökündə, milli muğamımız üstündə oxuyur.

Naxçıvan folklorunda verilən ana laylalarında estetik tərbiyə süjetləri çoxluq təşkil edir:

Laylay dedim doyunca,
Baş yasdığa qoyunca,
Pardaxlan, qızıl gülüm,
Bir iyliyim doyunca (12, s.306).

Göründüyü kimi, layladakı şirinlik, məlahət, münəvvərlik, həzinlik, liriklik, bədii ricət, zövq oxşayan rəvanlıq və bədii təsvirə sığmayan gözəllik elementləri ananın intəhasız məhəbbətindən, bənzərsiz valideyn sevgisindən nəşət edir:

Laylay dərdin alım, yat,
Ürəyimə salım, yat,
Sən bat şirin yuxuya,
Mənsə oyaq qalım, yat (12, s.306)..

Burada öz rahatlığını, rejimini, istirahətini övladının təkcə yuxu yatmasına qurban verən ana şirin-şəkər balasının xatirinə səhərə qədər oyaq qalmağından nəinki çəkinir, hətta bu işdən qürur duyur:

Laylay dedim ürəkdən,
Əlin çıxır bələkdən,
Sinəm ilə saxlaram
Səni qardan, küləkdən (12, s.306).

Naxçıvandan tərəfimizdən toplanan bir çox laylalarda



estetik gözəllik məzmunu daha qabarıq şəkildə verilir. Ananın canından əziz saydığı körpəsi təbiətin gülünə, çiçəyinə, qönçəsinə bənzədilir.

Bir sıra laylalarda körpənin rahat yatışı ekoloji təbiət kultu ilə, ağac kölgəsi ilə əlaqələndirilir. Bu cür laylalar estetik gözəlliyə əsaslanmaqla yanaşı, insanın hələ körpəlikdən təbiətlə vəhdətdə olması, təbiətdən faydalanması ideyasını da özündə birləşdirir və estetik tərbiyə ilə ekoloji tərbiyənin vəhdəti kimi təzahür edir:

Qızılı şah budağın
Kölgəsində yatasan,
Ay bala, bəndim bala,
Şəkərim, qəndim bala (12, s.307).

Bəzi laylalarda ananın körpəsi ilə bağlı istək və arzuları da estetik tərbiyənin məzmununa daxil edilir. Çünki “Laylaların əsas məzmunu ananın öz övladına qarşı olan məhəbbəti və onun xoşbəxt gələcəyi üçün olan arzularıdır” (190, s.316). Bu cür laylalarda körpənin dil açıb danışması, tütək götürüb çalması, böyüyüb qardaş toyunda oynaması ananın istək və arzusu, hətta diləyi kimi verilir. Beləliklə, bu cür laylalarda uşaq hələ körpəlikdən ananın estetik tərbiyə arzuları, istəkləri və dilәkləri ilə böyüyür və öz anasına, tərbiyəçisinə bağlanır. Bununla da ana arzularını ifadə edən laylalarda övladın anaya, valideynə olan saf sevgisinin və böyük ehtiramının əsası qoyulur:

Laylay, dil aç, söz danış,
Gözlərəm mən, tez danış.

Boy at, eli, obanı
Kişi kimi gəz, danış (12, s.306).

Laylada ananın ən böyük arzusu – övladının dil açması, danışması, boy atıb böyüməsi, nəhayət, sağlam, cüssəli bir igid olaraq el-obada vüqarla gəzməsi estetik tərbiyəni özündə təcəssüm etdirən bədii təsirlərlə verilir:

Gül dolu taxtın olsun,
Qızıldan baxtın olsun,
Qardaşının toyunda
Oynayan vaxtın olsun (12, s.307).

Əvvəlki laylada olduğu kimi, bu laylada da ananın övladının igid bir oğlan, el-obanın toy-düyünündə şənlənən fərasətli bir insan kimi böyüməsi arzusu bədii şəkildə verilir və tərbiyəvi dəyər kəsb edir.

Deyilənlərdən bu qənaətə gəlmək olur ki, laylalar estetik tərbiyənin yaradılmasının başlanğıcı, onun təməlidir. Laylalar estetik tərbiyədə ilkin rüşeym rolunu oynayır.

Naxçıvan folklorunun nümunələri içərisində bayatılar da estetik tərbiyə baxımından mühüm əhəmiyyət kəsb edir. Laylalardan fərqli olaraq bayatılardakı ideya ümumxalq məhəbbətini özündə əks etdirir. Naxçıvan bayatılarının çox qismində estetik tərbiyə ilə əlaqədar insana sevgi ideyası aşılanır. Çünki bu bayatıların bir çoxu aşiqanə məzmunda olub, eşqdə sabitqədəmlik, sevgilisinə dönük çıxmamaq, yar yolunda əzablara qatlaşmaq tərbiyəsini özündə birləşdirir. Aşiqanə-məhəbbət dastan-



larımızda olduğu kimi, Naxçıvan bayatılarında da insanın insana sədaqət və sevgi tərbiyəsi estetik tərbiyənin əsas komponenti kimi verilir:

Naxçıvan yolu yavşan,
Halım olub pərişan.
Bir ilə kimi gəlməsən,
Qoyallar mənə nişan! (12, s.311).

Naxçıvan bayatılarında hicran və ayrılıq dərdi, sevgisinə qovuşmaq həsrəti, aşiqini qəzavü qədərdən kənarda görmək arzusu və sevgilisinə məftunluq dərdinin milli xalq dilində ifadəsi estetik tərbiyənin məzmununa daxil edilərək etnopedaqoji mahiyyət daşıyır:

Mən aşıq gəzər oldum,
Oxuyub yazar oldum,
Elə sevdaya düşdüm,
Quruyub xəzəl oldum (12, s.313).

Burada haqq aşiqi nəzərdə tutulur. Oxuyub təhsil görmüş, elmi dünyagörüşə malik olan gəncin sağlam düşüncəsi, hicrana qarşı çıxması estetik bədii zövq üslubunda verilir:

Yarı yolladım özüm,
Allah, mənə bir dözüm.
Yolda yoldaşı qurban,
Evə gələndə özüm(12, s.312).

Naxçıvan bayatılarının bir qismində estetik tərbiyənin məzmunu bəzən ekoloji mühitlə, təbiətin gülü, çiçəyi, bülbülü, torpağı və bağ-bağatı ilə əlaqələndirilir, sanki insanla təbiətin gözəlliyi bədii vəhdətdə götürülür. Bu

cür bayatılarda təbiətin gözəlliyi ilə insan gözəlliyi və onun estetik hissləri bir-birini tamamlayır:

Əzizim gülə baxdı,
Bülbüllər gülə baxdı.
Bir gözəl gülümsədi,
Ağzından gülab axdı (12, s.312).

Bu bayatıda isə insan gözəlliyinin əsl siması açıqlanır. İnsanın gülməsi, onun gülüşünün gözəlliklər yaratması estetik tərbiyənin daha bir bədii üslubu kimi verilir. Digər bayatılarda da qeyri-adi bədii üsluba rast gəlmək olur. Hansı ki, bu üslub əsrarəngiz gözəlliklərə yol açır:

Yaz gəldi, doldu dağlar,
Yaz getdi soldu bağlar.
Kərəmin nəfəsindən
Yandı, kül oldu dağlar (12, s.312).

Bir bayatıda bir neçə bədii təsvirin yer alması da bir gözəllik yaradır. Diqqətlə fikir versək, bayatının hər bir misrasında təşbihləri və sonda mübaliğəni görə bilərik. Bütün bunlar isə bayatıda estetik tərbiyənin kütləviləşməsi kimi dəyərləndirilir:

Qızılgülü əkmərəm,
Dərib yerə tökmərəm,
Zülfün boynuma keçsə,
Şahmar ola, çəkmərəm (12, s.313).

Bu bayatıda isə qadın gözəlliyi onun zülfünün cazibədarlığı timsalında bədii təsvirə, bədii zövq mənbəyinə istiqamətləndirilir:



Hər torpağın barı var,
Bağların yarpağı var.
Dedim getmə, ay oğlan,
Orda yaman yağı var(12, s.313).

Bəzən bu bayatılarda insanın öz sevgilisinə olan estetik və mənəvi bağlılığı o qədər qabarıq şəkildə verilir ki, məftun olan və sevən aşiq təbiət gözəlliklərini unudur və öz sevgilisinin gözəlliyinə bağlanır:

Ağacda bara baxmaz,
Heyvaya, nara baxmaz.
Gözlərim səni gözlər,
Başqa bir yara baxmaz(12, s.315).

Naxçıvan bayatılarının məzmununda estetik tərbiyə ilə əlaqədar təbiətin gözəlliklərinə vurğunluq tərbiyəsi də əsas mövzulardandır. Bu bayatıların bir qismində insanı məftun edən təbii mühitin gözəllikləri, insanın bu gözəlliklərdən zövq alması və təbiətə olan sevgisi tərənnüm olunur. Bayatılarda təbii mühitin əzəmətli və yaraşıqlı dağları, güllü-çiçəkli bağları insanda təbiət kultuna vurğunluq yaradan bədii-estetik detallar kimi verilir və səmimi ünsiyyət estetik tərbiyə ünsürünə çevrilir:

Əzizim bircə-bircə,
Xalları bircə-bircə.
Oturaq gül bağında,
Danışaq bircə-bircə (12, s.320).

A dağlar, sona dağlar,
Söz yetməz sana, dağlar.

Yaz fəsli göllərində
Çalxanar sona, dağlar (12, s.316).

Bu kimi bayatılarda Naxçıvan diyarına bənzərsiz yaraşıq verən dağların gözəllik mücəssəməsi kimi təcəssüm olunması insanın təbiətə sonsuz məhəbbəti kimi verilir. Bu məhəbbət isə yurd sevgisi kimi bədii təsvirlərin estetik gözəllik yaradan forması kimi nəzərə çatdırılır:

Ay dolana-dolana,
Gün dolana-dolana,
Gəl gəzək bu dağları,
Biz dolana-dolana (12, s.329).

Aşağıdakı bayatıda isə vətən həsrətini gözəlləşdirən nisgilli misralar vətən həsrətilə yaşayan insana bir növ təsəlli vermiş olur:

A dağlar, uca dağlar,
Hamıdan uca dağlar.
Ayrılıqdan üzüldüm,
Mən dözüm necə, dağlar?! (12, s.353)

İnsana estetik zövq verən, ona gözəllik hissləri aşılayan təbiətin füsunkar gözəlliklərinin qorunması ideyası da Naxçıvan bayatılarında estetik tərbiyənin məzmununa daxildir. Bu istiqamətdə yaradılmış bayatılarda xalq müdrikləri ekoloji mühiti korlayanları, təbiətin gözəlliklərinə ziyan vuranları qəzəb hissi ilə qarşılamış və belə bir etnopedaqoji tələbdən çıxış etmişlər ki, təbiətin gözəlliyinə zərər vurmaq, onu pozmaq olmaz.



Aşağıdakı bayatıda ekoloji mühitdə ağacın insanın gözü qədər əziz olması ideyası verilir:

Bağda üzüm ağacı,
Üzüm – gözüm ağacı.
Bağa baltalı girib,
Kəsib bizim ağacı(12, s.341).

Naxçıvan bayatılarında estetik tərbiyənin bir komponenti kimi insanın zahiri gözəlliyinin təsvirinə də üstünlük verilir. Gözəlliyə biganə qalmamaq, onlara hər zaman diqqət yetirmək və gözəllikdən estetik meyar kimi qidalanmaq bu bayatıların əsas məzmununu təşkil edir. Bu istiqamətdə yaradılmış bayatılarda bəzən ekoloji mühitdə fəsillərin, dağların və çiçəklərin rənglərindən də bədii təsvir və bənzətmə vasitəsi kimi istifadə olunur. Aşağıdakı bayatılıarda gözəlin araxçınının rəngi ekoloji mühitin payız xəzəlinə, onun yanaqlarının qırmızılığı isə dağların və çiçəklərin qırmızılığına bənzədilmiş və estetik gözəllik kateqoriyası bu bənzətmənin daxili fonunda verilmişdir:

Araxçının xəzəli,
Danışmayın məzəli.
Hara qoyub gedirsən,
Mənim kimi gözəli?! (12, s.328)

Elə bayatılar var ki, orada rənglər vasitəsilə estetik tərbiyə öz ifadəsini tapır və rənglərdən biri bayatını regional sərhəddən ayırıb ümumbəşəri həddə qaldırır. Aşağıdakı bayatıda qırmızı rəng bu funksiyanı yerinə yetirir:

Ölkənin dağı qırmızı,
Otu, alağı qırmızı.
Burada bir gözəl sevdim,
Al yanağı qırmızı (12, s.363).

Bəzi Naxçıvan bayatılarında təbiətin müxtəlif rənglərinə məftunluq, bu rənglərin gözəlliyindən alınan estetik zövq təsvir olunan el qızlarının zahiri gözəlliyinə şamil olunur və el gözəllərinin zahiri görkəmi təbiət kultu ilə qarşılaşdırılır. Nəticədə isə təbiət gözəlliyi ilə insan gözəlliyi estetik gözəlliyin vəhdəti kimi verilir. Bu cür təsvir üsulu Naxçıvanın xalq bayatılarında estetik tərbiyənin məziyyətlərinə daha çox xəlqi məzmun verir:

Əziziyəm göy bağlar,
Göy baxçalar, göy bağlar.
Gözəllərdə qaydadır,
Ağ buxağa göy bağlar (12, s.314).

Naxçıvan bayatılarında estetik gözəlliklərin ifadəsi üçün vətən torpağını, təbiəti, ekoloji mühiti oyanışa çağırış motivləri ilə də qarşılaşırıq. Qış fəslinin getməsini, yazın gəlişini, onun gözəlliklərini qarşılamaq arzusu estetik tərbiyənin əsas tələbi olaraq bu bayatılarda əsas mövzu kimi verilir. Bu cür bayatılarda estetik tərbiyə ilə ekoloji tərbiyə vəhdətdə verilir:

Mən aşıq oyan, torpaq,
Yad gözün oyan torpaq,
Gəlibdir bahar fəsli,
Yuxudan oyan, torpaq (12, s.371-372).



Naxçıvan bayatılarında bəzən təbiət kultuna, ekoloji mühitə aid olan xüsusiyyətlər insanın üzərinə köçürülür. Bu cür təbiət hadisələrinin insan üzərinə köçürülməsi üsullarından estetik tərbiyədə cəzalandırma vasitəsi kimi də istifadə olunur. Aşağıdakı bayatıda təbiətdə dumana aid olan xüsusiyyət bir cəza vasitəsi kimi insanın üzərinə köçürülmüş və estetik tərbiyənin cəza üsulu kimi mənalandırılmışdır:

Əzizim duman çökər,
Qar yağar, duman çökər.
Aşıq yarın itirsə,
Gözünə duman çökər (12, s.317).

Naxçıvan bayatılarında vətən sevgisi ideyasının tərənnümü də estetik tərbiyənin zəruri komponenti kimi verilir:

Mən aşıx gəlmədilər,
Dözüm yox, gəlmədilər.
Vətən, səni bölənlər
Yerli yox, gəlmədilər(12, s.318).

Naxçıvan bayatılarında estetik vətən sevgisi ideyasının aşılanmasında hərbi vətənpərvərlik tərbiyəsinə də üstünlük verilir. Bu cür bayatılarda estetik vətən tərbiyəsinin mərkəzində xalq birliyi, əlbirlik, vətən düşmənlərinə qarşı barışmazlıq və mübarizə ideyası dayanır:

Bülbül qurban güllərə,
Qurban şirin dillərə.
Hamı əl-ələ versə,
Yağı neylər ellərə? (12, s.336-337).

Bu istiqamətdə yaranan Naxçıvan xalq bayatılarında el ağsaqqalları, müdrik babalarımız və ağbirçək nənələrimiz gənc nəslə belə bir tərbiyə aşılamışlar ki, Vətənin – Azərbaycanın daşını, torpağını, təbiətini, onun füsunkar gözəlliklərini yadellilərdən, xarici düşmənlərdən qorumaq hər bir vətəndaşın müqəddəs borcudur. Bu tərbiyəvi xalq tövsiyəsi həm vətənpərvərlik tərbiyəsinin, həm də estetik vətən sevgisinin məzmununa daxildir. Bu isə onu göstərir ki, Naxçıvan bayatılarında verilən estetik tərbiyə mövzuları yalnız təbiət hadisələrinin təsvirinə həsr olunmuş bədii süjetlərlə məhdudlaşmamış, bu mövzular həm də cəmiyyət həyatı ilə bağlı estetik gözəllikləri əhatə etmişdir.

Naxçıvan folklorunun estetik tərbiyə baxımından ən layiqli yerləri tutan nümunələri içərisində mahnılar, melodiyalar, nəğmələr, rəqslər, yallılar və haxıştalar daha rəğbətlə qarşılanır. Bu nümunələrin içərisində haxıştaların, mahnı və nəğmələrin xüsusi yeri vardır. İstər haxıştalar, istərsə də nəğmə və "Mahnılar tapmaca və atalar sözlərinə nisbətən xalq poetik yaradıcılığının daha mürəkkəb formasıdır. Mahnıların əsas məqsədi gözəlliyə məhəbbət hissini yaratmaq və ona yaradıcı münasibət bəsləmək, estetik baxışları və zövqləri formalaşdırmaqdır" (92, s.314).

Haxışta və mahnılar Naxçıvan folklorunun geniş yayılmış janrlarındandır. Haxıştalar daha çox toy mərasimlərində, xına gecələrində qızlar və qadınlar tərəfindən oxunur və gecənin yarısınadək davam edir.



Daha çox şənlənmək xarakteri daşıyan haxıştaların bir qismində oğlan evinin qız evinə yandı-qındısı verilirsə, müəyyən bir qismində də gözəlliyə estetik münasibət ifadə olunur. Həm də bu estetik münasibət təbiət kultu ilə, təbiətin ağacları, gülü, çiçəyi ilə əlaqələndirilir:

Nar ağacı açdı gül, haxışta.
Yar üzünə baxdı gül, haxışta.
İstədim uzaqlaşam, haxışta.
Yar yaxama taxdı gül, haxışta (12, s.377).

Bu haxıştada əsas təsvir obyekti ekoloji mühitə, təbiətə gözəllik və xoş təravət verən güldür. Gülün estetik gözəlliyi isə sevgilinin üzərinə köçürülmüş və sevgililərin istəyini ifadə edən sanki bir estetik tablo yaradılmışdır. Haxıştalarda estetik gözəlliyin bu cür təsviri etnopedaqogikada estetik tərbiyənin xəlqi məzmununu əks etdirir və insanda sevgiyə estetik münasibət yaradır.

Haxıştalarda təzə bəyin zahiri gözəlliyinin təsviri və tərənnümü də əsas yer tutur. Təzə bəyin gözəlliyinə olan estetik münasibət bəzən təbiətin, gözəl quşların füsunkar gözəlliklərinə bənzətmə tərzində verilir. Bu cür təbii bənzətmələr insan və təbiət kultunun gözəllik estetikasının vəhdəti prinsipinə uyğun bədii zövq elementləri nümayiş etdirməklə yanaşı, estetik tərbiyədə estetik şüurun formalaşdırılmasına da xidmət edir:

Nazik çəkin ipliyi, haxışta.
Yarımın köynəkliyi, haxışta.
Mən bir oğlan görmüşəm, haxışta,
Bir şəhərin kəkliyi, haxışta (12, s.377).

Naxçıvan haxıştalarında insanın gözəlliyə qovuşmaq arzusu poetik şəkildə ifadə olunur. Bu məzmunda yaradılmış haxıştalarda da təbiətin, ağaclar aləminin gözəllikləri insanın arzularına şamil edilərək estetik tərbiyənin məzmununu daha təsirli edir, onu bir növ gözəlləşdirir:

İydənin xal ləçəyi, haxışta.
Ətirlidir çiçəyi, haxışta.
Kaş bəxtimə çıxaydı, haxışta.
Oğlanların köyçəyi, haxışta (12, s.378).

Burada gözəlliyə vurğunluq estetikası haxıştanın özünə də estetik gözəllik gətirmiş olur:

Araz kimi axaram, haxışta.
Yandıraram, yaxaram, haxışta.
Gözlərində gözüm var, haxışta.
Həsrət ilə baxaram, haxışta (12, s.381).

Naxçıvan haxıştalarında mənəvi gözəllik ideyasının aşılanması da estetik tərbiyənin məzmununa daxil olan əsas məziyyətlərdən biri kimi verilir. Xalq müdrikləri mənəvi gözəllik tərbiyəsində "dost dosta tən gərək, tən olmasa gen gərək" mövqeyindən çıxış etmiş, qarşılıqlı estetik və mənəvi münasibətlərdə bir-birinin dilini anlamağın, dünyagörüşlərin uyğunluğunun zəruriliyi prinsipinə istinad edərək xalq haxıştalarında da təbiət və quşlar kultuna söykənməklə bu ideyanı mənəvi-estetik tərbiyənin məzmununa daxil etmişlər:

Bülbülə bax, bülbülə, haxışta.
Arxa verib gül-gülə, haxışta.



Bir yaxşı dostum gərək, haxışta.
Dərdim çəkə, dil bilə, haxışta (12, s.384).

Maraqdıdır ki, mənəvi-estetik tərbiyə ilə bağlı haxıştalarda verilən bu tərbiyəvi ideya təbiət kultu ilə, güllə, bülbüllə əlaqəlndirilmiş və bu əlaqə haxıştada verilən tərbiyənin estetik məzmununu daha da qüvvətləndirmişdir.

Naxçıvan folklorunun "...ən kütləvi və tərbiyəvi baxımdan qiymətli vasitə və mənbələrindən biri də nəğmələr olmuşdur. Növ və xarakter etibarı ilə nəğmələr müxtəlifdir: əmək nəğmələri, toy nəğmələri, deyişmələr, sevgiyə, məhəbbətə aid nəğmələr və s." (44, s.11). Naxçıvan xalq mahnıları və nəğmələrində estetik tərbiyənin məzmununu özündə əks etdirən sujetlər çoxluq təşkil edir. Bu mahnıların süjetlərində verilən "estetik tərbiyə (amilləri –Q. M.) insanın mənəvi, əxlaqi tərbiyəsi ilə sıx əlaqədardır" (85, s.183). Bu xalq mahnılarının bir qismində aşiqin sevdiyi gözələ sədaqəti verilirsə, digər bir qismində də onun öz eşqinə dönük çıxması, əhdinə sadiq qalmaması, hər hansı mənfi əxlaqi keyfiyyətin olması, sevgidə sabitqədəm olmayanların mənəvi-estetik tərbiyədən yoxsul olması fikrinin ifadəsi estetik və əxlaqi tərbiyənin naqisliyi kimi verilir. Lakin tərbiyəvi mahiyyət daşıyan bu mahnılarda əsas məqsəd sevgiyə dönük çıxanları məzəmmət etmək və estetik-mənəvi tərbiyənin təsiri ilə onları mənəvi cəhətdən dəyişdirib saflaşdırmaqdır. Vaxtı ilə sevilib, sonradan tərk edilən sevgilinin dilindən deyilən xalq mahnısında

bu mənəvi-estetik tərbiyə ideyası belə ifadə olunur:

Mən gələndə şamamalar gül idi,
Cavan canım dost yolunda çürüdü.
Əvvəlindən ilqarımız bir idi,
Mən nə dedim, ilqarından dönən yar?
Özü alıb, sonnan peşman olan yar! (12, s.402).

Mahnının bu bəndində və təqdim edəcəyimiz ikinci bəndində sevən tərəflərin əhdi-peymanının meyarı kimi ilqarın qınaq obyektinə çevrilməsi təsvir olunsa da, estetik-bədi zövq məkanından uzaqlaşdırılmır:

Uca dağ başında uca qələmə,
Biz ki, bənzəyirdik Əsli-Kərəmə.
Sözümü saxlaram yarım gələnə,
Mən nə dedim, ilqarından dönən yar?
Özü alıb, sonnan peşman olan yar! (12, s.402)

"Salmayaydın nəzərindən", "Neynim" adlı xalq mahnılarında da estetik-mənəvi tərbiyənin eyni oxşar süjeti ilə qarşılaşırıq. Bu mahnıda da dərdli və qəm çəkən sevgili qız təbiət kultu ilə, qızıl güllə əlaqələndirilərək qızıl gül kimi təqdim olunur və təbiət kultu şəxsləndirilir:

Cibimdə dəsmalın gülü,
Lal olsun düşmənin dili.
Mənim kimi qızıl gülü
Almıyaydın əzəlindən,
Salmıyaydın nəzərindən (12, s.402)..

Əslində, mahnının istər söz tərəfi, istərsə də melodiya tərəfi bütün yaş dövrlərindən olan yeniyetmələr və



gənclər üçün əsl estetik tərbiyə məktəbidir. Hətta mahnının söz tərəfindəki etibarlı olmağa çağırış mənəvi-estetik tərbiyə baxımından çox qiymətli hesab olunur:

Cibimdə dəsmalın sarı,
Üzün qoy üzümə barı.
Mənim kimi etibarı,
Almıyaydın əzəlindən,
Salmıyaydın nəzərindən (12, s.402).

Bütün mahnı boyu təkrar olunan və hər bəndin sonunda nəqarət kimi səslənən "Almayaydın əzəlindən", "Salmayaydın nəzərindən" kimi sözlərin estetik-bədii zövq materialı şəklində ictimai qınaq kimi təqdim olunması güclü tərbiyəvi təsirə malik olur:

Çəkməni çəkdin buduna,
Məni yandırdın oduna.
Qoydun kimin umuduna?
Get, gedirsən, dəxi neylim,
Mən çəkirəm ahı, neylim (12, s.402).

Mənəvi-estetik tərbiyənin məzmununda insanın sevdiyi gözəlin həsrətini çəkməsi, onun gözəlliyinə qovuşub murada yetmək arzusu da ifadə olunur. İstək, həsrət, arzu ifadə olunan xalq mahnılarında el ağsaqqalları, dədə və nənələrimiz belə bir tərbiyəvi tövsiyə irəli sürmüşlər ki, sevdalı olanlar yar yolunda hər əzaba qatlaşmalı, intizarlıq çəksə də, sevdiyinin yolunu gözləməlidir. Yalnız eşq yolunda əzaba qatlaşanlar sevgisinə qovuşa bilərlər. Bu mənəvi-estetik tərbiyə süjetinə "Ay qız, dur gəl, sabah oldu" adlı xalq mahnısında rast gəlirik:

Damlarının dalı çuxur,
Ağacda bülbüllər oxur,
Mənim yırım bafta toxur.
Ay qız, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu (12, s.404).

Gəncləri saf sevgiyə, pak məhəbbət ünvanına səsləyən belə mahnılar estetik-əxlaqi-mənəvi elementlər aşılayan bədii zövq mənbəyi hesab olunur. Bu cür "Mahnıların musiqili poetik tərtibatında etik, estetik, pedaqoji ideyalar öz əksini tapır. Gözəllik və xeyirxahlıq mahnılarda birlikdə iştirak edir"(92, s.314).

Damlarının dalı daşdı,
At yerimir, nalı boşdu.
Burdan uçan hansı quşdu?
Ay qız, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu (12, s.405).

Naxçıvan folklorunun digər janrlarında olduğu kimi, xalq mahnılarında da insanın öz sevgilisinə qovuşmaq arzusu təbiət hadisələri ilə bədii vəhdətdə verilir. Aşağıdakı mahnıda təbiət kultuna aid olan yağış intizar çəkən aşiqin istəklisini öpən dost kimi səciyyələndirilir. Mahnıda təbiət hadisəsi kimi təcəssüm etdirilən yağış təbii-estetik gözəlliyin atributu kimi verilir və bu cür təsvir estetik tərbiyənin məna duyumunu daha da təsirli edir:

Damlarının dalı təpə,
Yağış gəlir səpə-səpə,
İstəklimi öpə-öpə.



Ay qız, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu (12, s.405).

"Ay aman, bu yar hardadı?" adlı xalq mahnısında da təbiətə yaraşıq verən zümzüməli bulaq sevgilisi üçün darıxan və ona qovuşmaq istəyi ilə yaşayan aşiqin intizarlığı ilə qarşılaşdırılır. İnsanla təbiət hadisələrinin bu cür qarşılaşdırılması üsulları xalq mahnılarının sənətkarlıq məziyyətlərindən olub, mənəvi-estetik tərbiyənin məzmununa emosional bədii çalarlıq verir:

Bulaq, səndə daş olaydım,
Üstü dolu yaş olaydım.
Yarım bulağa gələndə,
Yar ilə yodaş olaydım.
Ay aman, bu yar hardadı?
Kim bilir, bəlkə dardadı (12, s.406).

Göründüyü kimi, mahnıda saf eşqin, təmiz məhəbbətin gənclərə ədəb-ərkan normalarına uyğun olan bir tərzdə aşılanması estetik-bədii tərbiyə sərhədlərini aşmadan verilir. Bu da estetik tərbiyənin mahnıdakı dəyərinə xüsusi çalar qatmış olur:

Bulaq, sənin suyun məzə,
Qızlar gəlir gəzə-gəzə.
Gəlinlər var qızdan təzə,
Bulaq səndə, bulaq səndə (12, s.406).

Şübhəsiz ki, xalq mahnılarında verilən bu cür təbii gözəllik təsvirləri estetik tərbiyənin aşılanması üçün çox faydalı olub, gənclərdə gözəllik anlayışlarını inkişaf etdirir və onların təbiət gözəllikləri ilə bağlı estetik

zövqünü formalaşdırır.

Naxçıvan xalq pedaqogikası materialları içərisində kütləvi xalq rəqsləri xüsusi qeyd olunmalıdır. Çünki milli rəqslərimiz və "Milli oyunlarımız xalqımızın ən dəyərli sərvətlərindəndir" (34, s.1). Naxçıvan yallıları içərisində elələri var ki, nəinki Azərbaycanda, hətta Şərq ölkələrində qeyri-adi quruluşu, oyun tərzi, orta ritmik ahəngi, bədii zövq oxşayan estetik oynaqlığı ilə fərqlənən rəqslər hesab olunur. Xüsusu estetik tərbiyə aşılayan belə rəqslərdən biri "Şərur yallısı"dır. Bu yallının Şərurda bir çox növləri və adları vardır. "İkiayaq", "Üçayaq", "Qaladan-qalaya", "Qarqaşa", "Gopu", "Urfan" ("Uluxanlı"), "Qəleyi", "İrəvani" ("Rəvani"), "Drqoyu", "Şəreyi" ("Vuruşma yallısı"), "Köçəri", "Pəncərə", "Qazı-qazı" və s..

Yallı gedənlər dörd oğlan - dörd qız, altı oğlan - altı qız, səkkiz oğlan - səkkiz qız (rəqs edənlərin sayına məhdudiyyət qoyulmur) olmaqla iki dəstə rəqs üslubunda meydana daxil olurlar. Qoşa Qara zurnanın, Çomaq nağaranın müşayiətilə dairə vuraraq yarışdan sonra qələbə əzmini göstərən dəstənin başçısı əlindəki dəsmalı yellədə-yellədə oyunu qızışdırır. Dairə vuran dəstə tədricən rəqsin tempini artıra-artıra dinamik rəqs sürəti alırlar. Dəstə başçısının oynaq hərəkətlərini izləyən oyunçular özlərini şaqraq, çəld, yorulmaz, tükənməz gücə malik, rəqs hərəkətlərini göstərməkdən hədsiz zövq alan, yallının melodiyasının şirin ahəngindən doymayan adam kimi apararaq yallıya xüsusi yaraşıq



verməyə çalışırlar. Əsrlər boyu öz təravətini itirməyən "Şərur yallısı" bu gün də Naxçıvanın estetik tərbiyə mühitində uşaqların, yeniyetmə və gənclərin, xüsusilə məktəblilərin ən sevimli rəqsləridir. Bu cür rəqslərimizdə və milli oyunlarımızda mahnı və musiqi xüsusi tərbiyəvi əhəmiyyət kəsb edir.

Pedaqoji fikir tarixində aşıq folkloru estetik tərbiyənin ən zəngin mənbələrindən hesab olunur. Bu mənada Naxçıvan aşıqlarının yaradıcılığına müraciət etmək yerinə düşər. Məlum olduğu kimi, gözəllik qanunları əsasında sevib-sevilmək, oğlan-qız münasibətlərində qarşılıqlı sevgiyə nail olmaq yeni qurulacaq ailənin ilkin zəmini və təməlidir. Bu təməl isə gözəllik estetikasına və qarşılıqlı sevgiyə əsaslanır. Odur ki, ailə qurmağın ilk təməli insan gözəlliyinə məftunluqdan başlanır. Hər hansı bir oğlan ilk öncə xoşladığı qızın zahiri gözəlliyini görür və bu gözəllik onda estetik hiss yaradır. İlkin yaranan estetik hiss oğlanla qızın tanışlığı üçün estetik zəmin rolunu oynayır. Tanışlıqdan sonra isə batini gözəlliklər üzə çıxır və tərəflərin hər ikisi bir-birində olan müştərək batini gözəllikləri kəşf edirlər. Bundan sonra zahiri və batini gözəllik əxlaqına söykənən hər iki gənc ailə qurmağa qərar verirlər.

Buradan belə bir nəticəyə gəlmək olur ki, zahiri və daxili gözəllik kateqoriyası olmadan gözəllik estetikasının dərki mümkün deyildir. Odur ki, "könül sevən göyçək olar" müdrik xalq kəlamına söykənən xalq müdrikləri folklorun müxtəlif janrlarında, eləcə də aşıq yaradıcılığın-

da el gözəllərinin zahiri və batini gözəlliklərinin təsvirinə üstünlük vermiş və bunu estetik tərbiyənin mərkəzi mövzusuna çevirmişlər. Çünki "Xalq pedaqogikası materiallarında həyatdakı gözəlliklərdən söz düşəndə insan gözəlliyi ön plana çəkilir. Azərbaycan xalqı insanı "dünyanın əşrəfi", gözəlliyi isə onun "baş tacı" hesab etmişdir" (43, s.230).

Naxçıvan folklorunu dərindən araşdırdıqda bu folklorun aşıq yaradıcılığı qolunun çox qədim bir tarixə malik olduğu aydın olur. Belə ki, Naxçıvan folklorunun aşıq yaradıcılığında həm miflərlə bağlı xalq fikirlərinə, həm yanşaqları yada salan estetik zövq ənənələrinə, həm də aşıqların sələfləri hesab olunan ozan sənətinin bədii hikmətlərinə rast gəlmək olur. Aşıq folklorunun Qurbani dövrü ilə bağlı nümunələri Naxçıvan aşıq yaradıcılığının qədimliyini bir daha sübut edir. Qədim Azərbaycanın Qaradağ mahalının Dirili kəndində doğulan, saz çalıb söz qoşan, Şah İsmayılın, Osmanlı sultanlarının saraylarında sayılan, seçilən, sevilən, bəyənilən Aşıq Qurbani Azərbaycan aşıq sənətinin görkəmli siması kimi bu gün də sevilir. Onun yaradıcılığının müəyyən qısa bir dövrü Naxçıvan aşıq yaradıcılığı və Naxçıvan aşıq folkloru ilə də bağlı olmuşdur.

Naxçıvan aşıq mühiti ilə əlaqədar aparılan elmi tədqiqatlarda XVII əsrin ikinci yarısından başlayaraq Naxçıvanda bir çox el aşıqlarının fəaliyyət göstərməsi və XIX-XX əsrlərdə Naxçıvan aşıq mühitinin geniş vüsət alması göstərilir və vurğulanır ki, "bunların bir



qismi Naxçıvan kəndlərinin yerli aşıqları, digər bir qismi isə Cənubi Azərbaycandan, İrəvan mahalının Sisyan və Darabas bölgələrindən gəlib Şərur, Şahbuz və Ordubad ərazilərində məskunlaşan xalq aşıqları" (73, s.15) olmuşlar.

Naxçıvanın müxtəlif bölgələrində fəaliyyət göstərən Ululu Kərim, Dəvəçi Heydər, Aşıq Məmmədcəfər, Aşıq Molla İsmayıl, Aşıq İsmi, Aşıq Cəfər, Aşıq Həsənalı, Aşıq Nəcəfalı, Aşıq Abbas Dəhri, Gülalı Məmməd, Aşıq Əli Xanxanım oğlu, Aşıq Fətullah, Aşıq Yamin Sail, Aşıq Nabat, Aşıq Yusif, Aşıq İslam, Aşıq Hidayət, Sərraf Qasım, Aşıq Cəbrayıl Gilançaylı, Aşıq Əbülfəz Şahtaxtılı, Aşıq Teymur və başqa xalq aşıqları öz yaradıcılıqlarında tərbiyə mövzularına üstünlük vermiş, ağıl və əxlaq tərbiyəsinə, fiziki tərbiyəyə, əmək tərbiyəsinə və estetik tərbiyəyə dair dəyərli fikirlər söyləmişlər. Xüsusilə irsiyyət, mühit, didaktika, əxlaq, gözəllik və estetik tərbiyə mövzuları bu aşıqların yaradıcılığında daha qüvvətli olmuş və üstünlük təşkil etmişdir. Aşıq yaradıcılığında olan "gözəllik əxlaqi təmizliyin, mənəvi zənginliyin və fiziki kamilliyin ən qüdrətli mənbəyidir" (105, s.352).

Aşıq yaradıcılığında gözəlliyə verilən estetik dəyər qadın gözəlliyinin vəsfini daha qabarıq şəkildə ortaya qoyur. "Qadın gözəlliyi Azərbaycan xalq nağıllarının, dastanlarının, mahnılarının, musiqisi və şeiriyyətinin (xüsusilə aşıq yaradıcılığının) ən əsas obyektlərindən olmuş və belə bir obyekt olaraq qalır" (43, s.231).

Bunu etnopedaqogika sahəsində aparılan tədqiqatlar da sübut edir.

Hörmətli alimlərimizdən prof. Əliheydər Həşimov və prof. Fərahim Sadıqov birgə yazdıqları "Azərbaycan xalq pedaqogikası" kitabında xalq pedaqogikasında insan gözəlliyini, xüsusən qadının gözəllik atributlarını səciyyələndirən əlamətləri iki qismə ayırırlar. "...Onların bir qismi insanın zahiri görkəminə, digər qismi isə batini aləminə" (43, s. 230) aid edilir. Bu mənbədə "...fiziki cəhətcə sağlamlıq, çəldlik, qüvvətlilik, mina gərdən, sərv qamət, əzalardakı təndürüstlük, simmetriya, incəlik, zəriflik, xətti-xal, gül camal, üzün xoş rəngi, sifətin xoş ifadəsi, yeriş və hərəkətlərdəki ritm, gözəl geyim və s." (43,s.230) insan gözəlliyinin zahiri əlaməti kimi təqdim olunur və bu əlamətlər daha çox qadınlara xas olan gözəllik keyfiyyətləri kimi verilir, həmçinin xalq pedaqogikasının "...folklor nümunələrindəki fikir, mülahizə və təsəvvürlərə istinad etməklə..." (43, s. 231) qadınlara məxsus gözəllik idealı aşağıdakı şəkildə ümumiləşdirilir: "Gözəl qadında boy – uca; dəri – bəyaz və hamar; göz – qara və ya ala; dişlər – sıx, ağ; burun, döş, ağız, əl və ayaqlar – balaca; hörüklər və qollar – uzun; alın və sinə – geniş; tel, dodaq, dil, bel və barmaqlar – nazik; kirpik və qaş – qara; yanaqlar – qırmızı ... olmalıdır. Həm də bütün bu əzalar arasında hökmən sıx harmoniya, uyğunluq olmalıdır" (67, s. 231).

Müraciət etdiyimiz bu mənbədə qadına xas olan daxili gözəllik əlamətlərinə isə aşağıdakılar aid edilir:



"Ağıllı, kamallı, mərifətli, həyalı, ismətli, xoşrəftar, mehriban, ədəb-ərkanlı və şirindil olmaq, fədakarlıq, mərdlik, qəhrəmanlıq, insanpərvərlik, xeyirxahlıq, alicənablıq və i.a." (43, s.231). Bu əxlaqi keyfiyyətlərin hamısı həm də estetik tərbiyənin məzmununa daxildir. Belə mənəvi-əxlaqi-estetik qiymətləndirmə aşıq folklorunda aparıcı tərbiyə meyarları kimi özünü göstərir.

Folklor materiallarında qadın gözəlliyini səciyyələndirən bu estetik gözəllik əlamətləri Naxçıvan folklorunun müxtəlif janrlarında tərənnüm edildiyi kimi, Naxçıvan aşıqlarının yaradıcılığında da genişliyi ilə tərənnüm olunur və estetik tərbiyənin daxili məzmununu müəyyən edir.

Aşıq yaradıcılığında da xalq aşıqlarının təxəyyülünə görə, "Gözəl qadının geyimi, yerişi, duruşu, baxışı da incə, zərif və gözəl olmalıdır" (43, s.231).

El qızlarına xas olan və estetik tərbiyəni şərtləndirən estetik gözəllik əlamətləri, yəni gözəlin hörüklərinin uzunluğu, dərisinin bəyazlığı, onun ağca maya olması Naxçıvan aşığı Ululu Kərimin Şahbuzun Keçil kəndinin qızlarının zahiri gözəlliklərinin təsvirinə həsr etdiyi gəraylısında öz estetik təsvirini tapmışdır:

Gözəlləri bölük-bölük,
Dörd bir yanında var hörük,
Bilməm maraldı, ya əlik,
Qız Keçilin yaylağında (73, s.23).

Aşıq yaradıcılığında təşbihlər, yəni bədii təsvir və ifadə vasitələri əslində estetik-bədii zövq tərbiyəsinin

əsas meyarlarından hesab olunur:

Üst yanı Toxluca qaya,
Axar-baxarı var çaya.
Gözəlləri ağca maya,
Qız Keçilin yaylağında (73, s.24).

Aşığın Qız keçilin yaylağında gördüyü gözəlin boyuna, buxununa, cazibədar hörüklərinə estetik dəyər verməsi, onu maralla, ceyranla, təbiətin ən gözəl guşələrinin zövq oxşayan tərəflərilə müqayisə etməsi estetik tərbiyənin ölçü vahidləri kimi də qəbul edilə bilər.

El qızlarının zahiri gözəlliyinin təsviri və bu gözəlliyin insan qəlbində yaratdığı estetik zövq Aşıq Molla İsmayılın aşiqanə qoşma və müxəmməslərində dətərənnüm olunur. Həm də aşığın şeirlərində verilən insan gözəlliyi təbiət gözəllikləri ilə əlaqələndirilir və onlara təşbeh edilir:

Qaşları qaradır, gözləri xumar,
Darayıb tellərin, veribdi tumar.
Xudam yaradıbdır hamısın təyyar,
Açılan baharın lalası gəlin,
Bu axar suların sonası gəlin (73, s.31).

Dünyanın əşrəfi olan insana göstərilən ehtiram, ədəb-ərkan normalarına uyğun verilən dəyər, insan gözəlliyinə verilən qiymət, bu gözəlliyin bahar çiçəklərinin təravəti, sular sonası ilə müqayisəsi estetik tərbiyə ünsürləri kimi qəbul edilə bilər:

Qaşları qaradır, gözləri xumar,
Kirpiyi neştərdir, adamı çalar.



Ərinin oxşarı elə bil himar,
Cəmi dünya malı bahası gəlin,
Bu axar suların sonası gəlin (73, s.31-32).

Aşığın qoşmalarında da estetik gözəllik atributları təbii varlıqlarla əlaqələndirilir və gözəlin zahiri gözəlliyi quşlar aləmi ilə – tovuz quşunun və laçının təbii gözəlliyi ilə qarşılaşdırılır:

Bir tovuz geyimli, laçın bəzəkli,
Yayındı gözümdən, gedəcək oldu,
Nakam İsmayılın ağlar didəsi
Şahbuzu sellərə verəcək oldu (73, s.35).

Naxçıvanın aşıq mühitində peyzajın qeyri-adi təqdimatı, bədii təsvir və ifadə vasitələrinin bədii zövq elementləri kimi seçilməsi, mübaliğələrin əsl gözəllikləri olduğu kimi bariz şəkildə təqdim etməsi ustad aşıqların peşəkarlığından xəbər verməklə yanaşı, estetik tərbiyənin etnopedaqoji dəyərini də özündə səciyyələndirir.

Zahiri gözəllik əlamətlərinin bu cür emosional təsvirinə Naxçıvanın Şıxmahmud kəndindən olan Aşıq Cəfərin yaradıcılığında da rast gəlirik:

Yeriyəndə min naz ilə, yerişin qaza bənzətdim,
Uca boylu, mina gərdən, boyun şahbaza bənzətdim.
Bilmirəm yaşın neçədi, baxdıqca qıza bənzətdim,
Bir cüt busə eyləyəsən, elə bil ehsandı, gəlin
(12, s.445).

Estetik gözəllik hissləri aşılayan bu təsvirlərdən görünür ki, "Təbiət gözəlliklərini yüksək qiymətləndirən xalq həmin gözəlliklə insan gözəlliyi arasında yaxınlıq

görmək istəmiş və öz həyatlarını təbii gözəlliklərə ahəngdar şəkildə qurmağa səy etmişdir. "Təsadüfi deyil ki, xalq arasında, aşıq qoşmalarında..." (43, s.236) təsvir olunan el gözəlləri ceyrana, marala, sonaya, gülə, bülbülə və s. bənzədilir. Bu cür bənzətmələr təbiət gözəllikləri ilə insan gözəlliyini vəhdətdə götürən Naxçıvan aşıqlarının yaradıcılığında estetik zövqün təsir gücünü artırdığı kimi, estetik tərbiyənin də etnopedaqoji dəyərlərə çevrilməsini təmin etmiş olur.

İnsan gözəlliyinin real təbiət gözəllikləri ilə bədii vəhdətdə təsviri Aşıq Cəfərin qoşmalarında da əsas yer tutur. Aşığın qoşmalarının birində təbiətə xüsusi yaraşıq və gözəllik verən Araz çayının gözəlliyi el qızlarının gözəllikləri ilə qarşılaşdırılır:

Qızlar durub xan Arazın başında,
Eybi yoxdur kirpiyində, qaşında.
Həddi-buluğ, on dörd-on beş yaşında,
Sanasan dağların maralı kimi (73, s.38).

Aşıq yaradıcılığında özünü biruzə verən təşbihlər, bənzətmələr Naxçıvan ədəbi-bədii mühitinin zənginliyini ifadə etməklə yanaşı, Naxçıvan folklorunun estetik tərbiyə baxımından dəyərinin yüksək olduğunu da təsdiqləyir:

Arazın dörd yanı sır ilə buzdu,
Kimisi gəlindi, kimisi qızdı.
Başına döndüyüm qız ala gözdü,
Könlümü eylədi qaralı kimi (73, s.39).

İnsan gözəlliyinin təsviri ilə təbiətin füsunkarlığının,



gülün, çiçəyin, bülbülün gözəlliyinin vəhdətini Sərraf Qasım da eyni estetik məftunluqla tərənnüm edir:

Al-əlvandı gülüm də,
Nəğməkar bülbülüm də,
Gözəllər var elimdə,
Biri-birindən gözəl,
Arı arından gözəl (11, s.324).

Pedaqoq-alimlərin fikirlərinə görə, "...şəxsiyyətində fiziki-təbii gözəlliklə intellektual-əxlaqi gözəlliyin vəhdətini təcəssüm etdirən adam, sözün həqiqi mənasında, əsl gözəldir" (43, s.233). Bu prinsipdən çıxış edərək qeyd etməliyik ki, Naxçıvan aşıqlarının yaradıcılığında el qızlarının təsvir və tərənnümündə onların zahiri gözəllikləri ilə yanaşı, batini gözəlliklərinin təsvirinə də yer verilir. Qadın gözəlliyi ilə bağlı qələmə alınan aşıq şeirlərində "...qadın isməti, vəfa, ilqar, sədaqət... və s. ideyalar..." (77, s.5) üstünlük təşkil edir. Bu gözəllər ismətli, həyalı, zərif, incə və utancaq şəkildə təsvir olunur. Bu cür təsvirlər isə tam şəkildə etnopedaqoji mahiyyət daşıyır. XIX əsr Naxçıvan aşıqlarından olan Dəvəçi Heydərin qoşmalarında bir-birinə qovuşan iki sevgilinin utancaqlığı batini mənəvi gözəllik kimi təqdim olunur:

İki sevgi bir araya gələndə,
Sanasan behiştdə güllər açılır.
Bir-birinə nazü qəmzə edəndə,
Utana-utana dillər açılır (12, s.435).

Bu iki sevgilinin batini gözəlliyi ilə onların zahiri

gözəlliyi arasında uyğunluq və harmoniya vardır. Çünki "Sevgidə əxlaqi və estetik hisslər bir-birinə qovuşur. Sevgi çox zaman məhz gözəllik hissinin üstün təsiri ilə doğulur" (85,s.154).Qoşmanın sonrakı bəndindən məlum olur ki, aşiqin tərəfmüqabili olan bu gözəl ağıllı-kamallı,ədəb-ərkanlı, ismətli, həyalı və utancaq olduğu kimi, həm də zərif estetik zövqə malikdir. Onun el gözəllərinə məxsus geyim tərzi, zahiri gözəlliyi vardır. Əynində atlas zər-zibası, boynunda qızıl həmayili olan bu gözəl ona məftun olmuş aşiqə xüsusi həzz və ya estetik zövq verir. Çünki "Gözəllik hissi həmişə mənəvi cəhətdən zövq almaqdan ibarətdir" (85, s.13):

Atlas zər-zibadan geyib əyninə,
Qızıl həmayili salıb boynuna.
İstədim ki, əl uzadam qoynuna,
Öz-özünə düymələri açılır (73, s.39).

Şərur bölgəsi aşıqlarından olan Gülalı Məmmədin aşiqanə qoşmalarında batini gözəlliyin estetik duyumu ilə təbiət kultunun estetik gözəllik atributları paralel şəkildə təqdim olunur. Belə ki, qoşmada təsvir olunan sevən aşiq batini cəhətdən kamil və mənəviyyatca gözəldir. Bu batini gözəllik aşiqdə o qədər qüvvətlidir ki, o hətta "ağ əlləri bağda gül ilə oynayan" (Bu da gözəllik estetikasıdır) sevgilisini şirin dil ilə danışdırır və özünü sevgilisinə qurban edir. Mənəvi gözəlliyə malik olan bu aşiqin dili ilə təbiət gözəllikləri də estetik gözəlliyin və estetek dərkin əsas atributlarından biri kimi verilir:



Ağ əllərin oynar bağda gül ilə,
Dindirərəm səni şirin dil ilə,
Qapında əylənib qallam il ilə,
Oyan, gözlərinə qurban olduğum.

Göründüyü kimi, Naxçıvan aşıqlarının yaradıcılığında bəzən estetik-bədii zövq ünsürləri əxlaqi-mənəvi zənginlik səviyyəsinə yüksəlir, "qapında əylənib qallam il ilə", "oyan, gözlərinə qurban olduğum" deyən aşiqin mənəvi zənginliyi üzə çıxır:

Bahar olcaq bağçanıza bar gələr,
Payız olcaq dağınıza qar gələr,
Səndən ayrı düşmək mənə ar gələr,
Oyan, gözlərinə qurban olduğum (12, s.437).

Naxçıvan aşıqlarından Aşıq Əli Xanxanım oğlunun estetik gözəllik anlayışına münasibəti daha real və həyatidir. Aşığın qoşmalarında zahiri gözəllik əlamətlərinə xas olan, elin adət-ənənəsinə və milli koloritinə uyğun olan qadın geyimi gözəlliyi estetik təsvir obyekti kimi verilir. Aşığın bu cür estetik təsvir üsulunda milli gözəllik atributları əsas götürülür və bu realist təsvir estetik tərbiyənin aşılanmasına xidmət edir:

Məxmər çuxa geyib, ucu dizindən,
Doymaq olmur bunun ala gözündən.
Bir gözəl törəyib Urum qızından,
Nə üzün daldalar, nə sinə bağlar (12, s.436-437).

Bu qoşmada Naxçıvan gözəli ümumtürk gözəlliyi simvolu kimi təqdim olunur. Naxçıvana Rum elindən (Konyadan), Cəlaləddin Ruminin vətənindən gələn

gəlindən törəyən qızın gözəlliyinin təsviri bunu sübut edir.

Qoşmada aşığın estetik gözəllik kateqoriyasına münasibəti də ifadə olunmuşdur. Aşığa görə, insan gözəlliyini örtmək, yaşırmaq, onu daldalayıb gizlətmək olmaz. Çünki insan həyati gözəlliklərdən zövq almaq üçün yaranmışdır. Məhz bu baxımdan, qoşmada təsvir olunan Rum gözəlinin zahiri gözəlliyi həyati gözəllik kateqoriyasının tələbi mövqeyindən mənalandırılmışdır.

Qoşmada Aşıq Əli estetik gözəllik anlayışına ictimai-sosial tələblər, ailə münasibətləri mövqeyindən də qiymət verir. Aşığa görə, insanda estetik hiss yaradan, ona estetik həzz verən həqiqi el gözəlləri və onların ülvi gözəllikləri ədəb-ərkan normalarına uyğun olan bir tərzdə, həm də emosional bir şəkildə təşbeh edilməlidir.

Naxçıvan aşıqlarının yaradıcılığında el gözəllərinin həm zahiri, həm də batini gözəlliklərinin daha emosional təsvir və tərənnümü estetik tərbiyənin məqsədinə xidmət edir. Bu aşıqların şeirlərində "Sözün gözəlliyinə məftun olan insan öz ətrafındakı estetik və mənəvi varlığa qarşı hissiyyatlı və tələbkar olur" (104, s.474). Bu bədii-estetik təsvir və səciyyələndirmə yolu ilə insanda estetik hislər yaradılır, insani gözəlliklər qavranılır və bədii təsvirdən alınan həzz və ya estetik zövq formalaşdırılaraq inkişaf etdirilir.

Aşıq yaradıcılığında aşılanan estetik tərbiyə öz mövzularına və təlqin etdiyi yüksək mənəvi ideyasına



görə daha çox yeni yetişməkdə olan gənclər üçün əhəmiyyətlidir. Çünki gənclərin sevib-sevilməyə və estetik gözəlliyin sirlərini dərk edib qavramağa və gələcək ailə həyatlarını gözəllik qanunları əsasında qurmağa daha çox ehtiyacları vardır. Lakin gənclər üçün aparılan estetik tərbiyə hərtərəfli olmalı, yalnız aşıq yaradıcılığı ilə məhdudlaşmamalıdır. "Estetik tərbiyə işi elə qurulmalıdır ki,... (gənclər – M.Q.) eyni zamanda həm incəsənətin müxtəlif növləri ilə... məşğul olsun, həm də geyimdə, məişətdə, əməkdə, davranış və münasibətdə gözəllik qanunları ilə hərəkət etsin" (55,s.316). Şübhəsiz ki, aşıq yaradıcılığı da estetik tərbiyənin məzmununa daxil edildikdə bu tərbiyə daha məzmunlu olur və gənclərdə estetik gözəllik qanunlarının dərkini daha da sürətləndirir. Bunun üçün gənclərə estetik tərbiyənin digər vasitələri ilə yanaşı, aşıq poeziyasının aşiqanə məhəbbət mövzuları da öyrədilməlidir. Çünki bu cür mövzularda bilavasitə estetik gözəllik qanunları əsasında sevmək və sevilmək estetikası aşılanır. Aşıq yaradıcılığında təlqin olunan təmiz sevgi münasibətlərini, estetik gözəlliyi mənimsəyən gənclər özlərini bu poeziyanın lirik qəhrəmanlarına bənzətməyə çalışır və özləri də estetik gözəlliyə və təmiz sevgiyə münasibətdə bu ədəbi qəhrəmanların yolu ilə getməyi üstün tuturlar. Odur ki, aşıq yaradıcılığında aşılanan estetik gözəlliklər və təmiz sevgi idealı gənclər üçün həm də nümunə məktəbi olur.

Aşıq Əli Xanxanım oğlundan yenə də bir nümunəyə

nəzər salaq:

Gözü badamıdı, gərdəni mina,
Şişədəndi solu, sağı gözəlin.
Kəbə qəndilidi, püstanı rəna,
Qoynu içi cənnət bağı gözəlin.

Aşığın gözələ münasibətinin təmizliyi, paklığı, ülviliyi qeyri-adi estetik müqəddəslik yaradan bir zövq obyektinə təşbih edilir. Çünki Kəbə bütün müsəlman dünyası üçün qibləgah hesab olunur. Aşığın isə qibləgah hesab etdiyi gözəlin qoynunun cənnətə bənzəməsi çox nadir estetik tərbiyə nümunəsidir:

Başına örtübdü ağ, nazik cuna,
Yaxılmış əllərə al-əlvan hənə.
Camalı lağ edir günə, həm dana,
Yanaqları gül yarpağı gözəlin (11, s.310).

Bu cür aşıq şeirlərində təcəssüm etdirilən gözəlin zahiri gözəllik atributları, yəni gözün badamı, gərdənin mina, sağ və solun şüşə kimi ağ-appaq, püstanın rəna (gözəl) olması və zahiri geyim tərzinin estetik cəhətdən gözəlliyi, şübhəsiz ki, hər bir gəncin diqqətini çəkir, onda estetik hiss yaradır və o, bu gözəlliklərdən həzz və ya estetik zövq alır. Beləliklə, bu yolla hər bir sevmək və ailə qurmaq ərəfəsində olan gəncə müəyyən estetik tərbiyə aşılanır.

Aşıq yaradıcılığından hər bir gənc oğlan və ya qız öz sevgilisinə qarşı müsbət əxlaq və davranış qaydalarını da öyrənir. Sevdiyi gözəli naz-qəmzəli görmək, bu gözəllik ədasını layiqincə qiymətləndirmək, onun dərdinə



yanmaq, kədərinə şərik olmaq kimi batini gözəllik əlamətləri aşıq şeirinin əsas aparıcı mövzularındandır. Batini gözəllik əxlaqını və davranış xüsusiyyətlərini əxz edib mənimsəyən hər bir gənc sevdiyi gözələ qarşı həssas olur və sevgilisinə qarşı hər zaman qayğıkeşlik göstərir. Bu isə gənclərdə həm gənclik çağlarında, həm də gələcəkdə qurulacaq ailə münasibətlərində qarşılıqlı sevgi və qayğıkeşlik yaradır. Estetik tərbiyənin bu məzmunu ilə bağlı Aşıq Əli Xanxanım oğlunun yaradıcılığında aşağıdakı tərbiyəvi motivlərlə qarşılaşırıq:

Səni ağlar gördüm, dərdim çoxaldı,
Qədəm basıb, sən bu yana xoş gəldin.
Ağlama, amandır, yarılır bağrım,
Həkimsən, loğmansan, cana xoş gəldin.

Yetişən gənc nəslin nümayəndələrinə "ilahi eşq", "həqiqi eşq", "həqiqi məhəbbət", "ülvi məhəbbət", "haqq aşiqi" anlayışlarını dərk etdirmək üçün Naxçıvan aşıq şeirinin klassik nümunələrinin əhəmiyyəti böyükdür. Bu nümunələr içərisində Aşıq Əlinin poeziyası əsl estetik-bədii zövq örnəkləridir. Sevdiyi gözəli həkimə, loğmana bənzədən aşıq saf eşqin, məhəbbətin carçısı kimi çıxış edir:

Müştaqam əzəldən ala gözünə,
Şəhdü şəkərinə, şirin sözünə.
Naz-qəmzə qıl, günəş doğsun üzünə,
Gözüm baxsın zənəxdanə, xoş gəldin.

Doğrudan da aşığın belə car çəkməsi, gözəlliyi bu cür təqdim etməsi onun saf eşqi saf zövq mənbəyinə

çevirməsi istəyi kimi göz önünə gəlir:

Mən səni görəndə dərdim azaldı,
Taqətə gəlibən qəddim düzəldi.
Boyun tamaşadı, zülfün gözəldi,
Əli qurban qədəminə, xoş gəldin (11, s.310-311).

Göründüyü kimi, bu qoşmada həm zahiri, həm də batini gözəllik əlamətləri estetik gözəlliyin əsas meyarı kimi verilmişdir. Qoşmada təsvir olunan aşiq sevdiyi gözəlin ala gözünə, şirin sözünə (ağıl-kamalına), naz-qəmzəsinə, zənəxdanına, bir sözlə, onun zahiri və batini gözəllik əlamətlərinə məftundur. Bu aşiq həm də öz sevgilisi kimi, daxili gözəlliyə, xoş rəftara, qayğıkeşliyə də malikdir. Çünki o, sevgilisini ağlayan gördükdə dərdi çoxalır, bağrı yarılır, onu şən gördükdə isə dərdi azalır, qəddi düzəlir. O hətta sevdiyi gözəlin qədəmlərinə də qurban olmağa hazırdır.

Eyni gözəllik atributlarına Naxçıvanın Şıxmahmud kəndindən olan Aşıq Fətullahın qoşmalarında da rast gəlirik. Lakin Aşıq Fətullah təbiət gözəllikləri ilə insan gözəlliyinin atributlarını bədii vəhdətdə verir. Bu qoşmalarda da zahiri və batini gözəlliyin vəhdəti estetik tərbiyənin əsas meyarı kimi verilir:

Baharın xoş fəsli, güllər açanda,
Nərgiz, bənövşəli yaz istər könlüm.
Tovuz tamaşalı, tərlan duruşlu,
Qəmzəsi can alan qız istər könlüm.

Təhlilə cəlb etdiyimiz bu qoşmada zahiri və batini gözəlliyin vəhdəti estetik tərbiyənin əsas meyarı kimi



verilsə də, əxlaqi-mənəvi keyfiyyətlərin tərənnümü də gözə dəyir. "Dindirsən can deyə...", "aşiqinin cəbrinə dözə" kimi arzular, diləklər, istəklər, əxlaqi-mənəvi çağırışlar aşiqin əsas amalıdır:

Dindirsən can deyə, cana can düzə,
Hər vaxt aşiqinin cəbrinə dözə.
Yanaqlar piyalə, dodaqlar məzə,
Onda işvə, qəmzə, naz istər könlüm.

Əvvəlki bəndlərdə olduğu kimi, sonuncu bənddə də aşiqin istəkləri zövq oxşamaqla yanaşı, əxlaqi-mənəvi keyfiyyətləri də üzə çıxarır:

Fətullah mayıldı cığalı telə,
O qaymaq dodağa, o şirin dilə.
Xoş yeriyə, xoş danışa, xoş gülə,
Bu nişanlar onda düz istər könlüm (11, s.316).

Lakin bu bədii-estetik təsvirlə yanaşı, Aşıq Fətullah gözəlin batini kamilliyinə, onun mənəvi aləminin gözəlliyinə daha çox üstünlük verir və estetik tərbiyədə ağıl və kamalı əsas götürür:

Qədrini bilənsən gövhər, zərin də,
Qızılgül əlində, cığa sərində,
Ağlın, huşun, söz-söhbətin yerində,
Afərin səndəki kamala, gözəl (11, s.320).

Şübhəsiz ki, aşıq yaradıcılığında yetişən nəslə gözəllik atributlarının bu cür bədii-estetik təsvirinin aşılanması estetik tərbiyə üçün əhəmiyyətli olub, gənclərin gözəllik idealını və əxlaqını formalaşdırır.

Aşıq yaradıcılığında geniş yer utan "...təbiətin

gözəlliklərindən də esteik tərbiyə məqsədi ilə istifadə..." (55, s.324) olunur. Doğma vətən orpağının təbii gözəlliklərini sevmək, bu gözəlliklərin insana zövq və fərəh verən bir nemət olduğunu dərk edib onu qorumaq ekoloji tərbiyənin obyeki olduğu kimi, estetik tərbiyənin də əsas obyektlərindən biridir. Təbiət gözəllikləri ilə bağlı bu prinsip estetik-əxlaqi tərbiyə ilə yanaşı, ekoloji tərbiyənin vəhdətini də tələb edir.

Aşıq yaradıcılığında təbiət gözəlliklərinin təsvir və tərənnümü estetik tərbiyə ilə sıx bağlıdır. Bu poeziyada verilən peyzaj lirikası insanda təbii gözəlliklərə vurğunluq hissi yaradır və ona xüsusi estetik zövq verməklə yanaşı, onun əxlaqını saflaşdırır. Lakin aşıq yaradıcılığı bədii ədəbiyyat olduğu üçün ondan alınan zövq real təbii gözəlliklərdən, yəni təbiətdəki dağların, ormanların, yaşıl çəmənliklərin və gül-çiçəklərin, şırıltı ilə axan şəlalələrin, zümzüməli bulaqların, ceyran-cüyürlərin, bərbəzəkli quşların, müxəlif heyvanlar aləminin gözəlliyindən alınan zövqə bərabər deyildir. Çünki pedaqoji-estetik fikirdə çoxdan sübut olunmuşdur ki, incəsənət əsərlərində, eləcə də bədii ədəbiyyatda və aşıq poeziyasında təsvir olunan təbiət gözəllikləri "...əks etdikləri təbiət hadisələrindən gözəl ola bilməz...; insan həyatda olan hər hansı güldən və ya çiçəkdən yaxşı gül və ya çiçək xatırlaya bilmir" (54, s.375). Lakin buna baxmayaraq estetikanın tərkibinə daxil olan bəddii ədəbiyyat və o cümlədən aşıq poeziyası da estetik tərbiyənin aşılanmasında xüsusi əhəmiyyətə malikdir. Estetik hiss və



ləzzət incəsənət əsərlərinin və bəddii ədəbiyyatın digər növləri ilə müqayisədə aşıq poeziyasında daha güclüdür. Çünki bu poeziya estetik tərbiyənin aşılanması baxımından təbiət gözəlliklərinin təsvirinə aid zəngin material verir. Bu cəhətdən Naxçıvan aşıqlarından Ululu Kərimin və Aşıq Cəfərin peyzaj lirikası daha təsirli estetik tərbiyə aşılayır.

Ululu Kərimin bir gəraylısında Şahbuzun Keçil kəndinin təbiət gözəllikləri nəzmə çəkilir. Aşığın yaratdığı bədii tablo insana xüsusi estetik zövq verir və onda təbiət gözəlliklərinə məftunluq hissi yaradır:

Ay ağalar, möcüz gördüm,
Mən Keçilin yaylağında.
Süsən, sünbül, tər bənövşə,
Qız Keçilin yaylağında (73, s.23).

Naxçıvan aşıqlarının yaradıcılığında təbiət təsvirləri xüsusi yer tutsa da, bu təsvirlərin bir qisminin Vətən torpağının bir dilbər guşəsinin vəsfinə həsr edilməsinin çox mühüm etnopedaqoji əhəmiyyəti vardır:

Yaz olar, çıxallar dağa,
Bulud oynar, hava yağa.
Kəsəllər qurban sadağa,
Qız keçilin yaylağında.

Təbiət gözəlliklərinin təsviri Aşıq Cəfərin yaradıcılığında da yer tutur. Aşığın peyzaj lirikasına həsr etdiyi bir qoşmasında vətən təbiətinin füsunkar mənzərələri, Ələyəz dağının əzəməti, Sarı yalın gül-çiçəyinin gözəlliyi, kəklik və bülbüllərin xoş avazı nəz-

mə çəkilir, təbiət hadisələrinin təsvirindən estetik təsir gücünə malik bədii tablo yaradılır.

Axşam üstü qoyun gəlir sağına,
Müştaqıyam Ələyəzin dağına.
Duman çöküb yalın solu, sağına,
Heyran eyləyibdi bu dağlar məni
(12, s.441).

Göründüyü kimi, Naxçıvanın aşıq folklorunda verilən poetik təsvirlər, estetik zövq mənəvi olmaqla yanaşı, oxucuda ətraf mühitə məhəbbət hissi oyadır və onların əxlaqi-mənəvi zənginliyini təmin etmiş olur:

Sürü qalxır Sarı yaldan yuxarı,
Səs salıbdı bulaqların axarı,
Gül-çiçəklər xatırladır baharı,
Mehman eyləyibdi bu dağlar məni.

Qoşmadakı təbiət təsvirləri doğma yurda məhəbbət, tariximizin daşıyıcıları olan Ələyəz dağı, Sarı yal kimi yurd yerlərimizə sevgi hissləri oyadır:

Usta Cəfər güvənir öz sazına,
Aşiq olub baharına, yazına.
Bülbülün, kəkliyin xoş avazına
Qurban eyləyibdi bu dağlar məni.

Naxçıvanın təbiət gözəllikləri içərisində Batabat yaylağının xüsusi yeri vardır. Şahbuz bölgəsi aşıqlarından olan Aşıq İslamın "Batabat" rədifli qoşmasında Naxçıvanın Şahbuz bölgəsində yerləşən Batabat yaylağının təbii mənzərələri, oradakı Zor bulağın, yaraşıqlı dağların gözəllikləri tərənnüm olunur:



Görünən dağların zirvəsi qardır,
Süzülən suların sərin bulaqdır,
Qoyunlu, quzulu, güllü yaylaqdır,
Söhbət açır sazım, sözüm, Batabat (13, s.393).

Batabat yaylağı haqqında yazılan poetik nümunələr içərisində Naxçıvan aşıqlarının yaratdıqları şeir nümunələri ona görə insan zövqünü məftun edir ki, bu əsrarəngiz yaylağı yurd yeri kimi seyr edən aşıqlar onu daha orijinal təsvir etmişlər. Bu orijinallıq isə həmin nümunələri ən zəngin milli-mənəvi dəyərlər kimi etnopedaqoji səviyyəyə qaldırmışdır. Bütün bunları təqdim etdiyimiz qoşmada görmək olar:

Bulaqlar yığılıb sənin yanına,
Gözəllər gəliblər hər oylağına.
"Zor bulağ"ı yenə saldım yadıma,
Səndən doymur mənim gözüm, Batabat.

Qoşmanın hər bəndində Naxçıvanın gözəlliklərinə əbədiyaşarlıq gətirən misralar onu etnopedaqoji dəyər kimi didaktik material halına gətirir:

İslam deyər bulaqlarda gözüm var,
Ta əzəldən söhbətin var, sözün var,
Yaraşıqlı dağların var, düzün var,
Xəstə tapar burda dözüm, Batabat.

Estetik tərbiyə ilə bağlı olan bu nümunələr təsdiq edir ki, Naxçıvan aşıqlarının yaradıcılığında estetik tərbiyə mövzuları geniş yer tutmuşdur. Bu mövzuların gənc nəslə aşılanması onların estetik şüurunun və estetik dünyagörüşünün formalaşdırılmasında xüsusi pedaqoji

əhəmiyyət kəsb edir. Bütün bu deyilənlərə əsasən bölməyə yekun vuraraq belə bir nəticəyə gələ bilərik:

–Naxçıvan folklorunun bütün nümunələri estetik tərbiyə baxımından mühüm əhəmiyyət kəsb edir. Hansı ki, bu nümunələrin hər biri yetişən nəslin bədii zövqlərini tənzimləyir və mədəni istirahətini təmin edir;

–Naxçıvan folklorunun nümunələri içərisində yetişən nəslin bədii zövqlərini daha yüksək səviyyədə saflaşdıran, onların estetik təminatını zənginləşdirən, təxəyyül imkanlarını genişləndirən laylalar, oxşamalar, bayatılar, haxıştalar, mövsüm və mərasim nəğmələri, xalq mahnıları, aşıq folkloru nümunələri etnopedaqoji materiallar hesab olunur və tərbiyə baxımından çox əhəmiyyətlidir. Bu nümunələr yetişən nəslin nümayəndələrinin estetik-bədii zövq tərbiyəsilə yanaşı, onların əxlaqi-mənəvi və ekoloji tərbiyəsinin vəhdətdə inkişafını da təmin etmiş olur. Naxçıvan folkloruna məxsus olan bu keyfiyyətlər onu Naxçıvan xalq pedaqogikasının ən mühüm tərkib hissəsi kimi əbədiləşdirir.



# II FƏSİL

# NAXÇIVAN FOLKLORUNDA EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

Ekoloji problem çağdaş şəraitdə müstəqil Azərbaycanımızın daxili və xarici siyasətinin mərkəzində dayanan zəruri problemdir. Nüvə müharibəsi təhlükəsinin yarandığı hazırkı şəraitdə ekoloji mühitin qorunmasının zəruriliyi ideyası bəşəri mahiyyət daşıyır. Odur ki, ekoloji mühitin qorunması problemi ilə artıq bütün dünya xalqları məşğul olmaqdadır. Təsadüfi deyildir ki, BMT planetimizin ekoloji şəraitinin yaxşılaşdırılması ilə əlaqədar dünya ölkələrinin birgə fəaliyyətini əks etdirən "Ətraf mühitin qorunmasının ümumdünya strategiyası" adlı beynəlxalq sənəd qəbul etmiş, bu məqsədlə beynəlxalq konfranslar keçirilmişdir (66, s.417-418).

1992-ci ildə Rio-de-janeyroda BMT də daxil olmaqla 179 ölkənin dövlət başçılarının iştirakı ilə ekoloji problemə həsr olunmuş beynəlxalq konfrans keçirilmiş və dayanıqlı inkişaf modeli qəbul edilmişdir. "Bu modelin əsasına bəşəriyyətin ekoloji şüurunun yenidən qurulması zərurəti qoyulmuşdur" (66, s.418).

Bu gün ekoloji böhranın yaranma səbəblərinin daha dərin mahiyyət qatlarına nüfuz edilməsi, mövcud problemlərin kökündə duran amillərin üzə çıxarılması üçün dünya alimləri ciddi araşdırmalar aparır, planetimizin ən böyük və aparıcı dövlətləri təxirəsalınmaz bu vəzifənin

uğurlu həlli üçün birgə tədbirlərin həyata keçirilməsinə çalışırlar. Əhali arasında ekoloji şüurun genişləndirilməsi və ətraf mühitin mühafizəsi problemlərinə diqqətin yönəldilməsi məqsədilə Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1972-ci il 15 dekabr tarixli qərarına əsasən hər il iyunun 5-i Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü kimi qeyd olunur. Respublikamızda Ətraf Mühitin Mühafizəsi Üzrə Milli Fəaliyyət Planı hazırlanmış, layihələr işlənmiş, proqramlar həyata keçirilmiş, 27 yanvar 2003-cü ildə "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul edilmişdir (20).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 sentyabr 2006-cı il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında Ekoloji Vəziyyətin Yaxşılaşdırılmasına Dair 2006-2010-cu İllər Üçün Kompleks Tədbirlər Planı"nda (14) qarşıya mühüm vəzifələr qoyulmuşdur. Bunun nəticəsi olaraq 2005-ci ilin sonunda möhtərəm prezidentimiz İlham Əliyevin ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq miqyasda böyük nüfuz qazanmış Mixail Jukov Fondunun ali mükafatına layiq görülməsi ətraf mühit sahəsində Azərbaycanda həyata keçirilən ardıcıl uğurlu tədbirlərə verilən yüksək qiymətin bariz nümunəsidir. Bu məqsədlə ölkəmiz 20-dən çox beynəlxalq kommunikasiyaya qoşulmuşdur.

Hazırkı şəraitdə ekoloji durumun sağlamlaşdırılması məqsədilə regional əməkdaşlığa da böyük önəm verilir.



Unutmamalıyıq ki, ekoloji problemlərin və təbiəti mühafizə məsələlərinin həllinin dövlət siyasəti səviyyəsinə qaldırılması xalqımızın sağlamlığının, eləcə də milli genefondumuzun qorunması deməkdir.

Ulu öndər Heydər Əliyevin aşağıdakı sözləri bunu bir daha təsdiq edir:"Biz təbiətə qarşı heç bir zor işlədə bilmərik. Təbiətin yaratdığı təbii qanunlar heç kəsin istəyindən, yaxud səyindən asılı olmayaraq işləyir. Amma bu təbii qanunlar içərisində də bir olmaq, daha da sıx olmaq, bir-birinə dayaq olmaq, əl uzatmaq üçün imkanlar çoxdur"(51, s.56).

Məhz bu baxımdan ekoloji tərbiyə tərbiyənin ən mühüm tərkib hissələrindən biri olub yetişən nəslin nümayəndələrini ətraf mühiti, xüsisilə yaşıllıqları, meşələri, çiçəkləri, nadir quşları, heyvanları, bulaqları, çeşmələri, çayları sevməyə istiqamətləndirmək, yönəltmək, onlarda atmosferə, hidrosferə, biosferə məhəbbət hissini qüvvətləndirmək və ana təbiətin çirklənməkdən qorunması ilə bağlı bilik, bacarıq, vərdişlər sistemini yaratmaqdan ibarətdir.

Ekoloji tərbiyə ilə əlaqədar müxtəlif elm sahələrində bir sıra dissertasiyalar, pedaqoji tədqiqat əsərləri və elmi məqalələr yazılmışdır. F. Sadıqov, G. Əliyeva, M. Abbasov (80), F. Sadıqov, M. İsmayılova (81), İ. Tacəddinov (106), A. Əsgərov (32), B. Budaqov (17), O. Həsənli (35), Ə. Əsgərov (33), H. Abdullayeva, N. Məsimov (6), (7), T. Allahyarova (8), Y. Allahverdiyev (9), T. Əkbərov (21), U. Ələkbərov (22), H. Əliyev, M.

Xəlilov (24), N. Əsədova (31), N. Qarayeva (57), İ. Məmmədov (67) və başqaları ekologiya və ekoloji tərbiyə ilə bağlı dəyərli əsərlər yazmışlar. Bu tədqiqatların sayını artırmaq da olar.

Pedaqoji tədqiqatlarda göstərilir ki, "ekologiya" sözü elmi termin kimi ilk dəfə 1866-cı ildə alman bioloqu Ernest Hekkel tərəfindən işlədilmiş, elmi əsası ingilis alimi Ç.Darvin tərəfindən qoyulmuş, XX əsrdə isə pedaqoji ədəbiyyata gəlmişdir.

Əsası Y.A.Komenski tərəfindən qoyulan elmi pedaqogikada ətraf mühitin qorunması ideyası primitiv şəkildə qoyulsa da, sonralar Avropada, Amerikada, Rusiyada və Azərbaycanda təkmilləşdirilərək elmi, pedaqoji, psixoloji və sosioloji əsaslar üzərində formalaşdırılmışdır.Biosfer təliminə əsaslanan ekologiya elminin inkişafında S.İ.Vavilov, B.N.Sukarev, J.N.Pavlovski, V.İ.Bernadski kimi alimlər də xüsusi rol oynamışlar.

Azərbaycan xalq pedaqogikasında ekoloji tərbiyə probleminə ilk dəfə olaraq toxunan professor Ə.Ş.Həşimov olmuşdur. Ə.Ş.Həşimov professor F.B.Sadıqovla birlikdə çap etdirdikləri "Azərbaycan xalq pedaqogikası" monoqrafiyasında (67) və "Azərbaycan xalq pedaqogikası" adlı ali məktəblər üçün dərsliyində (68) ekoloji tərbiyənin etnopedaqoji əsaslarını ətraflı şəkildə şərh etsələr də, Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində ekoloji tərbiyə probleminə toxunmamışlar. Eyni sözləri pedaqoq-alimlərimizdən olan İ.İ.Əliyevin



tədqiqatları barədə də demək olar. Ona görə ki, İ.İ.Əliyev də bir sıra tədqiqat əsərlərini Azərbaycan etnopedaqogikasına həsr etsə də, bu əsərlərin heç birində Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində ekoloji tərbiyə probleminə yer ayırmamışdır. Bunları nəzərə alaraq biz təqdim etdiyimiz bu bölməni Naxçıvan folkloru nümunələrində ekoloji tərbiyə məsələlərinə həsr etməyi məqsədəuyğun hesab edirik.

Məlum olduğu kimi, hər zaman insan təbiət qanunlarını öyrənmədən ekoloji mühitə şüurlu təsir göstərə bilməz. Ekoloji mühitə şüurlu təsir təbiətin canlı və cansız mühitini gözəlləşdirir, nəticədə insan ekoloji mühiti özünün yaşayış tərzinə uyğunlaşdıraraq ondan səmərəli şəkildə faydalanır. Çünki "Ekoloji mədəniyyət insanın təbiətə münasibətinin göstəricisidir" (3, s.307). Ona görə də istər xalq pedaqogikası, istərsə də elmi "pedaqogika həmişə təbiətin xüsusi imkanlarının insanın hiss və davranışına təsirinə diqqət verib" (101, s.17).

"Təbiətlə cəmiyyət arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsirin qanunauyğunluqlarını" (54, s.388) öyrənən ekologiya elmi cəmiyyətdə insanların, təbiətdə isə bitkilər, ağaclar, quşlar və heyvanlar aləminin sağlamlığına, suyun, havanın və torpağın təmizliyinə xidmət edir və bütün bunları tərbiyənin bir zəruri qolu kimi insana aşılayır. Odur ki, ekoloji tərbiyə çoxşaxəlidir və cəmiyyətlə, mədəniyyətlə, əxlaqla, iqtisadiyyatla, siyasətlə, səhiyyə ilə sıx təmasdadır.

Ekoloji tərbiyənin məzmununa daxil olan zəruri

biliklər ailədə və uşaq baxçalarında valideynlər və tərbiyəçilər tərəfindən, orta və ali məktəblərdə isə müəllimlər tərəfindən müxtəlif fənlərin tədrisində aşılanır. Buraya kimya, fizika, coğrafiya, ədəbiyyat, folklorşünaslıq, məktəbəqədər pedaqogika (məktəbəqədər yaşlı uşaqların ekoloji tərbiyəsi), məktəb pedaqogikası (şagirdlərin ekoloji tərbiyəsi), ali məktəb pedaqogikası (tələbələrin ekoloji tərbiyəsi), təbiətşünaslığın əsasları və s. fənlər daxildir. Bu fənlərin köməyi ilə aşılanan ekoloji tərbiyə ümumilikdə insan və cəmiyyət həyatının sağlamlığına xidmət edir.

Ekologi tərbiyə ilə əlaqədar aparılan elmi tədqiqatlarda ekoloji tərbiyənin qarşısında duran vəzifələr, ekoloji tərbiyənin istiqamətləri, zərərli ekoloji amillərin müəyyənləşdirilməsi və ona qarşı mübarizə üsulları, təbii mühitlə cəmiyyət arasında tarazlığın pozulmasının qarşısının alınması, insanla ekoloji mühitin qarşılıqlı əlaqəsi, mövcud ekoloji bəlalar və onlara qarşı mübarizə kimi məsələlər haqqında müxtəlif elmi fikirlər söylənilmişdir. Bu fikirlərin əksəriyyətinin arxasında ekoloji mühitin qorunması və bu mühitin insanın maddi və mənəvi həyatının yaxşılaşdırılmasına istiqamətləndirilməsi dayanır. Uzun əsrlər boyu ekoloji mühitin qanunlarını öyrənib onu təcrübəyə tətbiq edən xalq müdrikləri özlərinin bu sahədəki bilik və təcrübələrini ümumiləşdirmiş, folklorumuzun müxtəlif janrlarında ekoloji tərbiyə ilə əlaqədar tərbiyəvi süjetlər yaratmışlar. Bu cəhətdən Naxçıvan folkloru da ekoloji tərbiyəni özündə



əks etdirən dəyərli materiallarla zəngindir. Ağılar, laylalar, deyimlər, sınamalar, mərasim nəğmələri, əmək nəğmələri, sayaçı sözləri, holavarlar, nağıllar, dastanlar, miflər, əfsanələr, atalar sözləri, inanclar, bayatılar, Naxçıvanın aşıq folkloru materialları ekoloji tərbiyə ilə bağlı zəngin tərbiyəvi faktları özündə əks etdirir. Naxçıvan folkloru janrlarında hava, su, torpaq, günəş, ay, dağ, bitkilər, ağaclar, quşlar və heyvanlar aləmi ilə bağlı ekoloji tərbiyə süjetləri çoxdur. Etnopedaqogikanın bir qolu olan və öz aktuallığı ilə diqqəti cəlb edən Naxçıvan folklorunda ekoloji tərbiyə məsələlərinin tədqiq edilib qiymətləndirilməsi çağdaş pedaqoji fikrimiz üçün olduqca əhəmiyyətlidir. Çünki Azərbaycan etnopedaqogikasının bir çox süjetlərində olduğu kimi, Naxçıvan xalq pedaqogikasının süjetlərində də ekoloji tərbiyə ilə bağlı müdrik xalq kəlamları, milli-mənəvi təfəkkürlə bağlı məsələlər, dəyərli tərbiyəvi ideyalar öz əksini tapmışdır.

Naxçıvan folklorunun ekoloji tərbiyə ilə bağlı materiallarında təbiətə bağlılıq, təbiətə sevgi və onu qorumaq ideyası bu materialların əsas leytmotivini təşkil edir. Bu materiallarda təbiət bütövlükdə insanla vəhdətdə götürülür. Çünki ta qədimdən başlayaraq "...insanlar təbiəti duyan, eşidən, hiss edən, yaşayan, daim hərəkətdə olan canlı kimi təsəvvür etmişlər. Təbiət kultu, təbiətə inam çox qədim zamanlardan mövcud olmuşdur" (82, s.460). Təbiətin ayrı-ayrı ünsürləri isə insanın xilaskarı kimi təsəvvür edilmişdir.

Xalq müdrikləri ekoloji mühitlə bağlı olan cansız və canlı təbiət amillərini insanla vəhdətdə götürmüş, dağlar, bulaqlar, çaylar, ağaclar, bitkilər, çiçəklər, quşlar və heyvanlar aləmini insan kultu ilə birləşdirərək onların insanın maddi və mənəvi həyatına müsbət təsirini folklorun əsas tərbiyəvi konsepsiyası kimi irəli sürmüşlər. Odur ki, ekoloji mühitin qorunması və insanın ekoloji mühitdən onu mühafizə etmək şərtilə öz rifahı naminə istifadə etməsi Naxçıvan folklorunun ayrı-ayrı janrlarında, o cümlədən kiçikhəcmli nümunələrində əsas ideya kimi verilir. Naxçıvan folklorunda ekoloji mühit amilinin müqəddəsliyi və onun qorunması ideyası xalqın etnopedaqoji dəyərləri hesab edilir və bu dəyərləri yaradan tərbiyə prosesi yarandığı gündən bugünədək davam edir və bundan sonra da davam edəcəkdir. Çünki ekoloji mühit insanın həyat tərzi ilə sıx bağlıdır. Xüsusilə "Heyvanlar aləmi, eləcə də bitki aləmi insan cəmiyyətinin mövcudluğu və inkişafı üçün əsas şərtlərdən biridir" (98, s.94).

Qədim əcdadlarımız ekoloji mühitdə nəyin zərərli, nəyin xeyirli, nəyin xeyir, nəyin şər olduğunu çox gözəl dərk etdikləri üçün öz bildiklərini gələcək nəslə aşılamaq üçün folklorun ayrı-ayrı janrlarında ekoloji tərbiyə ilə bağlı yaddaqalan, dəyərli süjetlər yaratmış və bunları xalq təfəkkürünün süzgəcindən keçirib folklor mühitinə daxil etmişlər.

Naxçıvanın folkolr mühitində yaranan xalq inancları ekoloji tərbiyə baxımından daha mühüm əhəmiyyət



kəsb edir. Ona görə ki, inanclar ən qədim milli-mənəvi dəyərlər hesab olunur. Ta qədim dövrlərdən başlayaraq xalqımızın müdrik ağsaqqal və ağbirçəkləri milli-mənəvi dəyərlərimizlə bağlı müxtəlif inanclar yaratmış, bu inanclarda ekoloji mühitin tərbiyəvi əhəmiyyətini etnopedaqoji örnəklər yönümündə yetişməkdə olan yeni, gənc nəslə aşılamışlar.

Naxçıvan xalq inancları həm realist, həm də mifik xarakter daşımışdır. Bu inanclarda Günəş, Ay, dağ, dərə, qaya, torpaq, su, heyvanlar, quşlar, ağaclar və bitkilərlə bağlı realist və mifik süjetlərin ifadə etdiyi ekoloji tərbiyə ideyası sırf xəlqi mahiyyət daşıyir və xalqımızın etnopedaqoji dünyagörüşünü, onun milli təfəkkürünü özündə əks etdirir.

Məsələn, su ünsürü ilə bağlı Naxçıvan folklorunda bu cür xalq inanclarına rast gəlirik:

–"Suya salam verməsən, sənə qarğış eylər" (13, s.27).

–"Sübh vaxtı, axşamçağı suyun başına gedəndə salam vermək lazımdır.

Suda qarı nənə adlı bir şəxs yaşayır. Əgər ona salam verməsən, acığı tutar, sənə xətər toxundurar" (13, s.16).

–"Novruz günü kim gecə arxın başına gedib, su dayanan vaxt nə diləsə hasil olar" (13, s.30).

Göründüyü kimi, bu xalq inanclarında iki tərbiyə amili ilə qarşılaşırıq. Birinci amil budur ki, suyu insanın və təbiətin yaşam tərzi üçün zəruri hesab edən "xalq

müəllimləri", yaxud "xalq tərbiyəçiləri" ekoloji mühitə həyat verən suyu müqəddəsləşdirmiş və ona səhər-axşam salam verməyin (əslində qorumağın) zəruriliyini ekoloji tərbiyə ideyası kimi ön plana çəkmişlər. İkinci tərbiyəvi amil isə bundadır ki, böyüklərə hörmət tərbiyəsi ekoloji su amilinə şamil olunmuş, "Suda qarı nənə... yaşayır" ifadəsi ilə suya ehtiram ideyası məcburi tərbiyə ünsürü kimi verilmişdir.

Xalq müdrikləri bütün təsərrüfat həyatının su ilə, yağışla sıx bağlı olduğunu, təsərrüfat həyatının susuz dağılacağını və ekoloji mühitin zərər çəkəcəyini bildiklərindən, bu ideyanı vermək üçün bəsit süjetli xalq inancından da istifadə etmişlər. Naxçıvanın Şahbuz bölgəsi, Yazı düzü ilə bağlı olan bir xalq inancında oxuyuruq:

–"Yazı düzündə taxıl susuzluqdan yanırmış. Camaat Allaha üz tutub deyir: "Ay Allah, yağış yağdır, bulaq üstə qurban kəsəcəyik".

Yağış yağır, camaat aparıb Yazı düzündəki bulağın üstündə öküz kəsir. O vaxtdan o bulağın adı qalır Nəzir bulağı" (13, s.17).

Bu xalq inancında həm ekoloji mühitin su ünsürünün (yağışın), həm də bulağın müqəddəsliyi əsas ekoloji tərbiyə ideyası kimi verilmişdir.

Bəzi Naxçıvan inanclarında ekoloji tərbiyə ilə bağlı olan belə bir fikir aşılanır ki, ekoloji mühitdə yaşayan canlılar aləmi bu mühitin barını, bəhrəsini yeməyə haqlıdırlar. Heyvanlar aləmi ekoloji mühitdən qidalandıqları kimi, insanlar da ekoloji mühitin nemətləri ilə qidalanmalıdırlar. Odur ki, canlılar aləminin, o cümlədən, insanın yaşaması üçün əsas olan və qida mənbəyi sayılan ekoloji mühiti qorumaq və bu mühitdən səmərəli istifadə etmək hər bir insanın müqəddəs borcudur. Bu ekoloji tərbiyə ideyası aşağıdakı xalq inancında verilmişdir:



–"Nar yiyən, yanındakına yediyi nardan verməsə, onun ürəyinə qan damar" (13, s.11).

Bu xalq inancında "ekoloji mühitin bar-bəhrəsindən hamıya pay düşməlidir" ideyası ekoloji tərbiyənin humanist tərəfi kimi verilmişdir. Ekoloji tərbiyənin bu humanist tərəfi ilə xalq müdrükləri belə bir tərbiyə ideyası aşılamışlar ki, təbiətin maddi nemətlərindən hər bir insanın bəhrələnməyə haqqı vardır.

Naxçıvan folklorunda ekoloji mühitlə sıx bağlı olan Ay və Günəş haqqında yaradılan xalq inancları da ekoloji tərbiyə ünsürü kimi verilmişdir. Günəş və Ay haqqında olan aşağıdakı inanclarda deyilir:

–"Günəşi hər gün dan yerində qarşılayan adamın ürəyi xəstə olmaz" (11, s.23).

–"Yaşlı qadınlar Ayı görəndə salavat çöyürərlər. Deyərlər ki, Ay bizim qaynatamızdı (13, s. 25).

–"Ay təzə çıxanda onu görənlər nə arzulasalar yerinə yetər" (11, s.26).

Göryndüyü kimi, hər üç inancda xalqın ekoloji mühiti işıqlandırıb ona həyat və yaşam verən Günəşə və Aya etiqadı verilmişdir.

Naxçıvan xalq inanclarında ekoloji mühitin insan xəstəliklərinin aradan qaldırılmasına təsiri faktlarına da rast gəlirik. Bəzi xalq inanclarında Günəşin, Ayın, müxtəlif bitkilərin insana şəfa verən xüsusiyyətləri ekoloji tərbiyə süjeti kimi verilir. Məsələn, Naxçıvan xalq inanclarından birində deyilir:

–"Təzə ay çıxanda əlinə ziyil düşən şəxs ziyili süpürgə ilə süpürüb belə oxuyar:

Təzə ay, səni xoş gördüh,
Ziyil yerini boş gördüh»" (13, s.12).

Bu xalq inancında ekoloji mühitə işıq salıb onu canlandıran müqəddəs Aya xalqın inamı ifadə olunmuşdur.

Ekoloji mühitlə bağlı olan Ayın insana şəfaverici funksiyaya malik olmasını insanlar öz mənəvi gücü hesab etmişlər. İnsanlar belə hesab etmişlər ki, əgər bədirlənmiş işıqlı Ay təbiətə, ekoloji mühitə nur səpib onu gecənin zülmətindən qoruyur və canlandırırsa, deməli, o, öz nuru ilə insana da şəfa verə bilər. Deməli, insanın təbiət hadisələrinə güvənməsi onun tərbiyəsi üçün əsas amilə çevrilir. Naxçıvan xalq inanclarının birində deyilir:

Göy üzündə Ay, bala,
Ay bədirli, ay bala,
Allah səni qorusun
İsitmədən, ay bala (13, s.12).

Bu xalq inancı insanlara ekoloji mühitə, təbiət kultuna və kosmosa da inam və məhəbbət tərbiyəsi



aşılayır.

Mənəvi-ekoloji tərbiyənin şagirdlərə, yeniyetmələrə aşılanması onlarda təbiətə bağlılıq və onu qorumağa inam və məsuliyyət hissi yaradır. Bu məqsədlə heyvanat və quşlar aləmi ilə bağlı xalq inanclarında ekoloji mühitin qorunması və heyvanat aləminə istək ideyası aşılanır:

–"Qaranquş yuva quran həyətdə şaddıx olar" (12, s.34).

–"Leyləyin yuvasını dağıtmazlar" (12, s.34).

–"Leyləyə daş atmazlar, küsüb gedər, yaz yubanar" (11, s.59).

–"Yahunu (göyərçini) öldürən xeyir tapmaz deyərlər" (11, s.56).

–"Ahunu öldürən xeyir görməz" (13, s.30).

–"Hər evin bir ilanı olar. Ona toxunmazlar" (13, s.19).

–"Ocax ilanı müqəddəsdi. İlan çox olan yer ocaxdı" (13, s.19).

–"Canavar hansı kəndin çöllüyündə balalasa o kəndin mal-heyvanını yeməz" (13, s. 31).

–"Səhər-səhər yol üstə qabağına dovşan çıxsa, işin uğurlu olar" (13, s. 26).

–"Axır çərşənbədə sağmal malın buynuzuna qırmızı bağlallar" (13, s. 25).

Bu xalq inanclarına görə qaranquşun həyətdə yuva qurması xosbəxtlik gətirdiyi halda, leyləyin yuvasının insanlar tərəfindən dağıdılması, göyərçinin öldürülməsi

bədbəxtlik gətirir. Odur ki, hər üç inancda ekoloji mühitə gözəllik verən qaranquşu, leyləyi və göyərçini, quşlar aləmini qorumaq istəyi və tərbiyəsi əsas yer tutur. Göründüyü kimi, bu inanclar vasitəsilə xalq müdrikləri şagirdlərə, yeniyetmə və gənclərə ekoloji mühiti, quşlar və heyvanlar aləmini qorumağı tövsiyə etmişlər.

Xalq məişətində bir çox ev heyvanları – qoyun, öküz, at, toyuq və s. insana qida məhsulları verir, onun maddi və təsərrüfat həyatını müəyyən qədər təmin edir. Odur ki, xalq inanclarında insanın təsərrüfat və maddi həyatına çox yaxın olan bu ev heyvanlarının qorunması ideyası ekoloji tərbiyənin mərkəzində dayanır. Bu haqda olan xalq inanclarından bir neçəsinə nəzər salaq:

–"Əriştə kəsəndə kündələrdən birini saxlayallar, öküzə yedirəllər ki, o, cəfakeşdir. Taxılı əkib. Ona görə də öküzün payını mütləx verəllər. İndi bunu toyuxcücəyə verillər" (13, s.22).

–"Çörəyin üstünə öküz ətindən başqa heç nə qoymazlar. Çünki insanla bərabər zəhməti o da çəkir" (13, s.22).

–"Kimin həyətində qoyun varsa, hər gecə onun üstünə yeddi dəfə nur gələr. Qoyunun yiyəsi pak adam olmasa, nur evin dövrəsini fırlanıb qayıdar" (13, s.17).

–"Bir heyvan itəndə qurdun ağzını bağlayıllar ki, ona dəyməsin. Amma heyvan tapılanda gərək qurdun ağzını açasan. Yoxsa günahdı, qurd aj qalar" (13, s.17).

Məlum olduğu kimi, xalq təfəkküründə və inamlarında at ucalıq və muraddır. Bu inamla əlaqədar olaraq



milli folklorumuzda atla bağlı süjetlər yaradılmış, bu süjetlərdə at məişətdə uşaqlara şəfa gətirən, diribaşlıq aşılayan qüvvə kimi səciyyələndirilir. Bu haqda aşağıdakı xalq inancında deyilir: "Bizim kənddə at heykəlləri var. Qara daşdandır. Uşaxları aparıb bu atların üstünə mindirərik ki, diribaş olsunnar. Xəstə uşaqları bu atların qarnının altından keçiririh ki, şəfa tapsınnar" (13, s.17).

Naxçıvan xalq inanclarında heç bir təbiət hadisəsinin, ağaclar, bitkilər, heyvanlar və quşlar aləminin adı təsadüfi olaraq çəkilmir. İnanclarda verilən təbiətlə bağlı hər bir süjetin ifadə etdiyi tərbiyəvi ideya və onun obyekti insanın yaşam tərzi ilə bağlı və insanla vəhdətdə olduğundan təbiət kultuna qayğı, onu bəsləmək və qorumaq ekoloji tərbiyənin əsas komponenti kimi verilir.

"Şahın üzüm bağı" adlı bir rəvayətdə ekoloji mühitə xidmətin zəruriliyi ideyası ilə qarşılaşırıq. Bu rəvayətdə deyilir ki, keçmiş əyyamlarda "bağ-bağat içərisində üzüm bağını kəsmək, becərmək yox imiş. Bir padşahın da göz işlədihcə üzüm bağları var idi. Amma barı olmurdu. Elə olur ki, bir gün qış bərk gəlir. Şahın qoyun sürüsünün otu, yemi qurtarır... Şah görür sürü acınnan qırılacax. İstiyir sürünü qonşu şahlardan birinə satsın. Şahın bir vəziri var idi. Onun məqsədini bilib deyir:

–Qibleyi-aləm, sürünü satıb damazlığı kəsmə.

Şah deyir:

–Vəzir, nətər eliyim? Başqa çarə yoxdu.

Vəzir deyir:

–Nökərlərə əmr ver, sürünü aparıb üzüm bağlarını otarsınnar" (13, s.55).

Şahın əmri ilə sürülər üzüm bağlarına aparılır. Qoyun-quzu kötükləmiş üzüm bağlarının bütün şivlərini yeyib qurtarırlar. Sürü yaza çıxır. Novruz bayramından sonra yaz gələndə kötükləri qalmış üzüm bağları təzə pöhrələr verir. Bu pöhrələr o qədər bar gətirir ki, üzümü yığıb-yığışdırmaq olmur.

"O vaxtlar da ağıllı adamnar var idi. Gəlib baxırlar, deyirlər gərək hər il bağı kəsəh, yoxsa barı olmaz. O vaxtdan bınnar başlıyır bağları kəsməyə. Bı üzüm bağı ki, deyirəm, elə o vaxtdan olur. Bağı kəsmək də o vədədən qalır" (13, s.55).

Bü süjetlə xalq müdrikləri etnopedaqoji mövqedən çıxış edərək ekoloji mühitə, təbiətə qulluq etməyin zəruri olduğunu, bunun insanın maddi rifahı üçün xeyirli və əhəmiyyətli olmasını ekoloji tərbiyənin qarşısında duran əsas tərbiyəvi ideya kimi ümumiləşdirmişlər.

Xalq inanclarında ekoloji tərbiyə ilə bağlı olaraq təbiətə gözəllik verən ağaclar, bitkilər, heyvanlar və quşlar aləmini qorumaq istəyi də ifadə olunur. Çünki inanclarda öz əksini tapan "Ekoloji düşüncənin tərkibinə insanın təbiəti, ətraf mühiti qorumaq, qanunları pozanlara qarşı fəal mübarizə etmək meylləri də daxildir" (37, s.452). İnsana mənəvi zövq verən təbiəti və ekoloji mühiti sevən "...xalqımız özünün bir çox yasaqları ilə təbiətin qorunmasını zəruri hesab etmiş, bir çox ağacların



(zeytun, əncir, dağdağan, çinar və s.) kəsilməsini, qaranquşa, göyərçinə daş atılmasını... və s. qadağan etmiş...(37, s.383) və bunu ekoloji tərbiyənin mərkəzi mövzusuna çevirmişlər.

Ağac kultu ilə bağlı inanclarda da ekoloji mühitin qorunması tərbiyəsi əsas yer tutur. Aşağıdakı xalq inanclarında da ağac kultu ilə bağlı mühiti qorumaq tərbiyəsi aşılanır:

–"Meyvə gətirən ağacı kəsməh günahdı. Ağacı kəsəndə ağaş əyəsi insana zərər toxuyar" (12, s.38).

–"Çinarı kəsmək günahdı" (12, s.35).

–"Dağdağanı kəsməh, qırmax günahdı, adamı qarğıyar, zərəl çəkər" (13, s.18).

–"Düyünün suyunu barlı ağacın dibinə tökəllər" (13, s.25).

–"Alça ağacı sınanda qış bərk gələr" (13, s.26).

–"Bar verməyən ağaca qırmızı bağlarlar" (13, s.27).

Bu xalq inanclarında da ekoloji mühitə qayğı, təbiətin gözəlliklərini qorumaq tərbiyəsi aşılanır. Xalq təfəkküründən gələn və ekoloji mühitin qorunmasına yönələn bu tərbiyə motivi Naxçıvan folklorunun mərkəzi mövzularından olub ekoloji tərbiyənin mərkəzində dayanır.

Ağac kultu ilə bağlı Naxçıvan xalq inanclarında bəzən ekoloji tərbiyə mənəvi tərbiyə ilə vəhdətdə verilir:

–"Gəlinin şalını meyvəli ağacın başına atallar ki, gəlin oğullu-qızlı olsun" (12, s. 33).

Bu xalq inancında oğlan evinin evə gələn gəlinə oğul-uşaq arzulaması inamı mənəvi tərbiyə ilə ekoloji tərbiyənin vəhdəti əsasında ifadə olunmuşdur.

Maraqlıdır ki, bu xalq inancında ekoloji tərbiyə simvolundan, yəni meyvəli ağac atributundan istifadə olunmuşdur. Barlı ağaca inam, bar verən ağaca müqəddəs münasibət və onu ekoloji mühitin bir parçası kimi qorumaq tərbiyəsi bu xalq inancında qabarıq verilmişdir. Xalqın müdrik tərbiyəçiləri evə gələn gəlinin şalının quru ağacın deyil, meyvəlli ağacın başına salınmasını tövsiyə etmişlər ki, meyvəli ağac bar verdiyi kimi, evə-ocağa gələn gəlin də sonsuz olmayıb, barlı ağac kimi bar versin, yəni oğul-uşaq sahibi olub nəsil artırsın.

Naxçıvan folklorunda təbiət kultu ilə bağlı ekoloji mühiti, bitkilər və ağaclar aləmini, yaşıllığı qorumağın zəruriliyi ideyasını aşılamaq məqsədi ilə xalq inanclarında əfsanəvi süjetlər də yaradılmışdır. Bu süjetlərdə ağac kultu insanilәşdirilmiş və müqəddəsləşdirilmişdir.

"Yalqız ağac" adlı xalq inancında təsvir olunur ki, "...keçmişdə Ordubadın Nüsnüs kəndində gözəlliyilə aləmə səs salan sərv boylu bir qız var imiş. Qızın qumral gözləri, qapqara uzun saçları çox cavanların canına od salıbmış. Ancaq qızın ürəyinə yatanı olmadığından heç kimə razılıq vermirmiş.

Bir gün varlı bir bəy qızın gözəlliyini görüb ona elçi göndərir. Qız ona da razılıq vermir. Bundan qəzəblənən bəy and içir ki, o qızı ya zorla alacaq, ya da ona elə bir divan tutacaq ki, ölüncə dadı damağından



getməyəcək. Bəy nökər-nayıbını da başına yığıb kəndə gəlir. Bu xəbəri eşidən qız baş götürüb dağlara qaçır. Bəy də adamlarıyla qızın arxasınca dağlara gedir. Qızı tuta bilməyəcəyini görən bəy ox atıb onu ağır yaralayır. Çox qan itirib taqətdən düşən qız Nüsnüsün başı üstündəki dağda bir annığa dayanır, yarpaq kimi saralan üzünü sonsuz göylərə tutub Allahdan aman istəyir. Zavallı qız azğın bəylə onun adamlarının gözləri önündə "Yalqız ağac"a dönür" (12, s.75).

Göründüyü kimi, əfsanənin məzmunu ekoloji mühitlə, ağac kultu ilə əlaqələndirilmiş və ağacın müqəddəsliyi, onun qorunmasının zəruriliyi ideyası verilmişdir. Bu ekoloji ideya əfsanənin sonluğunda belə vurğulanır: "Sonralar camaat uzun müddət "Yalqız ağac"a sitayiş etmişdir. Altında tonqal qalamış, qurban kəsmişlər.

Öz qəmli görkəmiylə adamı heyrətdə qoyan "Yalqız ağac" nə quruyur, nə böyüyür, nə də solur. Həmişə yaşıl qalır. Onun yarpağını qoparmaq, budaqlarını kəsmək, sındırmaq olmaz. Guya "Yalqız ağac"ın yarpağını, ya da budağını qırsan, həmən yerdən qan axar".

Maraqlıdır ki, əvvəli gözəl qız, sonu isə yaşıl ağac kimi təsvir olunan və bir-biri ilə vəhdətdə verilən bu iki insan və təbiət kultları əfsanədə estetik tərbiyə ilə də əlaqələndirilmişdir. Belə ki, sərv boylu və qumral gözlü bu qızın gözəlliyi hamını (insanı) valeh edir. Bu estetik təsvirlə xalq pedaqogikasının nümayəndələri belə bir simvolik, ekoloji və estetik tərbiyə fikri irəli

sürmüşlər ki, insan gözəl olduğu kimi, ona estetik zövq və ləzzət verən təbiət də, bitkilər və ağaclar aləmi də gözəldir, bu gözəlliyi qorumaq isə hər bir insanın müqəddəs borcudur.

Xalq inanclarında təbiətə, heyvanlar və bitkilər aləminə insanı xətərlərdən qoruyan mənəvi bir qüvvə kimi də baxılır. Naxçıvan inanclarının birində deyilir: "Qırxlı uşağa dovşan tükü, dağdağan, üzərliy vırıllar ki, ona nəzər işləməsin. Başının altına sarımsax, iynə, çörəh qoyullar ki, sədəmə toxunmasın" (12, s.39).

Göründüyü kimi, bu inanclarda təbiət, heyvanlar (dovşan) və bitkilər (üzərlik, dağdağan və sarımsaq) insanilәşdirilmiş və insanı bədnəzərdən qoruyan bir qüvvə, insanın tərəfmüqabili kimi verilmişdir.

Folklorda əsas yer tutan ekoloji tərbiyədə bəzən təbiət kultu ilə insan kultu bir-biri ilə vəhdətdə götürülür. Bu prinsip ağac kultu ilə bağlı Naxçıvan inanclarında da özünü göstərir və bəsit süjet üsulunda verilir. Aşağıdakı inancda deyilir:

"Ağacların öz sahibinə yas saxlaması olur. Bir nəfər dünyasını dəyişəndən sonra onun həyətində olan ağac və ya ağaclar qurumağa başlayır, yaxut da bar vermir. Onda deyirlər ki, ağac yas saxlayır onu yasdan çıxarmaq gərəkdir. Bu zaman ağaclara həna yaxırlar, yaxud qırmızı lent baglayıllar.

Bar verməyəndə ağacın dibinə şirin çay və şirin su töküb deyirlər: "Mən üzə çıxdım, sən də çıx" (12, s.35).



–"Soyuq münasibətdən ağacların küsməyi də olur. Bu zaman şirin sözlərinən onların gərək könlünü alasan" (12, s.36).

Göründüyü kimi, bu inanclarda təbiəti özü ilə vəhdətdə götürən insan onu özünün bir tərəfi, dogması, sanki qan qohumu kimi mənalandırmışdır. Belə ki, ağaclar da sahibi olduğu insanın ölümünə yas saxlayır, quruyur və yaxud bar vermir. İnsan isə ağacı əzizləyir, dibinə şirin su tökür, budağına qırmızı bağlayır, onu yasdan çıxarır. Beləliklə, bu cür folklor nümunələrində təbiət kultu ilə insan kultu vəhdətdə götürülərək birləşdirilir ki, bu da insanın təbiətə bağlılığı, ona olan sevgisi kimi mənalandırılır və ekoloji tərbiyə motivi kimi təzahür edir.

Ekoloji mühitdə bitkiləri və ağacları müqəddəsləşdirib qorumaq, onları kəsib dağıdanlara qarşı mübarizə aparmaq Naxçıvan inanclarında ekoloji tərbiyə motivi kimi ön plana çəkilir. Ağac kultuna inam və onun mühafizə olunması tərbiyəsinin gənc nəslə aşılanması bəzən xalqın müqəddəs saydığı pirlərlə əlaqəli şəkildə verilir ki, ekoloji mühitin qorunmasına olan inam hissi daha da qüvvətlənsin. Bu baxımdan aşağıdakı xalq inancı daha xarakterikdir:

–"Bir oğlan gedib Buğukər pirinin yanındakı ağacların birini kəsir. Görür ki, ağacın kəsilən yerindən qan damır. Qorxudan oğlanın dili tutulur. Oğlanı aparıb baxıcıya göstərirlər. Baxıcı deyir ki, oğlan günaha batıb, aparın Buğukər pirində qurban kəsin.Buğukər pirində

qurban kəsillər.Oğlanın dili açılır" (13, s.17).

Naxçıvan xalq deyimlərinin digər janrlarında da təbiət kultu ilə, bitkilər və ağaclarla bağlı ekoloji süjetlər çoxdur.

"Kölgən əskik olmasın" adlı xalq hekayəsində belə bir süjetlə qarşılaşırıq:"Uzaq səfərə çıxan bir yolçu günlərlə piyada yol getməkdən yorulub əldən düşür. Dincəlmək üçün yer axtarır və nəhayət, gəlib dibi sərin sulu, qollu-budaqlı bir çinar ağacının altına çatır. Görür ki, çinarın kölgəsində sürü-sürü qoyunlar, karvan-karvan dəvələr dincəlir. Yolçu da soyunub bu bulaq suyunda yuyunur, çörəyini yeyib oradakı adamlarla hal-əhval tutur. Eşidir ki, bu ağacın dibi hamının ümidgahıdır, hamı ona pənah gətirir. Yolçu da çinarın kölgəsində istədiyi qədər dincəlir. O durub gedərkən üzünü çinara tutub deyir:

–Ey ulularm ulusu, insanların pənahı çinar! Sənə uca deyim, ucasan, qoca deyim, qocasan, deyim dibin sərin sulu, kölgəli olsun, o da var. Bilmirəm sənə necə dua edim, alqışımı necə bildirim?! Bircə onu deyirəm ki, pöhrələrin də sənin kimi uca və qoca olsun, onların da kölgəsi heç zaman əskik olmasın!" (72, s.71-72 ).

Bu süjetlə xalq pedaqoqları ekoloji mühitdə insanların ağaclara həmişə ehtiyacı olması ideyasını vurğulamış, insanın səhhəti və istirahəti üçün təbiətdə ağacların son dərəcə qiymətli və əhəmiyyətli olduğunu bildirmişlər.

Naxçıvan folkloru ilə ilgili olan xalq inanclarında ekoloji mühitdə olan dağlar, dərələr, qayalar da ekoloji



tərbiyə obyekti kimi xalqın milli yaddaşına salınmışdır. Xalq inanclarının birində Humay qayası haqqında belə bir inanc-əfsanə süjeti yaradılmışdır:

-"Deyirlər, Humay adlı bir qadın varıymış, uşağı olmurmuş. Niyyət eliyib gedir, başını bir qayanın üstünə qoyub yatır. Ondan sonra uşağa qalır. O vaxtdan o qayaya "Humay qayası" deyirlər.Camaat oraya ziyarətə gedir" (13, s.17).

Ekoloji tərbiyə ilə bağlı Naxçıvan xalq inanclarından gətirdiyimiz bu nümunələrin əksəriyyətinin məzmununda ekoloji mühitin, bitkilər, ağaclar, quşlar və heyvanlar aləminin mühafizəsi ideyası dayanır.

Azərbaycan xalq pedaqogikasında insanlarla təbiət arasında münasibətlərin tənzimlənməsi işində mühüm əhəmiyyət kəsb edən əfsanə və rəvayətlərdən ayrıca danışmaq lazım gəlir. Milli-mənəvi, ictimai fikir tariximizdə, cəmiyyətdə ekoloji şüurun formalaşdırılması və inkişaf etdirilməsində folklorun əsas janrlarından olan əfsanə və rəvayətlərin xüsusi rolu vardır. Ta qədim dövrlərdən başlayaraq insanlar təbiətin və cəmiyyətin qanunlarını mənimsəməyə çalışmış, lakin təbiət hadisələrinin əsl mahiyyətini dərk etməkdə çətinlik çəkmişlər. Ona görə də bu hadisələrlə bağlı müxtəlif əfsanələr və rəvayətlər yaratmışlar. Bu əfsanə və rəvayətlərdə isə xalqın təbiətə və cəmiyyətə olan baxışları, münasibətləri ifadə olunmuşdur.

Əfsanələrin əsas obyektində həm təbiət, həm də insan, toplu şəkildə isə cəmiyyət dayanır.

Ətraf mühitin təmiz saxlanılmasına, canlı və cansız mühitin qorunmasına hər zaman qayğı ilə yanaşılmışdır. El ağsaqqalları, müdrik ata-babalırımız və ana-nənələrimiz uzun əsrlər boyu əfsanə və rəvayətlərin məzmununda ekoloji mühitin saflaşdırılmasının zəruriliyini verməyə çalışmış və buna nail olmuşlar. Bu əfsanə və rəvayətlərdə xalq ekoloji tərbiyə sistemi yaratmışlar. Onlar yeni nəslə aşılanmasını zəruri saydıqları ekoloji tərbiyə ideyalarını əfsanə və rəvayətlərin məzmununda əbədiləşdirərək, bu ideyaları bədii şəkildə, mənəvi dəyərlər şıklində ekoloji tərbiyə nəzəriyyəsinə çevirmişlər. Xalq pedaqogikasının bu milli ekoloji nəzəriyyəsi isə əfsanə və rəvayətlər yolu ilə yeni, gənc nəslə aşılanmışdır. Odur ku, Naxçıvan folklorunun əsas janrlarından olan əfsanə və rəvayətlərin də ekoloji tərbiyə sahəsində xüsusi rolu olmuşdur.

Xalq müdrikləri kosmos və təbiət kultuna daxil olan Günəş, Ay, dağ, dərə, qaya, bulaq, toponimik yer adları və sairənin ekoloji mühitin bir komponenti kimi mühafizəsinin zəruriliyinə ehtiyac duyduqları üçün bunlarla bağlı əfsanə və rəvayətlər yaratmış və bunların müəyyən bir qismini Naxçıvanın yerli ekoloji mühiti ilə əlaqələndirmişlər.

Naxçıvandan toplanmış "Aydaş əfsanəsi"ndə (12, s.43) belə bir süjet verilir:

Ay Günə aşiq olur, onun eşqi ilə dağları, daşları gəzib dolaşır. Lakin Günü Qara div oğurlayıb əsir etmişdi və onun hər bir addımını izləyirdi. Buna bax-



mayaraq Gün hər gün çay qırağındakı mağaraya gəlib, buradan öz sevgilisi Ayı səsləyirdi. Ay da Günün səsini eşidib həmin mağaraya gəlib onunla sevişərdi.

Bir gün Qara div Ayla Günün görüşüb sevişdiklərini bilir və Günü mağarada əsir edib saçlarından asır. Bunu bilən Ay hər gün mağaraya gəlib üzünü mağaranın divarlarına söykəyir və divin yatmasını gözləyir. Div yatandan sonra Günün saçlarını açır və onunla görüşür.

Bir gün Ay yenə də mağaraya gəlib Qara divin yatmasını gözləyir. Div bunların görüşməsindən şübhələnib gecə yatmır və səhərə qədər Günün yanında oturur. Səhər Qara div mağaranın arxasından hənirti gəldiyini duyub eşiyə çıxır. Ay Qara divin gəldiyini görüb qaçır. Ay üzünü mağaranın daşlarına elə bərk söykəyib qulaq asırmış ki, üzünün bir tərəfi yapışıb daşda qalır. Qara div o gündən Ayın dalınca düşüb onu tutmaq istəyir. Eşqdən alovlanıb yanan Gün də gündüzlər uca göylərə qalxıb Ayı axtarır, Ay isə üzünün ləkəli olduğunu görub gündüzlər Gündən gizlənirdi. "Axşamlar Ay sevgilisi Günün olduğu mağaraya gəlib gecənin qaranlığında onnan xəlvət söhbət edərdi.

Bunnan hirslənən Qara div gündüzlər gah Ayı, gah da Günü tutur, onlardan görüşdükləri yeri öyrənmək istəyirdi. (Bu, Ay və Günün tutulmasına işarədir). Nə Ay, nə də Gün görüş yerlərini Qara divə deməzdilər...

Beləcə Qara divdən xəlvət yerdə Ayla Gün gecələr görüşüb sevişirdilər.

Deyilənlərə görə, indi də Ay və Gün gecələr həmin

yerdə – Aydaşda görüşüllər. Onların görüşdüyü yer isə Aygün addanır" (12, s.43).

Göründüyü kimi, bu əfsanədə Ayla Günün sevgisindən, şər qüvvə olan Qara divin bu sevgiyə düşmənçiliyindən və Ayın üzünün ləkəli olmasından söhbət gedir. İlk baxışda görünməyən, lakin daxili məzmununa vardıqda ekoloji tərbiyə ilə sıx bağlı olan bu əfsanədə xalqın ekoloji mühiti təmiz görmək arzusu ifadə olunmuşdur. Ta qədimlərdən Ayın gecələr təbiəti işıqlandırmasına və bu işığın canlı təbiətə, insana xidmət etməsinə sevgi ilə yanaşan xalq müdrikləri ayın üzərində olan ləkələri qəbul etmək istəməmiş və ekoloji mühitin, yəni bu müqəddəs planetin ləkəsini təmiz görmək arzusu ilə əfsanə yaratmışlar. Xalqın bu əfsanəyə, yəni Ayla Günün təmizliyinə sevgi motivləri daxil edib ekoloji mühitin iki planetini sevgili kimi mənalandırması da təbiət və səma kultuna olan pak münasibətdən irəli gəlmişdir. Əfsanədə yaradılan Qara div surəti isə insanın ekoloji mühitin təmizlənməsində rastlaşdığı şərin, çirkinliyin, başqa sözlə, çətinliklərin simvolu kimi verilmişdir.

Naxçıvan folklorunda ekoloji tərbiyənin məzmununa daxil olan vətən torpağının toponimik yer adları haqqında xalq tərəfindən yaradılmış əfsanələr də geniş yer tutur. Bu əfsanələrdə çox zaman ekoloji tərbiyə ilə əxlaq tərbiyəsinin əsas komponentlərindən olan vətənpərvərlik vəhdətdə verilir. Gülüstan qalasının yerləşdiyi yer haqqında belə bir xalq əfsanəsi yaradılmışdır:



"Neçə illər idi ki, Gülüstan Araza aşiqdi. O, hər gün Arazla çayın sahilində görüşərdi. Bir gün düşmən yurda hücum edir. Hamı ayağa qalxır. Araz da döyüşə gedir. Yağını qovub çıxarıllar yurddan. Döyüşənlər geri döndülər. Gülüstan allı-güllü paltarını geyib çayın sahilinə gəldi. Lakin Araz gəlib çıxmadı. Gülüstan səhərəcən onu gözlədi. Gözlərinnən axan yaş hər tərəfi suya döndərdi. Suyun əhatəsində bir parça allı-güllü yer qaldı. Deyilənə görə, o yer ilin 3 fəslində güllü-çiçəkli olur. O yeri Gülüstan adlandırdılar" (12, s.47-48) .

Göründüyü kimi, xalq müdrikləri sevdikləri vətən torpağının tarixi yerlərini əbədiləşdirmək və onu gələcək nəslin yaddaşında yaşatmaq üçün tarixi qala olan Gülüstan qalasının ucaldığı yerin toponimi ilə bağlı belə bir əfsanə yaratmışlar. Həm də maraqlıdır ki, bu əfsanədə əxlaq tərbiyəsinin komponentlərindən olan vətənpərvərlik daha qabarıq verilmişdir. Belə ki, əfsanədə Gülüstanın sevgilisi olan Araz xalqın digər igidləri kimi döyüşə gedib yağılarla vuruşur və vətəni yolunda həlak olur.

Naxçıvan xalq pedaqogikasında ekoloji tərbiyə ilə vətənpərvərlik tərbiyəsinin vəhdəti məsələsinin qoyuluşuna "Koroğlunun nal daşı" adlı xalq rəvayətində də rast gəlirik. Rəvayətin süjetində deyilir:

"Ordubadın Ələhli kəndi yaxınlığında bir dərə var. Dərənin ortasında nal daşı var.

Deyilənə görə Koroğlu düşmənlə təhbətəh vuruşur. Sonra da aradan çıxmaq istəyir. Nərə çəkib Qıratı çapır.

At quş kimi uçub dərənin o tayına düşür. Qıratın ayağının biri sal daşın üstə bərk dəyir, daşa nalın dərin izi düşür.

Həmin daşa "Koroğlunun nal daşı" deyillər" (13, s.37).

Görındüyü kimi, bu rəvayətdə Koroğlunun Qıratının nalının dərədəki sal daşın üstünə dəyib daşda iz açması Ordubadın Ələhli kəndinin ekoloji mühiti ilə bağlanmış və rəvayət realistləşdirilmişdir. Həm də bu süjetdə maraqlı cəhət burasındadır ki, rəvayətin ekoloji mühitin dağ-dərə kultunun yaddaşlara həkk edilən süjeti həm ekoloji tərbiyə ilə, həm də vətənpərvərlik tərbiyəsi ilə vəhdətdə verilmişdir. Çünki rəvayətdə həm Koroğlunun vətəni qorumaq üçün düşmənlə təkbətək vuruşu ideyası, həm də ekoloji mühitlə bağlı olan Ordubadın Ələhli kəndinin dərəsinin yaddaşlarda əbədiləşdirilməsi ideyası verilmişdir. Beləliklə, qeyd etdiyimiz kimi, rəvayətdə ekoloji tərbiyə ilə vətənpərvərlik tərbiyəsinin vəhdəti yaradılmışdır.

"Yeddi qardaş dağı" əfsanəsində də vətənpərvərlik tərbiyəsi ilə ekoloji tərbiyənin vəhdəti verilir. Əfsanədə deyilir:

"Bir kişinin boya-başa çatmış yeddi oğlu var idi. Özü də qocalmışdı, əli qılınc tutmurdu. Günnərin bir günü düşmən onnarın üstünə gəlir. Yeddi qardaş qoşun yığıb onnarın qabağına çıxır. Ancaq bunnar uşaxdı, yağılar da neçə ilin qan tökəni. Yeddi qardaşın qoşunu basılır. Qardaşlar görür ki, qoşun basıldı, yağılar yenə eli çapıb talayacaxlar. Onnar Tanrıya yalvarıllar ki, ya



Tanrı, bizi keçilməz dağa döndər, qabağı kəsəh, yağılar elimizə soxulmasınnar.

Tanrı eşidir, onnarın yeddisini də dağa döndərir. Yağılar keçməyə yol tapbıllar, qayıdıb bir yollux gedillər. Camaat o dağlara "Yeddi qardaş dağı" deməyə başlayır" (13, s.41).

Bu əfsanədə azyaşlı yeddi oğulun öz doğma vətənlərini yağılardan qorumaq şücaəti əxlaq tərbiyəsinə xidmət edirsə, onların əfsanəvi şəkildə dağa çevrilib bu yolla vətənin ekoloji mühitinin dağıdılmasının qarşısını almaları isə ekoloji tərbiyənin aşılanmasına xidmət edir.

Naxçıvan əfsanə və rəvayətlərində verilən ekoloji tərbiyə süjetlərində təbiətin ekoloji mühitinə asi olanlara, bu mühitə qarşı etinasız münasibət bəsləyənlərə qarşı cəzalandırma üsulları ilə də qarşılaşırıq. Ekoloji mühiti sevən, bu mühitin qədir-qiymətini bilən xalq tərbiyəçiləri əfsanə və rəvayətlərdə ekoloji tərbiyə üsulları yaratdıqları kimi, ekoloji mühitin düşmənlərinə qarşı cəza üsulları da yaratmışlar. Vətənin ekoloji mühiti ilə bağlı bü cür əfsanəvi süjetlərdə ekoloji mühiti sevməyənlər, təbiət kultuna asi olanlar təbiətin birbaşa özü tərəfindən cəzalandırılır.

"Gəldim-gəldim" adlı Naxçıvan xalq əfsanəsində belə bir süjetlə qarşılaşırıq:

"Deyilənnərə görə, bu dağdan iniltiyə bənzər səs gəlirmiş. Sanki "gəldim, gəldim" deyirmiş. Bir gün bir gəlin tezdən durup gedir tövləyə inəyi sağmağa. Yenə

gəlinin qulağına həmin səs gəlir: "gəldim-gəldim". Bu vaxt inək bəddiy eliyir, gəlin bilmir inəyə əsəbləşsin, yoxsa gələn səsə.

Üzünü tutur qayalığa, qışqırır:

– Əşi sən də, gəlirsən gəl də, cəhənnəmə gəl, gora gəl!

Elə bu vaxt dağ uçur, kənd yerlə yeksan olur, gəlin də, inək də daşların altında qalır. O kəndin xarabalıxları Nəsirvazla Bistin arasındadır" (13, s.41).

Göründüyü kimi, bu əfsanədə Ordubadın Nəsirvaz kəndi ilə Bist kəndi arasında olan bir xarabalıqdan söhbət gedir. Xalq müdrikləri Ordubadın ekoloji mühitində nə vaxtsa biganəlikdən xarabalığa çevrilmiş bu yeri gördükdən sonra ekoloji mühitin gözəlliyini pozan, ona çirkinlik gətirən bu xarabalığın ekoloji mühitə yabançılığını və onun abadlaşdırılmasının zəruriliyini yeni gələn gənc nəslə aşılamaq üçün belə bir əfsanə yaratmış və bu əfsanə ilə ekoloji mühitin saflaşdırılmasını və abadlaşdırılmasını zəruri hesab etmişlər. Xalq bu zərurəti qəbul etməyənlərin cəzasını vermək istəmiş, həmçinin bu öyüdləri yerinə yetirməyənlərin nə vaxtsa cəzaya məruz qalacaqlarını bildirmişdir.

Naxçıvan əfsanə və rəvayətlərində bəzən ekoloji tərbiyə süjetləri ilə əmək tərbiyəsi süjetləri də əlaqəli şəkildə verilir. Bu xüsusiyyətə daha çox heyvanat kultu ilə bağlı olan süjetlərdə rast gəlirik.

Məlumdur ki, qarışqalar ekoloji mühitdə daha çox



zəhmətsevər, il boyu zəhmət çəkib qışa tədarük görən canlılar aləminin nümayəndəsidir. Ta qədim dövrlərdən başlayaraq qarışqanın əməyi və qənaətcilliyi haqqında müxtəlif rəvayətlər yaradılmış, hətta Süleyman peyğəmbərlə qarışqanın əhvalatı ibrətamiz rəvayət kimi yazılı və şifahi ədəbiyyatda yayılmışdır (86, s.321-322 ).

Gənc nəslə əmək tərbiyəsi aşılayan xalq müdrikləri ekoloji mühitin "əmək qəhrəmanı" olan qarışqa haqqında da Naxçıvan folklorunda belə bir rəvayət yaratmışlar:

"Qarışqalar çox xəsis heyvannar olduxlarınnan heç bir heyvanı özlərinə yaxın bilməzlər. Ancaq mənənə adlı heyvanı onnar qonağ edəllər. Onu çox yaxşı qonağ edib, yaxşı münasibət göstərərmişlər. Onnarın yenə də bu işdən xeyiri var imiş. Onnar mənənəni yaxşı bəslədihdən sonra bığcıxları ilə onun qarnını qıdıxlıyıllar və mənənə yediyi yeməyi qaytarır. Rəvayətə görə, mənənənin qaytardığı yeməh qarışqaların ən ləzzətli yeməhləri hesab olunur" (13, s.32).

Təbiətə xüsusi gözəllik və yaraşıq verən ayrı-ayrı quşların qorunması, onların nəslinin artırılması ideyası ekoloji tərbiyənin mərkəzində dayanan əsas tələblərdəndir. Naxçıvan əfsanə və rəvayətlərinin süjetlərində bu etnopedaqoji tələb gözlənilir və ayrı-ayrı quşların təbiətdə mühafizəsi ideyası əfsanəvi süjetlərin bədii fonunda verilir. Təbiətin ən gözəl və insana zövq verən quşlarından olan kəklik haqqında belə bir xalq əfsanəsi yaradılmışdır:

"Qədimlərdə çox gözəl, ağıllı, namuslu bir qız varmış. Bu qız əmisi oğluna adaxlı imiş.

Qızın toy günü olur. Onun əl-ayağına xına qoyullar. Hamının başı həyət-bacada toy işlərinə qarışır. Qız təkcə yengə ilə evdə oturubmuş. Bu vaxt çoxdan bəri qızı izləyən başqa bir oğlan öz dəstəsilə içəri girir. Yengənin əl-ayağını, ağzını bağlıyıb yerə yıxıllar. Qızı da götürüb dağlara qaçıllar.

Qız nə qədər dartınır, qışqırır, yalvarır, ona qulaq asan olmur. Hər yerdən əlacı kəsilən, əli üzülən qız üzünü göyə tutub deyir:

Tanrı, məni quş elə,
Qanadı gümüş elə.
Eldə rüsvay eləmə,
Dağda günüm xoş elə,
Daşlara yoldaş elə.

Qız bunu deyən kimi dönüb kəklik olur, pırıltı ilə uçub çəmənniyə düşür" (13, s. 32).

Göründüyü kimi, bu xalq əfsanəsində ekoloji mühitin, təbiət kultunun bir atributu kimi verilən kəklik quşu insan kultu ilə vəhdətdə götürülmüş, hətta eyniləşdirilmişdir. Belə ki, əvvəlcə insan olan adaxlı qız sonra kəkliyə çevrilmişdir. Beləliklə, müdrik xalqın nümayəndələri ekoloji mühitdə quşlar aləminin qorunması ideyasını vermək üçün əfsanəvi də olsa, gənc nəslə belə bir ekoloji tərbiyə ideyası vermək istəmişlər: "Təbiətə yaraşıq verən kəklik mənşəcə gözəl qızdır. O, öz namusunu qorumaq üçün Allaha yalvarıb kəklik olmuşdur. Onu qorumaq zəruridir!".

Bəzi xalq rəvayətlərində ekoloji mühiti, quşlar



aləmini məhv edənlər xalq tərəfindən nifrət və qarğışla qarşılanır. Məsələn, Naxçıvan xalq rəvayətlərinin birində baharın müjdəçisi olan qaranquşun vurulması belə səciyyələndirilir:

"Qaranquşu öldürməh günahdı.Kim öldürsə, başına bir iş gələr. Qaranquş deyir ki:

Qaranquşam, qaranquş,
Qanadlarım ayrıc-ayrıc.
Məni vuran bəy oğlu,
Qan qussun ovuc-ovuc (13, s.32).

Bu xalq rəvayətində ekoloji mühitin qanunlarını pozanlar, təbiət kultuna düşmən münasibət göstərib ona zərər verənlər qaranquşun bilavasitə özü tərəfindən qarğınır və bu qarğış rəvayətdə ekoloji tərbiyənin cəzalandırma üsulu kimi təqdim olunur. Çünki xalq pedaqogikasında əsaslandırılır ki: "Təbiətə böyük diqqət yetirilməlidir. Ona görə də canlıları məhv edənləri bağışlamaq olmaz" (90, s.27). Beləliklə, xalq rəvayətində bir tərəfdən ekoloji mühitin qorunmasının zəruriliyi ideyası verilirsə, digər tərəfdən də ekoloji mühiti pozanlara, onu dağıdıb məhv edənlərə qarşı cəzalandırma (qarğış) üsulu tətbiq edilir.

Azərbaycan folkloruna aid elmi tədqiqatlardan məlumdur ki, ilan totemdir. Qədim insanlar təbiət qüvvələrinə qalib gələ bilmədikdə bu qüvvələrin müəyyən bir qismini öz iradələrinə tabe etdirmək üçün bəzən onları müqəddəsləşdirmiş və totemləşdirmişlər. Odur ki, xalq yaradıcılığında totemizm həm bitkilər və ağaclar,

həm də quşlar və heyvanlar aləminə aiddir. Xalq əfsanə və rəvayətlərində bu cür totemlərdən biri də ilandır. Qədim insanlar ilanın zəhəri (insanı öldürən tibbi əlaməti) haqqında elmi biliklərə malik olmadıqları üçün qəbilə üzvlərinin ilan tərəfindən öldürülməsinə fövqəltəbii əlamət kimi inanmış, buna görə də ilandan ilahi qüvvə kimi qorxduqları üçün onu müqəddəsləşdirərək totemləşdirmişlər. Lakin təbabətin inkişaf etdiyi sonrakı dövrlərdə ilan zəhərinin tibbi xeyiri, onun müalicəvi xüsusiyyəti məlum olduqdan sonra ilan nəslini qorumaq ekoloji tərbiyənin qarşısında duran ən mühüm vəzifəyə çevrilmiş, xalq əfsanə və rəvayətlərində ilanla bağlı tərbiyəvi süjetlər yaradılmışdır.

Naxçıvan folklorunda "Qırxlar dağı" adlı bir əfsanədə oxuyuruq: "Qədim zamanlarda bu yerlərdə çox məğrur insanlar yaşıyırdılar. Bir gün düşmən qoşunnarı bu yerlərə ayaq basdı. Dedilər ki, təslim olsunnar. Əhali qərara gəldi ki, təslim olmasınnar. Çoxu dağa çıxdı, çıxa bilməyənnəri əsir aldılar. Əsirləri öldürdülər. Dağdakılar gözləyirdilər ki, ətraf qalalardan köməh gəlsin.

Ərzaq tükənirdi, bir qurtum belə su qalmamışdı. Burada ilan çox idi. Adamnarı gözdən qoymurdular. Adamnar da elə bilirdilər ilannar onnara xəsarət yetirmək istiyir. Sonra gördülər ki, yox, ilannar onnarı qoruyullar. İlannarın başçısı dağdan aşağı sürünməyə başladı. İlannarın hücumunu görən düşmən qaçdı. Dağın ətrafı azad edildi. Dağa qalxannar gördülər ki, qırx igid həlak olub. O günnən sonra bu dağ "Qırxlar dağı" adlandırılır" (13, s.33).



Göründüyü kimi, bu əfsanədə bir tərəfdən ilana olan xalq inamı, digər tərəfdən də dağ kultu ekoloji tərbiyənin iki komponenti kimi verilmiş və "ilan insanın dostudur" ideyası ekoloji tərbiyə anlayışına çevrilmişdir. Həm də ilan ekoloji mühitin atributu olan vətən torpağının qoruyucusu kimi verilmişdir.

İlanı insanın düşməni hesab etmək, onu öldürmək ekoloji mühitə zidd təsəvvür kimi "İlan əfsanəsi"ndə də verilir. Bu əfsanədə deyilir:

"Bir oğlanın sevgilisin ilan çalır. Oğlan and içir ki, bütün ilanları qıracax. O, dəmir paltar geyinir, əlinə dəmir dəyənəh alır, düşür çöllərə, qabağına nə qədər ilan çıxırsa, hamısını öldürür. Oğlanın bu hərəkəti ilannarı qorxudur. İlannar gedib öz padşahlarına şikayət edillər. İlannar padşahı əmr edir ki, oğlanı onun hüzuruna gətirsinnər. Oğlan yenə ilanın dalına düşüb öldürməh istiyir. İlan gəlir padşahın yuvasına və oğlanı ilannar padşahına göstərir. İlannar padşahı dilə gəlib oğlanın niyə belə elədiyini soruşur. Oğlan andını söylüyür. Əlindəki dəyənəhlə ilannar padşahını öldürməh istiyir. Padşah deyir: – Əl saxla. Sən ilannarın hamısının nəslini kəsə bilmərsən. Sonra da bir böyüh ilan çağırır, oğlannan döyüşdürür. İlan oğlanı öldürmək istiyəndə padşah dayanmasını əmr edir. Oğlan peşman olur, başa düşür ki, andını yerinə yetirə bilməyəcəh" (13,s.45-46).

Ekoloji mühitdə ilanların qorunması ideyasını əks

etdirən bu əfsanədə ilana düşmən olan və ilanları qırıb məhv etmək mövqeyində dayanan insan öz intiqamının müqabilində ilanlar padşahının mərhəməti ilə qarşılaşır. İlanlar padşahı insanı ölümdən qurtarır. Bu mərhəmət nəticəsində insan öz səhvini başa düşüb pis əməlindən peşman olur. Beləliklə, əfsanədə təbiətin ekoloji mühitinə zərər vermək istəyən insanı ilan tərbiyələndirir və ekoloji tərbiyə ilanlar padşahının vasitəsilə aşılanır.

Ekoloji mühitdə ilanların zəhərli olması ilə bərabər, onların zəhərinin təbabətdə şəfaverici əhəmiyyətə malik olması və buna görə də ilanların təbiətdə qorunmasının zəruriliyi ideyası "İlan şəfası" adlı mifdə də öz əksini tapmışdır. Mifdə oxuyuruq:

"Bir şahın oğlu xəstə idi. Nə qədər loğman gəlir, dərdinə əlac edə bilmir. Loğmanlardan biri deyir ki, buna əlac yoxdur. Çox çəkməz, ölər. Bunu eşidən oğlan baş götürüb diyarbədiyar gedir. Gedib bir çobana rast gəlir. Ondan süd istəyir. Çoban bir çanaq süd sağıb oğlana verir. Oğlan südü bir daşın üstünə qoyur. Bu vaxt daşın altından bir ilan çıxır, oğlanın başı qarışanda südü zəhərləyir. Sonra daşın altına girir. Oğlan südü içib gedir. Yolda yenə həmin loğmana rast gəlir. Loğman deyir:

–Oğlum, hara gedirsən?

Oğlan cavab verir:

–Dərdimə əlac yoxdu, baş alıb gedirəm.

Loğman deyir:

–Oğlum, sən sağlamsan, qayıt evinizə.



Oğlan inanmır.

Loğman deyir:

–Bir ilan səni sağaldıb.

Oğlan deyir:

–Bu necə ola bilər?! Mən ilan-zad görməmişəm.

Loğman deyir:

–İlan sənin gözünə görünməyib. Çobandan aldığın südü xəlvəti zəhərləyib. Sən də bilmiyib içmisən. O da sənə şəfa verib.

Oğlan gördü loğman deyən düzdür, şəfa tapıb, sevincək evlərinə qayıtdı" (11, s.37-38).

Bu süjetlə xalq müdrikləri ekoloji mühitdə heyvanat aləminin qorunmasının vacibliyi ideyasını vermişlər.

"Tilsimli ilan" əfsanəsində də heyvanat kultu ilə bağlı olan ilanın insana zərərli olmaması, əksinə, insana "xoşbəxtlik gətirməsi" ideyası verilir. Bu ideya əfsanədə ekoloji tərbiyənin süjeti kimi belə verilir:

"Belə deyirlər ki, Ölən şəhərdə tək bir kişi varmış. Bu kişi hər dərdin dərmanın, hər tilsimin sirrin bilirmiş. Kişi qocalır, ölüm vaxtı gəlib çatır. Ölüm yatağında gözünün ağı-qarası bircə qızını yanınıa çağırıb deyir:

–Qızım, mən ölürəm. Məndən sonra sənə yaşamaq çətin olacaq. Ona görə mən deyənə əməl edərsən. Bizim zirzəmidə bir ilan var. Əlini üç dəfə ilanın qarnının altına çəkərsən. Gedib ondan sonra hər şeyin sirrini biləcəksən. Xoş güzəran keçirəcəksən.

Kişi ölür. Qız atasını dəfn edir, zirzəmiyə gəlir. İlanı görüb qorxur, istəyir qaçsın. Bu vaxt ilan arxası

üstə çevrilir. Qız özündən asılı olmayaraq gedib əlini üç dəfə ilanın qarnına çəkir. O gündən qız hər şeyin sirrini bilir, xoşbəxt ömür sürür" (11, s.38-39).

Bu əfsanədə də təbiətdə ilanın insana xeyirxahlığı və onu qorumaq ideyası verilir. Bu ideya təbiət hadisələrini, ilanları insanlara yaxınlaşdırır.

Ekoloji tərbiyənin tələbi kimi, təbiətdə ilanların qorunması ideyasının təbliği Naxçıvan xalq nağıllarında daha müfəssəl şəkildə öz əksini tapır.

"Kişi və ilan" nağılında yaşlı bir qoca ilə ilanın dostluğundan bəhs olunur. Kəvşəndə biçin biçən bir qoca yaxınlıqdakı bulağın sərin suyundan ayran düzəldib içir, sonra da camın dibində qalan ayranı bir ilan gəlib yalayır. Bu minvalla hər dəfə qoca biçinçi içdiyi ayrandan ilana da verir. Biçinçinin bu yaxşılığı müqabilində hər dəfə ilan ayranı içdikdən sonra qocanın camına bir ləl salır.

Bir gün qoca biçinçi xəstələnir və oğluna deyir ki, mənim ömrümə az qalıb. Dünyadan köçəcəyəm. Mənim bir ilan dostum var. Apar o ilana ayran ver, əvəzində sənə ləl verəcək, sən həmin ləllə dolanarsan.

Oğlan ilanın yuvasına gəlir. Camda ona ayran verir, ilan da əvəzində oğlana ləl verir. Lakin oğlan nadürüstlük edib ilanın quyruğunu vurub qırır. İlan da qəzəblənib oğlanı çalıb öldürür. Atası oğlunun qayıtmadığını görüb onun arxasınca gedir və görür ki, oğlunu ilan öldürüb. Buna baxmayaraq qoca yenə də ilana yaxşılıq edib ona ayran verir. Lakin ilan dil açıb deyir ki, daha səninlə



mənim dostluğum tutmaz. Səndən oğul yarası, məndən də quyruq yarası getməz (13, s.147).

Bu kiçikhəcmli nağılda yetişən nəslə təbiətə, heyvanlar aləminə qayğı göstərmək ideyası aşılanmışdır. Nağılda verilən əsas ekoloji tərbiyə ideyası belədir: İnsan nə qədər təbiəti, heyvanlar aləmini sevib ona qulluq və yaxşılıq edərsə, bunun müqabilində təbiət də ona öz nemətlərini əsirgəməyəcəkdir. Bu ideya nağılda qoca biçinçinin ilana verdiyi ayranın müqabilində ilanın ona ləl verməsi süjetində ifadə olunmuşdur. Lakin nağılın sonluğu "təbiəti sevməyənlərin, onu qorumayanların aqibəti pis olar" ideyası ilə tamamlanır. Bunun üçün xalq müdrikləri nağılda iki cür insan obrazı yaratmışlar. Bunlardan biri təbiəti, heyvanat kultunu sevən və onun qayğısına qalan qoca biçinçi, digəri isə qoca biçinçinin təbiətə, heyvanlar aləminə düşmən münasibət bəsləyən nankor oğludur. Mənəvi və ekoloji tərbiyəcə naqis olan bu oğlan, ilanın hər dəfə ona yaxşılıq edib ləl verməsinə baxmayaraq, vurub onun quyruğunu qırır və təbiət kultuna zərər verir. Bunun müqabilində isə öz əməlinin cəzası olaraq ilan tərəfindən öldürülür. Əslində oğlanın bu cür ölümü nağılda təbiət kultunun təbiəti sevməyənlərə cəzası və belələrindən qisas alması kimi mənalandırılmışdır.

Bu süjetlərdə xalq müdrikləri demək istəmişlər ki, ekoloji mühiti, təbiəti və heyvanlar aləmini qoruyun ki, bu mühit sizə öz nemətlərini səxavətlə versin.

Bütün bunlar deməyə əsas verir ki, Naxçıvan

folkloru nümunələrində ətraf mühitin qorunması etnopedaqoji dəyərlər kimi mövcud olmuş və pedaqoji fikir tarixini zənginləşdirmişdir. Bölmədə deyilənlərdən bu nəticəyə gəlmək olar:

–Naxçıvan folklorunun xalq inancları, xalq hekayətləri, rəvayətlər, miflər, əfsanələr kimi nümunələrində ekoloji tərbiyənin yeri və şəxsiyyətyönümlülük baxımından əhəmiyyəti böyükdür.

–Naxçıvan folkloru nümunələrində suya, küləyə, oda, günəşə, aya, ulduzlara olan inanclar insanların dağlara, düzlərə, yaşıllıqlara, bulaqlara, gül-çiçəyə, quşlara və heyvanlara ekoloji tərbiyə mövqeyindən yanaşmasını təmin etmişdir.

–Naxçıvan folkloru nümunələri zəngin tərbiyələndirici mənbə kimi yeni yetişən gənc nəslə təbiət kultuna qayğı hissinin və ekoloji tərbiyənin aşılanması baxımından müstəsna pedaqoji dəyərə malikdir.



# NƏTİCƏ

Hər iki fəslin tədqiqatdan aldığımız nəticələrini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

Naxçıvan folkloru nümunələri xalq yaradıcılığının tərbiyəvi materialları olmaqla Azərbaycan məktəb və pedaqoji fikir tariximizi zənginləşdirir, xalqımızın milli-mənəvi dəyərləri kimi yetişən nəslin tərbiyəsində mühüm rol oynayır.

Azərbaycan folklorunun ən mühüm tərkib hissəsi olan Naxçıvan folkloru əsrlər boyu nəsildən-nəsilə, dildən-dilə, ağızdan-ağıza keçərək xalqın mənəvi dünyasının zənginləşməsinə kömək etmiş, ən dəyərli etnopedaqoji materiallar səviyyəsinə yüksəlmiş və yetişən nəslin tərbiyə vasitəsinə çevrilmişdir.

Naxçıvan folklorunun laylalar, oxşamalar, atalar sözləri, məsəllər, alqışlar, qarğışlar, holavarlar, sayaçı sözləri, bayatılar, miflər, əfsanələr, rəvayətlər, əmək nəğmələri, mövsüm və mərasim nəğmələri, haxıştalar, yallılar, aşıq yaradıcılığı, o cümlədən ustadnamələr, vücudnamələr, qoşmalar, təcnislər, cığalı təcnislər, dodaqdəyməzlər, gəraylılar, müxəmməslər, deyişmələr, qıfılbəndlər, gözəlləmələr kimi nümunələri və Azərbaycan xalq pedaqogikası materialları sayılmaqla xalq tərbiyəsinin mühüm vasitəsinə çevrilmişdir.

Naxçıvan folklorunun kiçikhəcmli nümunələrində şəxsiyyətin formalaşdırılmasına təsir edən amilləri özündə təcəssüm etdirən göstəricilərin olması tərbiyə

işini stimullaşdırır. Ağılarda, laylalarda, bayatılarda, aşıq folklorunda, rəvayətlərdə, əfsanələrdə, miflərdə, nağıl və dastansayağı rəvayətlərdə tərbiyə ünsürlərinin olması həm pedaqoji fikir tarixini zənginləşdirmək, həm də müasir dövrdə yetişən nəslin nümayəndələrinin bir şəxsiyyət kimi formalaşdırılmasını təmin etmək baxımından mühüm əhəmiyyətə malikdir.

Naxçıvan folkloru nümunələrinin nadir variantlarının toplanılaraq pedaqoji prosesə təqdim edilməsi, mövcud materialların tərbiyəvi cəhətlərinin açıqlanması, aydınlaşdırılaraq təlqin edilməsi Azərbaycan pedaqoji fikrinin sanbalının artmasına öz töhfəsini verir və müasir şəraitdə şagird şəxsiyyətinin formalaşdırılmasına kömək etmiş olur.

Naxçıvan folklorunun nümunələri içərisində zövq oxşayan, təbiətdə, cəmiyyətdə, incəsənətdə olan gözəlliklərin duyulması, qavranılması və qiymətləndirilməsi bacarığını tərbiyə edən nümunələr daha çoxdur. Bayatılar, nəğmələr, bayram ənənələri, toy adətləri ilə bağlı olan nümunələr, haxıştalar, xalq mahnıları, halaylar, yallılar, fərdi-kütləvi rəqslər, oyun havaları, aşıq yaradıcılığı nümunələri yetişən nəslin estetik tərbiyəsini formalaşdırmaq baxımından böyük qüdrətə malik olduğu üçün pedaqoji fikir tariximizi zənginləşdirir və yetişməkdə olan nəslin nümayəndələrinin yeni fərd qismində tərbiyələndirilməsində xüsusi rol oynayır.

Ətraf mühitin saflaşdırılması, ağacların, bağçaların, yaşıllıqların, bulaqların, meşələrin, nadir quşların, faydalı



heyvanların qorunması ilə bağlı Naxçıvan folklorunda çoxsaylı örnəklər vardır. Bu örnəkləri toplamaq, təsnif edərək sistemləşdirmək, tərbiyə nümunələri şəklinə salmaq Azərbaycanın, o cümlədən Naxçıvanın xalq pedaqogikası materiallarının, nəzəri mənbələrinin sırasını zənginləşdirməklə yanaşı, ailədə, məktəbdə və sosial mühitdə tərbiyə işinin yaxşılaşdırılması sahəsində irəliyə atılan müvəffəqiyyətli addımlardan biri hesab olunur.

İnsanların maddi rifah halı ilə bağlı oyunlar, kütləvi rəqslər, halaylar, əmək məhsullarının yaradılmasına həsr olunan nəğmələr, holavarlar, iqtisadi inkişafı, izafi dəyəri qazanmaq normalarını özündə əks etdirən mahnılar, xorla oxu formaları, deyişmələr, xalq oyunları, yarış mərasimləri Naxçıvan folklorunun əməyə məhəbbət leytmotivini təşkil edir. Naxçıvan folklorunun belə nümunələrinin toplanması, sistemləşdirilməsi, didaktik material halına gətirilməsi, pedaqoji prosesə təqdim edilməsi yetişən nəslin estetik və ekoloji tərbiyəsinin inkişafında mühüm əhəmiyyətə malikdir.

Naxçıvanda yaranan xalq oyunlarında, kiçikhəcmli nağıllarda, qısa süjetli dastansayağı rəvayətlərdə, mövsüm və mərasim nəğmələrində, Novruz bayramı ənənələrinə həsr olunmuş deyimlərdə, xalq dramlarında, nəsihətlərdə, miflərdə və əfsanələrdə ictimai-sosial mühitdəki qanunauyğunluqlara və qanunlara, habelə təbiət qanunlarına, el-oba qınağına dair xalqın müdrik kəlamlarının araşdırılması, ipə-sapa düzülməsi, sistemləşdirilərək tərbiyə nümunəsinə çevrilməsi Azərbaycan pedaqoji

fikrinin zənginləşdirilməsi və yeni insan tərbiyəsi sahəsində qazanılan mənəvi qələbələrdən hesab olunur.

Şərur yallılarının, Naxçıvan rəvayətləri və əfsanələrinin, xalq dramlarının, xalq tamaşalarının, lentə alınmış kütləvi xorların, kütləvi rəqslərin tərbiyəvi ssenariləri yazılmış disklərinin, fotoalbomlarının filmoteka materialı kimi hazırlanması həm təlimin texniki vasitələrinin inkişafı üçün, həm də modern tərbiyə məktəbinin yaranması üçün faydalı olar.



## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Abbasov A. N. , Əlizadə H. Ə. Pedaqogika. Bakı: Renessans, 2000, 202 s.
2. Abbasov A. N. Milli əxlaq və ailə etikası. Bakı: Mütərcim, 2010, 320 s.
3. Abbasov A. N. Pedaqogika. Bakı: Mütərcim, 2010, 356 s.
4. Abbasova S. R. İncəsənət üzrə mütaliə yeniyetmələrin estetik tərbiyəsinin mühüm vasitəsi kimi. Ped. elm. nam. ... dis. avtoref. Bakı, 2012, 21 s.
5. Abdullayeva S. A. Sinifdənxaric tədbirlər yuxarı sinif şagirdlərinin milli mənlik şüurunun formalaşdırılmasının mühüm vasitəsi kimi: Ped. elm. nam. ... dis. avtoref. Bakı, 2006, 26 s.
6. Abdullayev H. X., Məsimov N. M. Ekoloji tərbiyə üzrə iş sistemi // Azərbaycan məktəbi jurnalı, 1990, №11-12, s.34-39.
7. Abdullayev H. X. , Məsimov N. M. Uşaqların ekoloji tərbiyəsi. Bakı: Maarif, 1993, 128 s.
8. Allahyarova T. B. Ekoloji mədəniyyət və ictimai tərəqqi.Bakı: Elm, 1994,172s.
9. Allahverdiyev Y. A. Orta ixtisas məktəblərində tələbələrin ekoloji tərbiyəsi: Ped. elm. nam. ... dis. avtoref. Bakı, 2005, 26 s.
10. Azərbaycan aşıqları. Bakı: Çaşıoğlu, 2004, 400 s.
11. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru.

Bakı: Sabah, 1994, 381 s.
12. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 3 cilddə, I c., Naxçıvan: Əcəmi, 2010, 511 s.
13. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru: 3 cilddə, II c., Naxçıvan: Əcəmi , 2011, 494 s.
14. Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı (Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 sentyabr tarixli sərəncamı ilə təsdiq edilmişdir). "Azərbaycan" qəz., Bakı, 2006, 29 sentyabr.
15. Babayev R. T. Naxçıvan folkloru: bəşərilik, türklük, regionallıq. Bakı: Elm, 2008, 143 s.
16. Bədəlova Ə. S. Azərbaycan xalq pedaqogikası. Bakı: Müəllim, 2009, 188 s.
17. Budaqov B. Ə. Təbiəti qoruyaq. Bakı: Maarif, 1977, 117 s.
18. Cəfərov M. C. Estetik tərbiyə, ailə və məktəb. Bakı: Maarif, 1967,133 (3) s.
19. Əfəndiyev P. Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013, 600 s.
20. Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan" qəz., Bakı, 2003, 29 yanvar.
21. Əkbərov T. S. Təbiət, insan, gözəllik. Bakı: Azərnəşr,


1966, 132 s.
22. Ələkbərov U.Y. Ekologiya dünyamızın bu günü və sabahı. Bakı: Ayna mətbu evi, 2000, 80 s.
23. Əliyeva Ş. Q., Əhmədova A. Uşaqların emosional aləminin inkişafı. Elm və təhsil, Bakı: 2010, 156 s.
24. Əliyev H. Ə., Xəlilov M. Y. Yaşıl sərvətin keşiyində. Bakı: Gənclik, 1992, 100 s.
25. Əliyev İ.İ. Azərbaycan etnopedaqogikası. Bakı: Elm və təhsil, 2009, 224 s.
26. Əliyev İ. İ. Etnopedaqoji materialların tərbiyəvi əhəmiyyəti. Bak: Azərnəşr, 1995, 96 s.
27. Əliyev İ.İ. Orta ümumtəhsil məktəblərində təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsinə etnopedaqoji materiallardan istifadənin təsiri: Ped. elm. dok. ... dis. Bakı, 2003, 333 s.
28. Əliyev İ.İ. Təlim-tərbiyə işlərində etnopedaqoji materiallardan istifadə. Bakı: Gənclik, 1997, 135 s
29. Əliyev İ.İ. Ümumtəhsil məktəblərində etnopedaqoji materiallardan istifadənin nəzəri və əməli məsələləri. Bakı: Nurlan, 2004, 272 s.
30. Əzizova L. Ə. Şagirdlərin estetik tərbiyəsində uşaq və gənclərin teatr tamaşalarından istifadəsinin pedaqoji əsasları: Ped. elm. nam. ... dis. avtoref. Bakı,1997, 20 s.
31. Əsədova N. R. İnsan ekologiyası və insan psixologiyası: qarşılıqlı təsirin dinamikası: Fəl. elm. nam. ... dis. Bakı, 2002, 128 s.

32. Əsgərov Ə. A. Məktəblilərin ekoloji tərbiyəsi. Bakı:Elm və təhsil, 2011,164 s.
33. Əsgərov Ə. A. Təbiətin mühafizəsi. Bakı: Maarif, 1983, 216. s.
34. Həmidov H. A. Azərbaycan milli oyunlarının sosial-pedaqoji mahiyyəti və tərbiyə işində onlardan istifadə: Ped. elm. nam. ... dis. Bakı, 1994, 186 s.
35. Həsənli O.Q. Şagirdlərin ekoloji tərbiyəsi. Bakı: Mütərcim, 2007, 212 s.
36. Həsənova S. Q. Ailə tərbiyəsinin səmərəli təşkilində etnopedaqoji materiallardan istifadənin imkan və yolları: Ped. elm. nam. ...dis. avtoref. Naxçıvan,2004, 24s.
37. Həsənov A. A., Ağayev Ə. A. Pedaqogika. Bakı: Nasir, 2007, 496 s.
38. Həşimov Ə. Ş. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri. Bakı: Maarif, 1970, 256 s.
39. Həşimov Ə. Ş. Azərbaycan xalq pedaqogikasından iki mühazirə. Kirovabad: Zərdabi adına Kirovabad Dövlət Pedaqoji Universiteti, 1969, 50 s.
40. Həşimov Ə. Ş. Azərbaycan xalq pedaqogikasından mühazirələr. Kirovabad: Zərdabi adına Kirovabad Dövlət Pedaqoji Universiteti, 1967, 72 s.
41. Həşimov Ə. Ş. Azəri xalq pedaqogikasının ümumi əsasları və xüsusiyyətləri. Kirovabad: Zərdabi adına Kirovabad Dövlət Pedaqoji Universiteti, 1967, 97 s.
42. Həşimov Ə. Ş., Sadıqov F. B. Azərbaycan xalq pe-



daqogikası antologiyası. Bakı: ADPU, 1996, 127 s.
43. Həşimov Ə. Ş., Sadıqov F. B. Azərbaycan xalq pedaqogikası. Bakı: Patronat, 1993, 276 s.
44. Həşimov Ə. Ş., Sadıqov F. B. Azərbaycan xalq pedaqogikası. Bakı: Ünsiyyət, 2000, 269 s.
45. Həşimov Ə. Ş. Düz sözün kəsəri. Bakı: Azərnəşr, 1966, 48 s.
46. Həşimov Ə. Ş. Gənc nəslin tərbiyəsində tarixi irsin əhəmiyyəti və onun öyrədilməsi yolları. Bakı: Bilik,1984, 35 s.
47. Həşimov Ə. Ş. Xalq pedaqogikasında tərbiyənin üsul və vasitələri. Bakı: Bilik, 1980, 37 s.
48. Həşimov Ə. Ş. Pedaqogika kursunun tədrisində xalq hikmətindən istifadə. Bakı: Maarif, 1991, 240 s.
49. Hüseynzadə R. L. Qədim və erkən orta əsrlərdə Azərbaycanda tərbiyə, təhsil və pedaqoji fikir. Bakı: Nurlar , 2007, 336 s.
50. Xəlilov V. C. Ümumtəhsil məktəblərində estetik tərbiyənin inkişafı yolları. Bakı: Maarif, 1991, 174 s.
51. Kamiloğlu Q. Heydər Əliyev ideallığı. Bakı: Nurlan, 2001, 100 s.
52. Kazımov N. M. Ali məktəb pedaqogikası. Bakı: Nicat, 1999, 340 s.
53. Kazımov N. M. Ali məktəb pedaqogikası. Bakı: Əlfərül, 2006, 392 s.

54. Kazımov N. M. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002, 448 s.
55. Kazımov N. M., Həşimov Ə. Ş. Pedaqogika. Bakı: Maarif, 1996, 416 s.
56. Qaralov Z. İ. Tərbiyə: prinsiplər, məzmun, metodika: 3 cilddə, I c., Bakı: Pedaqogika, 2003, 264 s.
57. Qarayeva N. S. Biologiya fənninin bitkilər kursunun tədrisində Azərbaycan florasının öyrədilməsi üzrə işin sistemi: Ped. üzrə fəls. dok. ... dis. avtoref. Bakı, 2013, 28 s.
58. Qasımova L. N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı: Nurlan, 2004, 220 s.
59. Qasımova L. N., Mahmudova R. M. Pedaqogika. Bakı: Bakı Universiteti, 2003, 536 s.
60. Qasımzadə F. F. Estetik zövqün tərbiyə edilməsi.Bakı: Azərnəşr,1961,23 s.
61. Qədimov Ə. N. XIX əsr Ordubad ədəbi mühiti. Qüdsi Vənəndi. Bakı: Elm, 2003, 378 s.
62. Qədimov Ə. N. XIX əsr Ordubad ədəbi mühiti. Xüsusi kurs (Ali məktəblər üçün dərslik). Bakı: ADPU, 2010, 545 s.
63. Qədimov Ə. N. XIX-XX əsrlər Azərbaycan ədəbiyyatı və Azərbaycan uşaq ədəbiyyatı fənlərindən bəzi mövzuların tədrisinə dair elmi-metodik tövsiyə və göstərişlər. Bakı: ADPU, 2011, 87 s.
64. Qədimov Ə. N. Şumerlərin "Bilqamıs" dastanı və



Azərbaycan türklərinin folkloru (Dərs vəsaiti). Bakı: ADPU, 2011, 52 s.
65. Quliyev S. D. Məktəblilərin musiqi tərbiyəsində Azərbaycan musiqisindən istifadənin nəzəriyyəsi və təcrübəsi: Ped. elm. dok. ... dis. Bakı, 1996, 322 s.
66. Mehrabov A. O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, 448 s.
67. Məmmədov İ. İ. Şagirdlərin ekoloji tərbiyəsinin forma və metodları (VI-IX siniflərdə coğrafiya və biologiya fənlərinin materialları əsasında): Ped. elm. nam. ... dis. avtoref. Bakı, 1997, 19 s.
68. Məmmədov Z. İ. Estetika və yeni insan tərbiyəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1978, 109 s.
69. Mikayılov A. H. Əməyin estetikası. Bakı: Azərnəşr, 1969, 60 (4) s.
70. Mustafayeva Y. E. Şagirdlərin vətənpərvərlik tərbiyəsində xalq pedaqogikası materiallarından istifadə: Ped. elm. nam. ... dis. avtoref. Bakı,1992, 20 s.
71. Mürsəlov İ. H. Gənc nəslin estetik tərbiyəsində musiqinin yeri və əhəmiyyəti: Ped. elm. nam. ... dis. Naxçıvan, 2006, 141 s.
72. Naxçıvanın hikmət xəzinəsindən (Toplayanlar: Bağırov Adil Nəsib oğlu, Bağırova Kamilə Adil qızı, Məmmədov Bəxtiyar Qibləli oğlu). Bakı: Nurlan, 2005, 240 s.
73. Namazov Q. M., Qədimov Ə. N. XIX əsr Naxçıvan aşıq mühiti // Azərbaycan şifahi xalq ədəbiyyatına

dair tədqiqlər. XXXIII toplu, Bakı: AMEA-nın Folklor İnstitutu, 2011.
74. Nəbiyev A. M. Naxçıvan folklor mühiti. "Azərbaycan" qəz., 2010, 10 oktyabr.
75. Novruzov T. C. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı:Elm,2007,399 s.
76. Rəsulov Z. Q. Məktəblilərin əməksevərlik tərbiyəsində xalqın əməklə bağlı mütərəqqi adət-ənənələri və fikirlərindən istifadə: Ped. elm. nam. ... dis. avtoref. Bakı, 1990, 21 s.
77. Rüstəmli T. V. V-IX sinif şagirdlərinin ailə həyatına hazırlanmasında etnopedaqoji materiallardan istifadə üzrə işin imkan və yolları: Ped. elm. nam. ... dis. avtoref. Bakı, 2006, 19 s.
78. Rüstəmov F. A., Dadaşova T. İ. Ali məktəb pedaqogikası. Bakı: Nurlan, 2007, 568 s.
79. Sadıqov F. B., Əliyeva L.Q. Didaktik oyunlar. Bakı: Ünsiyyət, 2000, 32 s.
80. Sadıqov F., Əliyeva G, Abbasov M. Ekoloji tərbiyənin etnopedaqoji əsasları. Bakı: Nurlan, 2007, 181 s.
81. Sadıqov F. B., İsmayılova M. Q. Etnopedaqoji örnəklər. Bakı: Azərnəşr, 1996, 46 s.
82. Sadıqov F. B. Pedaqogika. Bakı: Bakı Biznes Universiteti, 2006, 556 s.
83. Səlimxanova X. İ. Məktəbəqədər tərbiyə müəssisələrində şifahi xalq ədəbiyyatı nümunələrinin öyrədilməsi. Bakı: Maarif, 1985, 72 s.



84. Səmədov A. A. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycanda təhsilə və təhsil xadimlərinə qayğısı. Gəncə: Gəncə Dövlət Universiteti, 2010, 498 s.
85. Smolyaninov Y. F. İnsan gözəlliyi. Bakı: Azərnəşr, 1964, 216 s.
86. Vənəndi Q. Divan (Çapa hazırlayanı, müqəddimə, qeyd və şərhlərin müəllifi filologiya üzrə elmlər doktoru, professor Əsgər Qədimovdur) Bakı: Elm və təhsil, 2014, 428 s.
87. Zeynalov S. M. Şagirdlərin estetik tərbiyəsinin təşkili. Bakı: Maarif, 1972, 107 s.

## RUS DİLİNDƏ

88. Алиев С. И. Азербайджанское советское изобразительное искусство как средство эстетического воспитания учащихся: Автореф. дис. ... конд. пед. наук. Баку, 1973, 44 с.
89. Ашмарин Б.А.,Виленский М.Я. Эстетическое воспитание. Москва: Высшая школа, 1979, 289 с.
90. Васильцова З. П. Мудрые заповеди народной педагогики. Хабаровское книжное издательство, 1989, 141 (2) с.
91. Визитей Н.Н. Спорт и эстетическая деятельность. Кишинев: Щтиинца, 1982, 183 с.
92. Волков Г. Н. Этнопедагогика. Чебоксары: Чувашское книжное издательство, 1974, 376 с.

93. Гашимов А.Ш. Азервайджанская народная педагогика: Автореф. дис. ...dok. пед. наук. Baky, 1970, 142 s.
94. Гашимов А.Ш. Идеи умственного и нравственного воспитания в азербайджанских народных сказках и пословицах: Автореф. дис. ... конд. пед. наук. Баку, 1957, 20 с.
95. Гашимов И. Б.Влияние народно-воспитательных идей,обычаев и традиций на формирование Азербайджанской педагогической мысли и их использование в современной школьной практике. По материалам «Китаби-Деде Коркут»:Автореф. дис. ... канд. пед. наук. Баку, 1987, 24 с.
96. Иоганзен Б. Г. Селская школа и охрана природы. М.: Просвещение, 1976, 143 с.
97. Калашник Н. Г. Густосология. Эстетические вкусы: их истоки и формирование: в 10-х т. Т. 2, Харков: Коллегиум, 2012, 250 с.
98. Костенков П. П. Экологическое воспитание школьников. Барнаул: Алтайское книжное издательство,1990, 158 с.
99. Лихачев Б.Т. Эстетика воспитания. М.: Педагогика, 1972, 160 с.
100. Нездемковская Г.Б. Этнопедагогика: Учебное пособие для вузов. М.: Академический Проект; Альма Матер, 2011, 225 с.
101. Основы эстетисеского воспитания: Пособие


для учителя / Под ред. Н.А.Кушаева. М.: Просвещение, 1986, 238 с.
102. Праздников Г. А. Искусство и спорт. Л.: Просвешение, 1981, 36 с.
103. Салимханова Х. И. Влияние образцов устного творчества на формирование нравственных качеств детей школьного возраста. В старших группах: Автореф. дис. ... канд. пед. наук. Баку, 1990, 26 с.
104. Сухомлинский В. А. Избранные педагогические сочинения: в 3-х т. Т. 1, М.: Педагогика, 1979, 558 с.
105. Сухомлинский В. А.Избранные педагогические сочинения: в 3-х т. Т. 2, М.: Педагогика, 1980, 383 с.
106. Таджеддинов И. Т. Пути и средства екологического воспитания учащихся VI-IX классов Азербайджанской школы: Автореф. дис. ... канд. пед. наук. Баку, 1990, 18 с.
107. Френкин А. А. Эстетика физический культуры. М.: Физкультура и спорт, 1963, 151 с.
108. Халилов В. Дж. Изучение образцов азербайджанского народного творчества в начальных классах как средство эстетического воспитания (На образцах муз. и лит. фольклора) Автореф. дис. ... канд. пед. наук. Баку, 1975, 43 с.
109. Халилов И. К. Вопросы семейного воспитания в фольклоре и их использование в коммуни-

стическом воспитании детей (На материале азербайджанского фольклора). Автореф. дис. ... канд. пед. наук. Баку, 1989, 24 с.

110. Щербо А. Б., Джола Д.Н. Красота воспитывает человека. Киев: Радянська школа, 1980, 104 с.
111. Эстетическое воспитание во внеклассной работе восьмилетней школе / Под ред. Е. Г. Савченко и Ю. И. Рубиной . Изд-во АПН РСФСР, 1963, 327 с.
112. Эстетика и пути творчества / Под ред. В.В. Ванслов и М.Т. Кузминой. М.: Изобразит, искусство,1977, 287 с.

**Qədimbəyli Məhcəbin Əsgər qızı**

*Naxçıvan folklorunda estetik və ekoloji tərbiyə məsələləri (Dərs vəsaiti)*

Yığılmağa verilmiş 01.06.2017.
Çapa imzalanmış 19.07.2017.
Formatı 60X90 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 7.5 ç.v.
Sifariş № 580. Tiraj 300 nüsxə.

Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.

11937

Az 2017
996



*Qədimbəyli ... qızı 27 iyun 1980-ci ildə Naxçıvan şəhərində müəllim ailəsində anadan olmuşdur.*

*2001-ci ildə Naxçıvan Dövlət Universitetinin “İbtidai Təhsilin Pedaqogikası və Metodikası” ixtisasını bitirmiş, həmin ildə “Pedaqogika nəzəriyyəsi və tarixi” ixtisası üzrə NDU-nun əyani magistraturasına daxil olmuş, 2003-cü ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir.*

*2003-2008-ci illərdə NDU-nun “Pedaqogika” kafedrasında baş laborant vəzifəsində çalışmışdır.*

*2008-ci ildə həmin kafedranın tam ştatlı müəllimi, bir müddətdən sonra isə baş müəllimi vəzifəsinə seçilmişdir.*

*2009-cu ildə ikinci təhsil yolu ilə NDU-nun ingilis dili ixtisasına daxil olmuş, 2013-cü ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir.*

*Daha sonra qiyabi yolla dissertant olmuş, “Kiçikhəcmli folklor nümunələrində tərbiyə məsələləri (Naxçıvan flokloru materialları əsasında)” mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş və 2017-ci ildə pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi diplomu almışdır.*

*Hazırda NDU-nun “Pedaqogika və psixologiya” kafedrasında baş müəllim vəzifəsində çalışır.*